RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 212 (9957) 3 oktyabr 2025-ci il CÜMƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

# Avropa ölkələrinin liderləri İlham Əliyevə xüsusi hörmət və rəğbət bəsləyirlər



Oktyabrın 2-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Kopenhagenə işgüzar səfəri çərçivəsində Moldova Respublikasının Prezidenti Maya Sandu, Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyan ilə görüşü olub.

Həmin gün Danimarkanın paytaxtı Kopenhagen şəhərində "Avropa Siyasi Birliyi"nin 7-ci Zirvə toplantısının açılış mərasimi keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

Oktyabrın 2-də Kopenhagendə keçirilmiş "Avropa Siyasi Birliyi"nin 7-ci Zirvə toplantısının açılış plenar sessiyasında dövlət başçısı İlham Əliyev də iştirak edib.

Səfər çərçivəsində Azərbaycan Prezident İlham Əliyevin Kopenhagendə Avropa İttifaqı Şurasının prezidenti Antonio Koşta və Avropa Komissiyasının prezidenti Ursula fon der Lyayen, İtaliya Respublikası Nazirlər Şurasının sədri Ciorcia Meloni, Ukrayna Prezidenti Volodimir Zelenski, Niderland Krallığının Baş naziri Dik Sxof və Fransa Respublikasının Prezidenti Emmanuel Makron ilə görüşü olub.

2-3

## Azərbaycan-Özbəkistan əlaqələri çoxşaxəli əməkdaşlıq gündəliyinə malikdir



Bu gün Özbəkistan təkcə regionda deyil, həm də beynəlxalq aləmdə böyük nüfuz və etimad qazanmış ölkədir. Sizin qətiyyətli rəhbərliyinizlə bütün sahələrdə həyata keçirilən möhtəşəm dəyişikliklərin, sosial-iqtisadi inkişafın, ölkənin iqtisadi potensialının güclənməsinin, qlobal arenada imicinin ildən-ilə artmasının şahidi olmaqdan qardaş ölkə olaraq böyük fərəh hissi duyuruq.

Azərbaycan-Özbəkistan əlaqələri çoxşaxəli əməkdaşlıq gündəliyinə malikdir. Ölkələrimizin siyasi, iqtisadi, ticari, sənaye, enerji, nəqliyyat-logistika, təhlükəsizlik, investisiya, kənd təsərrüfatı, humanitar və digər sahələrdə qarşılıqlı faydalı əməkdaşlığının gündən-günə genişlənməsi və yeni məzmunla zənginləşməsi bizi sevindirir. İkitərəfli əməkdaşlıq zəminində qısa müddət ərzində əldə etdiyimiz misilsiz nailiyyətlər ölkələrimizin tərəqqisinə, xalqlarımızın rifahına, regionumuzda əməkdaşlığa, ümumi firavanlığa və sabitliyə töhfə verir.

Özbəkistanın beynəlxalq hüququn norma və prinsiplərinə, BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin tələblərinə uyğun olaraq Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına verdiyi daimi dəstəyini və ədalətli mövqeyini Azərbaycan xalqı heç zaman unutmur. Sizin azad olunmuş ərazilərimizə dəfələrlə səfər etməyinizə, Füzulidə özbək xalqının böyük oğlu - Mirzə Uluqbəyin adını daşıyan məktəbin inşasına, Xankəndidə birgə tikiş müəssisəsinin yaradılmasında dəstəyinizə və ikitərəfli əlaqələrimizin dərinləşməsinə xidmət edən digər təşəbbüslərinizə görə Sizə bir daha dərin təşəkkürümü bildirirəm. Biz bunu qardaş Özbəkistanın Qarabağın bərpasına verdiyi dəstəyin, eyni zamanda həmrəyliyimizin, qardaşlığımızın parlaq rəmzi olaraq dəyərləndiririk.

4

## Avropa İttifaqı Azərbaycanın regional və qlobal proseslərdəki rolunu düzgün qiymətləndirir

### Prezident İlham Əliyevin "Avropa Siyasi Birliyi"nin 7-ci Zirvə toplantısında iştirakı bunu təsdiqləyir



Hazırda dünyada gedən proseslər və çoxqütblü dünya düzəninin formalaşmağa başladığı şəraitdə məhz orta güc dövlətlərinin mövqeləri və ümumi güc balansında rolu artmaqdadır. Artıq qlobal güclərlə yanaşı, öz regionlarında sabitliyə, inkişafa və əməkdaşlığa mühüm töhfələr verən, həmçinin qlobal gündəliyə təsir imkanına malik olan ölkələr də beynəlxalq münasibətlərin qurucularına çevrilirlər. Azərbaycan da bu yeni reallıqda özünü müstəqil siyasət yürüdən, güclü milli iradəyə və strateji baxışa malik regional və orta güc kimi təsdiqləyib.

Bu baxımdan Prezident İlham Əliyevin ASB-nin zirvə toplantılarında iştirakı həmişə siyasi mərkəzlər, politoloqlar və KİV tərəfindən maraqla izlənilir. Dövlətimizin başçısı indiyə qədər bir neçə dəfə ASB-nin toplantılarında iştirak edib.

Ümumiyyətlə, Prezident İlham Əliyev Azərbaycanın üzvü olduğu beynəlxalq təşkilatlarla yanaşı, üzvü olmadığı təşkilatların da sammit, konfrans və görüşlərinə dəvət alır. Sentyabrın 1-də Prezident İlham Əliyev Çin Xalq Respublikasının Sədri Si Cinpinin dəvəti ilə Şanxay Əməkdaşlıq Təşkilatının Sammitində iştirak etmişdi. İndi isə Prezident İlham Əliyev Danimarkanın Baş naziri Mette Frederiksenin və Avropa İttifaqı Şurasının prezidenti Antonio Koştanın dəvəti ilə ASB-nin 7-ci Zirvə toplantısında iştirak edir. Bu da həm dövlətimizin başçısının, həm də respublikamızın beynəlxalq münasibətlər sistemində malik olduqları yüksək nüfuzun bariz göstəricisidir.

7

## Türk dünyasının qlobal gücə çevrilməsi zamanın çağırışıdır




Azərbaycan türk birliyinin qlobal mərkəzə çevrilməsi üçün yeni təşəbbüslər və ideyalar irəli sürür. Tarixi köklərlə sıx bağlı olduğumuz türk xalqlarının, dövlətlərinin həmrəyliyinin hazırda özünün ən yüksək pilləyə yüksəlməsində ölkəmizin xüsusi yerinin olduğunu desək, qətiyyən yanılmarıq.

Hər zaman çıxışlarında "XXI əsr türk dünyasının inkişafı əsri olmalıdır" deyən Prezident İlham Əliyev "türk dünyası ailəsi"nin həmrəyliyinin daha da gücləndirilməsi istiqamətində şəxsi səylər nümayiş etdirir. 2009-cu ildən - yarandığı dövrdən etibarən TDT-nin güclənməsi, hədəflədiyi məqsədlərə yetməsi üçün ölkəmiz əməli addımlar atıb. Quruma sədrliyi dövründə Azərbaycan türk dövlətləri arasında əlaqələrin daha da genişlənməsi və dərinləşməsi üçün yeni təşəbbüslərlə çıxış edib, mühüm ideyalar irəli sürüb.

7




8

◆ Azərbaycan Prezidenti İlham Əliyevin Danimarkaya işgüzar səfəri

# Avropa ölkələrinin liderləri İlham Əliyevə xüsusi hörmət və rəğbət bəsləyirlər

## Kopenhagendə Moldova Prezidenti ilə görüş





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Kopenhagendə Moldova Respublikasının Prezidenti Maya Sandu ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Moldovada keçirilmiş parlament seçkilərində Maya Sandunun rəhbərlik etdiyi hakim Fəaliyyət və Həmrəylik Partiyasının qələbə qazanması münasibətilə təbriklərini çatdıraraq, bu seçkilərin Moldova xalqının iradəsini əks etdirdiyini dedi.

Moldova Prezidenti təbriklərə görə təşəkkürünü ifadə etdi. O da öz növbəsində Vaşinqtonda Ermənistanla Azərbaycan arasında Amerika Birləşmiş Ştatlarının şahidliyi ilə sülh gündəliyi üzrə əldə olunmuş nəticələr münasibətilə Prezident İlham Əliyevi təbrik etdi.

Təbriklərə görə minnətdarlığını bildirən dövlətimizin başçısı Ermənistanla Azərbaycan arasında sülh gündəliyi ilə bağlı əldə olunmuş nəticələrin tarixi əhəmiyyət kəsb etdiyini bildirdi.

Görüşdə ikitərəfli münasibətlərimizin inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparıldı, xüsusilə də enerji sahəsində əməkdaşlıq üçün geniş imkanların olduğu vurğulandı. Prezident Maya Sandu Moldovanın xüsusilə enerjiyə ehtiyac duyduğu zamanda Azərbaycanın göstərdiyi dəstəyin yüksək qiymətləndirildiyini qeyd etdi.

## Kopenhagendə "Avropa Siyasi Birliyi"nin 7-ci Zirvə toplantısının açılış mərasimi keçirilib

### Azərbaycan Prezidenti İlham Əliyev tədbirdə iştirak edib





**Oktyabrın 2-də Danimarkanın paytaxtı Kopenhagen şəhərində "Avropa Siyasi Birliyi"nin 7-ci Zirvə toplantısının açılış mərasimi keçirilib.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

Danimarkanın Baş naziri Mette Frederiksen Azərbaycan Prezidenti İlham Əliyevi, Zirvə toplantısında iştirak edən digər dövlət və hökumət başçılarını qarşıladı.

Qeyd edək ki, "Avropa Siyasi Birliyi"nin 7-ci Zirvə toplantısında ümumilikdə 50-yə yaxın ölkədən dövlət və hökumət başçıları iştirak edirlər.

Plenar iclaslarda və ondan sonra keçiriləcək "dəyirmi masa"larda Avropadakı ümumi təhlükəsizlik vəziyyəti, Rusiya-Ukrayna müharibəsi, iqtisadi təhlükəsizlik, miqrasiya, ənənəvi və hibrid təhlükələr kimi mövzular müzakirə olunur. "Avropa Siyasi Birliyi" təhlükəsizlik, iqtisadi sabitlik, demokratik idarəetmə kimi sahələrdə əməkdaşlığı gücləndirmək məqsədilə həm Avropa İttifaqı daxilində, həm də ondan kənarda kiçik və böyük ölkələr arasında siyasi-iqtisadi koordinasiyanı təşviq etməyə yönəlmiş hökumətlərarası platformadır. Birliyin məqsədi ümumi maraq doğuran məsələlərin həlli üçün siyasi dialoqu və əməkdaşlığı inkişaf etdirmək, Avropa qitəsinin təhlükəsizliyini, sabitliyini və rifahını gücləndirməkdir.

## Azərbaycan Prezidenti İlham Əliyevin Kopenhagendə Ermənistanın Baş naziri Nikol Paşinyan ilə görüşü olub



**Oktyabrın 2-də Kopenhagendə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyan ilə görüşü olub.**

AZƏRTAC xəbər verir ki, görüşdə tərəflər ABŞ Prezidenti Donald Trampın təşəbbüsü ilə keçirilmiş Vaşinqton Sülh Sammitində əldə olunan razılaşmaların əhəmiyyətini vurğulayıblar. Onlar Ermənistan və Azərbaycan arasında sülhün daha da möhkəmləndirilməsi istiqamətində səy göstərməyə hazır olduqlarını bir daha təsdiq ediblər.

Azərbaycan Prezidenti və Ermənistanın Baş naziri regionda nəqliyyat kommunikasiyalarının faydalarını vurğulayıb, Azərbaycan ərazisində infrastrukturun inkişafı ilə bağlı cari işlərin gedişatı və Ermənistan ərazisində TRIPP layihəsini müzakirə edib, Vaşinqton Bəyannaməsinin icrası ilə bağlı fikir mübadiləsi aparıblar.

Tərəflər bu xüsusda ATƏT-in Minsk prosesinin və onunla əlaqəli strukturların ləğv olunması ilə bağlı yekdilliklə qəbul edilmiş qərarı alqışlayıblar. Görüşdə tərəflər etimad quruculuğu tədbirlərinin bundan sonra da həyata keçirilməsinin vacibliyini vurğulayıb və təmasları davam etdirmək barədə razılığa gəliblər.

## Prezident İlham Əliyev Kopenhagendə Avropa İttifaqı Şurasının və Avropa Komissiyasının prezidentləri ilə görüşüb

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oktyabrın 2-də Kopenhagendə Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koşta və Avropa Komissiyasının prezidenti Ursula fon der Lyayen ilə görüşü olub.**





AZƏRTAC xəbər verir ki, görüşdə Antonio Koşta və Ursula fon der Lyayen dövlətimizin başçısını Ermənistanla Azərbaycan arasında sülh gündəliyi ilə əlaqədar Vaşinqtonda əldə edilmiş nailiyyətlər münasibətilə təbrik etdilər, bunun regionda davamlı sülhün təmin olunmasına xidmət edəcəyinə ümidvarlıqlarını bildirdilər. Antonio Koşta və Ursula fon der Lyayen sülhün dəstəklənməsi üçün bundan sonra da səylərini davam etdirəcəklərini bildirdilər. Onlar həmçinin regionda nəqliyyat bağlantılarının inkişafının Avropa İttifaqı üçün mühüm istiqamət olduğunu dedilər.

Görüşdə Azərbaycanın Avropa İttifaqının enerji təhlükəsizliyində oynadığı rola toxunuldu, 2022-ci ildə Avropa İttifaqı ilə Azərbaycan arasında enerji sahəsində strateji tərəfdaşlığa dair əldə edilmiş razılaşmaya uyğun olaraq Azərbaycanın Avropanın qaz bazarına ixracının həcminin artdığı bildirildi.

Dövlətimizin başçısı təbriklərə görə təşəkkürünü bildirdi və sülh gündəliyi ilə bağlı nailiyyətlərin bütün region, o cümlədən Ermənistan və Azərbaycan üçün tarixi əhəmiyyət kəsb etdiyini dedi. Prezident İlham Əliyev həm Ermənistanın, həm də Azərbaycanın artıq sülh şəraitində yaşamağa uyğunlaşdıqlarını qeyd etdi və ölkəmizin sülh gündəliyinin irəli aparılması üçün səyləri davam etdirəcəyini vurğuladı.

Prezident İlham Əliyev hazırda Avropanın 10, o cümlədən Avropa İttifaqının 8 üzv dövlətinin Azərbaycan qazını aldığını bildirdi və bunun Avropa İttifaqının enerji təhlükəsizliyinə mühüm töhfə olduğunu dedi.

Dövlətimizin başçısı Azərbaycanın Orta dəhlizin inkişafında oynadığı rolu qeyd edərək, ölkəmizdə nəqliyyat-logistika infrastrukturunun inkişaf etdirilməsi istiqamətində görülən işlərdən danışdı və hazırda Mərkəzi Asiyadan Azərbaycan ərazisindən nəqliyyat daşımalarının həcminin artdığını bildirdi.

Görüşdə Azərbaycanla Avropa İttifaqı arasında əlaqələrin inkişaf etdirilməsi və yeni səviyyəyə qaldırılması üçün yaxşı imkanların olduğu vurğulandı.

◆ Azərbaycan Prezidenti İlham Əliyevin Danimarkaya işgüzar səfəri

# Avropa ölkələrinin liderləri İlham Əliyevə xüsusi hörmət və rəğbət bəsləyirlər

## Prezident İlham Əliyev "Avropa Siyasi Birliyi"nin 7-ci Zirvə toplantısının açılış plenar sessiyasında iştirak edib




Oktyabrın 2-də Kopenhagendə "Avropa Siyasi Birliyi"nin 7-ci Zirvə toplantısının açılış plenar sessiyası keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

Sonra tədbirin iştirakçıları birgə foto çəkdiriblər.




## Azərbaycan Prezidenti İlham Əliyevin Kopenhagendə İtaliya Nazirlər Şurasının sədri ilə görüşü olub

**Oktyabrın 2-də Kopenhagendə "Avropa Siyasi Birliyi"nin 7-ci Zirvə toplantısı çərçivəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İtaliya Respublikası Nazirlər Şurasının sədri Ciorcia Meloni ilə görüşü olub.**



AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycanla İtaliya arasında münasibətlərin hərtərəfli strateji tərəfdaşlıq müstəvisində inkişaf etdiyi bildirildi və bu xüsusda bir neçə gün əvvəl İtaliya Prezidentinin Azərbaycana uğurlu rəsmi səfəri, səfər çərçivəsində Bakıda İtaliya-Azərbaycan Universitetinin ilk tədris korpuslarının açılışı qeyd olundu.

Söhbət zamanı Azərbaycan ilə İtaliyanın enerji sahəsində uğurlu əməkdaşlığına toxunuldu, ölkəmizin İtaliyanın enerji təhlükəsizliyinə töhfəsi vurğulandı. Ölkələrimiz arasında investisiyalar, mədəniyyət, humanitar və digər sahələrdə əməkdaşlığın inkişafından məmnunluq ifadə olundu.

## Azərbaycan Prezidenti İlham Əliyevin Kopenhagendə Ukrayna Prezidenti ilə görüşü olub

**Oktyabrın 2-də Kopenhagendə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ukrayna Prezidenti Volodimir Zelenski ilə görüşü olub.**

AZƏRTAC xəbər verir ki, Ukrayna Prezidenti Ermənistanla Azərbaycan arasında sülh gündəliyi ilə bağlı Vaşinqtonda əldə olunmuş nəticələr münasibətilə dövlətimizin başçısına təbriklərini çatdırdı.

Təbriklərə görə minnətdarlığını bildirən Prezident İlham Əliyev sülh gündəliyinin irəliyə aparılması istiqamətində atılmış addımların tarixi əhəmiyyət kəsb etdiyini dedi. Dövlətimizin başçısı regionda davamlı sülhün təmin olunması üçün Azərbaycanın bundan sonra da səylərini davam etdirəcəyini vurğuladı.



Görüşdə Azərbaycanın Ukraynaya humanitar dəstəyi, xüsusilə də ukraynalı uşaqlara göstərilən diqqət və qayğı qeyd olundu. Ukrayna tərəfi buna görə təşəkkürünü bildirdi. Söhbət zamanı iki ölkə arasında enerji sahəsində əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparıldı.

## Azərbaycan Prezidenti İlham Əliyev Kopenhagendə Niderlandın Baş naziri ilə görüşüb



**Oktyabrın 2-də Kopenhagendə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Niderland Krallığının Baş naziri Dik Sxof ilə görüşü olub.**

AZƏRTAC xəbər verir ki, Niderlandın Baş naziri Ermənistanla Azərbaycan arasında sülh gündəliyinin irəliyə aparılması ilə bağlı Vaşinqtonda əldə olunmuş nəticələrlə əlaqədar dövlətimizin başçısına təbriklərini çatdıraraq, bunun mühüm əhəmiyyət daşıdığını vurğuladı. Prezident İlham Əliyev də öz növbəsində Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın şahidliyi ilə Ermənistanla Azərbaycan arasında imzalanmış Vaşinqton Bəyannaməsinin və Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşdırılmasına dair sənədin regional sülh baxımından əhəmiyyətinə toxundu, iki ölkə arasında artıq sülhün mövcud olduğunu qeyd etdi.

Görüşdə Niderland şirkətlərinin Azərbaycanda uğurla fəaliyyət göstərdiyi vurğulandı, bunun gəmiçilik, limanların qurulması, elektrik sənayesi, kənd təsərrüfatı, şəhərsalma və digər sahələri əhatə etdiyi qeyd olundu. Söhbət zamanı Azərbaycanla Niderland arasında beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq məsələlərinə toxunuldu.

Niderlandın Baş naziri ölkəmizdə COP29-un uğurla keçirilməsi münasibətilə təbriklərini çatdırdı və həmin tədbir çərçivəsində beynəlxalq iqlim gündəliyi ilə əlaqədar ciddi nəticələrin əldə olunduğunu qeyd etdi.

## Azərbaycan Prezidenti İlham Əliyevin Kopenhagendə Fransa Prezidenti ilə görüşü olub

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oktyabrın 2-də Kopenhagendə Fransa Respublikasının Prezidenti Emmanuel Makron ilə görüşü olub.**



AZƏRTAC xəbər verir ki, Fransa Prezidenti Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşması və sülh gündəliyi ilə əlaqədar nəticələr münasibətilə dövlətimizin başçısını təbrik etdi.

Təbriklərə görə təşəkkürünü bildirən Prezident İlham Əliyev Azərbaycanla Ermənistan arasında Amerika Birləşmiş Ştatları Prezidentinin şahidliyi ilə Vaşinqtonda əldə olunmuş nəticələrin regional sülh gündəliyinin irəli aparılması üçün tarixi əhəmiyyət kəsb etdiyini vurğuladı. Dövlətimizin başçısı hazırda sülh gündəliyinin irəliyə aparılması üçün müxtəlif istiqamətlər üzrə qarşılıqlı fəaliyyətin həyata keçirildiyini qeyd etdi.

Görüşdə Azərbaycanla Fransa arasında əlaqələrin mövcud vəziyyəti və perspektivlərinə dair fikir mübadiləsi aparıldı.



# Azərbaycan-Özbəkistan əlaqələri çoxşaxəli əməkdaşlıq gündəliyinə malikdir

## Özbəkistan Respublikasının Prezidenti zati-aliləri cənab Şavkat Mirziyoyevə

Hörmətli Şavkat Miromonoviç!

Əziz Qardaşım!

Sizi və Sizin simanızda qardaş Özbəkistan xalqını Azərbaycan Respublikası və Özbəkistan Respublikası arasında əlamətdar ildönümü - diplomatik münasibətlərin qurulmasının 30 illiyi münasibətilə ürəkdən təbrik etməkdən və ən səmimi arzularımı çatdırmaqdan böyük məmnunluq duyuram.

Diplomatik əlaqələrimiz otuzillik tarixə malik olsa da, qardaş xalqlarımızın əsrlərdən-əsrlərə və nəsillərdən-nəsillərə keçən birlik, həmrəylik, qarşılıqlı hörmət və dəstək ənənələri mövcuddur. Ortaq soy-kök, tarix, dil, mədəniyyət, dini-mənəvi dəyərlər və qardaşlıq kimi möhkəm təməllər üzərində qurulmuş Azərbaycan-Özbəkistan dövlətlərarası münasibətlərinin ötən dövr ərzində dinamik inkişaf edərək ali səviyyəyə - müttəfiqlik pilləsinə yüksəlməsi xüsusi məmnunluq doğurur. Keçən il imzaladığımız müqavilə iki müstəqil, güclü, suveren dövlətimiz arasında təbii müttəfiqliyi rəsmiləşdirən və əbədiləşdirən mühüm tarixi sənəddir. Azərbaycan-Özbəkistan birliyinin və tərəfdaşlığının möhkəmlənməsində və bu səviyyəyə çatmasında Sizin müstəsna rolunuzu və xidmətlərinizi xüsusi vurğulamaq istərdim.

Bu gün Özbəkistan təkcə regionda deyil, həm də beynəlxalq aləmdə böyük nüfuz və etimad qazanmış ölkədir. Sizin qətiyyətli rəhbərliyinizlə bütün sahələrdə həyata keçirilən möhtəşəm dəyişikliklərin, sosial-iqtisadi inkişafın, ölkənin iqtisadi potensialının güclənməsinin, qlobal arenada imicinin ildən-ilə artmasının şahidi olmaqdan qardaş ölkə olaraq böyük fərəh hissi duyuruq.

Azərbaycan-Özbəkistan əlaqələri çoxşaxəli əməkdaşlıq gündəliyinə malikdir. Ölkələrimizin siyasi, iqtisadi, ticari, sənaye, enerji, nəqliyyat-logistika, təhlükəsizlik, investisiya, kənd təsərrüfatı, humanitar və digər sahələrdə qarşılıqlı faydalı əməkdaşlığının gündən-günə genişlənməsi və yeni məzmunla zənginləşməsi bizi sevindirir. İkitərəfli əməkdaşlıq zəminində qısa müddət ərzində əldə etdiyimiz misilsiz nailiyyətlər ölkələrimizin tərəqqisinə, xalqlarımızın rifahına, regionumuzda əməkdaşlığa, ümumi firavanlığa və sabitliyə töhfə verir.

Özbəkistanın beynəlxalq hüququn norma və prinsiplərinə, BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin tələblərinə uyğun olaraq Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına verdiyi daimi dəstəyini və ədalətli mövqeyini Azərbaycan xalqı heç zaman unutmur. Sizin azad olunmuş ərazilərimizə dəfələrlə səfər etməyinizə, Füzulidə özbək xalqının böyük oğlu - Mirzə Uluqbəyin adını daşıyan məktəbin inşasına, Xankəndidə birgə tikiş müəssisəsinin yaradılmasında dəstəyinizə və ikitərəfli əlaqələrimizin dərinləşməsinə xidmət edən digər təşəbbüslərinizə görə Sizə bir daha dərin təşəkkürümü bildirirəm. Biz bunu qardaş Özbəkistanın Qarabağın bərpasına verdiyi dəstəyin, eyni zamanda həmrəyliyimizin, qardaşlığımızın parlaq rəmzi olaraq dəyərləndiririk.

İkitərəfli müstəvidə olduğu kimi, çoxtərəfli əsasda da vacib məsələlərin həlli istiqamətində ölkələrimizin birgə fəaliyyəti təqdirəlayiqdir. Azərbaycan ilə Özbəkistan arasında beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı etimad və dəstəyə əsaslanan əməkdaşlıq uğurla davam edir. Regional və beynəlxalq məsələlərə ortaq baxışlarımız, ümumi məqsədlərimiz və istəklərimiz, o cümlədən üzləşdiyimiz çağırışların həlli istiqamətində bir-birimizə verdiyimiz dəstək xalqlarımızın maraqlarına, dövlətlərimizin mənafelərinə xidmət edir.



Hazırda Mərkəzi Asiya, Cənubi Qafqaz və Xəzər regionları vahid geosiyasi regiona çevrilməkdədir. Bu coğrafi müstəvidə gedən müsbət proseslərdə, əlbəttə ki, Azərbaycan ilə Özbəkistan arasında möhkəm əlaqələrin və səmərəli əməkdaşlığın mühüm rolu vardır.

Əziz Qardaşım!

Füsunkar ölkənizə həyata keçirdiyim hər səfərimdə mənə göstərilən xüsusi diqqət və qonaqpərvərliyi, əsl qardaşlıq münasibətini yüksək qiymətləndirir, Sizinlə mehribanlıq və səmimiyyət şəraitində keçən görüşlərimizi ən xoş təəssüratlarla xatırlayıram.

Əminəm ki, bir-birinə qırılmaz tellərlə bağlı olan qardaş xalqlarımızın sarsılmaz iradəsindən qaynaqlanan Azərbaycan-Özbəkistan dövlətlərarası münasibətlərinin xoş ənənələrini yaşatmaq və möhkəmləndirmək, müttəfiqliyimizi dərinləşdirmək yolunda birgə səylərimizi bundan sonra da uğurla davam etdirəcəyik.

Sizi bu əlamətdar tarixi ildönümü münasibətilə bir daha səmimi-qəlbdən təbrik edir, möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, qardaş Özbəkistan xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 sentyabr 2025-ci il*

# Qarşılıqlı etimad və hörmət prinsiplərinə əsaslanan strateji tərəfdaşlıq sürətlə inkişaf edəcək

## Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli İlham Heydər oğlu!

Əziz qardaşım!

Zati-aliləri, əvvəlcə Sizi və qardaş Azərbaycan xalqını Özbəkistan ilə Azərbaycan arasında diplomatik münasibətlərin qurulmasının mübarək 30 illiyi münasibətilə səmimi-qəlbdən təbrik etməkdən böyük məmnunluq duyuram.

Xüsusilə qeyd etmək istərdim ki, ötən dövrdə əməkdaşlığımızın salnaməsi yaddaqalan hadisələrlə zəngin olmuş, bütün sahələrdə əlaqələr ardıcıl şəkildə inkişaf etmişdir. Əhatəli və uzunmüddətli münasibətlərimizi hərtərəfli möhkəmləndirməyə yönəlmiş hüquqi baza və səmərəli institusional mexanizmlər, çoxtərəfli formatlar yaradılmışdır.

Şübhəsiz ki, Özbəkistan ilə Azərbaycan arasında mövcud olan ortaq qardaşlıq, bizi birləşdirən möhkəm dostluq bağları, müntəzəm xarakter almış ali səviyyəli səmərəli dialoqlarımız qardaş xalqlarımızın ümumi tərəqqisinə xidmət etməkdədir.

Xüsusilə son illərdə dövlətlərarası münasibətlərimizin tamamilə yeni tarixi mərhələyə, müttəfiqlik səviyyəsinə yüksəlməsi qəti siyasi iradəmizin və birgə ardıcıl səylərimizin parlaq praktik ifadəsi kimi dəyərləndirilə bilər.

Hörmətli İlham Heydər oğlu, əminəm ki, qarşılıqlı etimad və hörmət prinsiplərinə əsaslanan strateji tərəfdaşlığımız bütün prioritet istiqamətlərdə, o cümlədən siyasi, iqtisadi, ticarət, nəqliyyat, logistika, energetika, sənaye, kənd təsərrüfatı, turizm və mədəniyyət sahələrində bundan sonra da sürətlə inkişaf edəcəkdir.

Şübhəsiz ki, Zati-alinizlə cari ildə həm Azərbaycanda, həm də Özbəkistanda keçiriləcək bir sıra mühüm görüşlərimiz təkcə ikitərəfli münasibətlərimizin perspektivləri üzrə deyil, həm də regional tərəfdaşlığın ən aktual məsələlərə dair ətraflı fikir mübadiləsi aparmaq üçün əlverişli imkan yaradacaqdır.

Çoxşaxəli əlaqələrimizin salnaməsindəki bu əlamətdar gün münasibətilə Zati-alinizi bir daha təbrik edir, Sizə möhkəm cansağlığı, ailə səadəti, son dərəcə məsuliyyətli dövləti fəaliyyətinizdə böyük uğurlar, qardaş Azərbaycan xalqına isə sülh, əmin-amanlıq, rifah və davamlı tərəqqi arzulayıram.

*Səmimi ehtiramla,*

***Şavkat MİRZİYOYEV,***
***Özbəkistan Respublikasının Prezidenti***

# Azərbaycan Respublikasının 2026-cı il üzrə dövlət büdcəsinin və icmal büdcənin layihələri və sonrakı üç il üçün icmal büdcənin göstəriciləri, Azərbaycan Respublikasının 2026-cı il və sonrakı üç il üzrə iqtisadi və sosial inkişaf konsepsiyası və proqnoz göstəriciləri haqqında

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 285** **Bakı şəhəri, 25 sentyabr 2025-ci il**

"Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 31 oktyabr tarixli 809 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Azərbaycan Respublikasının 2026-cı il üzrə dövlət büdcəsinin və icmal büdcənin layihələri və sonrakı üç il üçün icmal büdcənin göstəriciləri" və "Azərbaycan Respublikasının 2026-cı il və sonrakı üç il üzrə iqtisadi və sosial inkişaf konsepsiyası və proqnoz göstəriciləri" bəyənilsin.

2. Bu Qərarın 1-ci hissəsində qeyd olunan layihələr "Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanununun 12-ci maddəsində nəzərdə tutulmuş digər sənədlərlə birlikdə Azərbaycan Respublikasının Prezidentinə təqdim edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Ankarada İslam Əməkdaşlıq Təşkilatının Statistika Komissiyasının 14-cü sessiyası keçirilir

## Tədbirdə Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov da iştirak edir

2025-ci il oktyabrın 1-də Türkiyənin paytaxtı Ankara şəhərində İslam Əməkdaşlıq Təşkilatının İslam ölkələri üçün Statistik, İqtisadi və Sosial Tədqiqat və Təlim Mərkəzinin (SESRIC) təşkilatçılığı ilə İslam Əməkdaşlıq Təşkilatının Statistika Komissiyasının 14-cü sessiyası öz işinə başlayıb. Tədbirdə ölkəmizi Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov təmsil edir.

Oktyabrın 3-dək davam edəcək sessiya zamanı Statistika Komissiyasının son bir il ərzində fəaliyyəti və 2026-2030-cu illər üçün fəaliyyət proqramı nəzərdən keçiriləcək, eyni zamanda məlumat əsaslı energetikaya keçidin təmin olunmasında milli statistika qurumlarının rolu, rəqəmsallaşma vasitəsilə milli statistika qurumlarının modernizasiyası, 4-cü Dayanıqlı İnkişaf Məqsədinin (Keyfiyyətli təhsil) göstəricilərinin monitorinqi və hesabatlılıq, digər aktual məsələlər üzrə müzakirələr aparılacaq, ölkə təcrübələri bölüşüləcəkdir.

Sessiyanın 2-ci günü Dövlət Statistika Komitəsinin Statistika işlərinin əlaqələndirilməsi və strateji planlaşdırma şöbəsinin müdiri Toğrul Əcəlov rəqəmsallaşma vasitəsilə milli statistika sisteminin modernizasiyasına dair təqdimat edib, komitə tərəfindən göstərilən elektron xidmətlər, məlumat yayımı prosesinin rəqəmsallaşdırılması, inzibati məlumatlardan istifadənin genişləndirilməsi, rəsmi statistikada irihəcmli və peyk təsviri məlumatlarından istifadə, kənd təsərrüfatı siyahıyaalınmasının rəqəmsallaşdırılması sahəsində görülmüş işlər barədə tədbir iştirakçılarına geniş məlumat verib.

***"Azərbaycan"***








# Azərbaycanla Yaponiya arasında siyasi məsləhətləşmələr aparılıb




Oktyabrın 2-də Bakıda Azərbaycan ilə Yaponiya Xarici İşlər nazirlikləri arasında növbəti siyasi məsləhətləşmələr keçirilib.

Bu barədə AZƏRTAC-a Azərbaycan Xarici İşlər Nazirliyindən məlumat verilib.

Nümayəndə heyətinə Azərbaycan tərəfindən xarici işlər nazirinin müavini Elnur Məmmədov, Yaponiya tərəfindən isə Xarici İşlər Nazirliyinin Avropa bürosunun Baş direktorunun müavini, Mərkəzi Asiya, Qafqaz və GUAM üzrə xüsusi nümayəndə Masaki İşikava başçılıq ediblər.

Siyasi məsləhətləşmələr zamanı siyasi, iqtisadi, investisiya, ticarət, təhsil, mədəniyyət, humanitar, enerji, ekologiya, iqlim, turizm və digər sahələrdə əməkdaşlığa dair fikir mübadiləsi aparılıb.

İkitərəfli münasibətlərin inkişafının müxtəlif sahələri, beynəlxalq arenada və regional məsələlər üzrə aparılan müzakirələrin qarşılıqlı anlaşma baxımından əhəmiyyəti, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın davam etdirilməsinin vacibliyi xüsusi qeyd olunub.

Nazir müavini Elnur Məmmədov qarşı tərəfə Azərbaycanın sülh gündəliyi, Ermənistanla münasibətlərdə normallaşma prosesi, işğaldan azad edilmiş ərazilərdə bərpa və quruculuq işləri, investisiya layihələri haqqında ətraflı məlumat verib.

# *İtaliyalı politoloq:* "İtaliya-Azərbaycan münasibətlərində yeni mərhələ açılıb"

"İtaliya Prezidenti Sercio Mattarellanın Bakıya rəsmi səfəri İtaliya-Azərbaycan münasibətlərində yeni mərhələ açdı. İki ölkə arasında ali səviyyədə imzalanan bəyanatlar təkcə ikitərəfli əlaqələrin əhəmiyyətini deyil, həm də Azərbaycanın beynəlxalq müstəvidə, xüsusilə Avropanın enerji təhlükəsizliyində oynadığı mərkəzi rolu bir daha təsdiqlədi".



Bu barədə AZƏRTAC-a açıqlamasında italiyalı politoloq, bu ölkənin Beynəlxalq Siyasət və İqtisadi Araşdırmalar İnstitutunun rəhbəri, jurnalist Domeniko Letizia bildirib.

"Prezident Mattarellanın Bakıya səfəri iki ölkə arasındakı münasibətlərin nə qədər güclü və davamlı olmasının göstəricisidir. Azərbaycan coğrafi mövqeyi və təbii ehtiyatları sayəsində Avropanın enerji marşrutlarının şaxələndirilməsində aparıcı oyunçuya çevrilib. Bu baxımdan "Cənub qaz dəhlizi" və onun əsas seqmentlərindən olan Trans-Adriatik boru kəməri Avropa İttifaqının enerji təhlükəsizliyinə mühüm töhfə verir. Bu həm də ənənəvi mənbələrdən asılılığın azaldılmasına və Avropanın enerji müstəqilliyinə xidmət edir", - deyə o qeyd edib.

İtaliyanın Azərbaycanın yalnız iri ticarət tərəfdaşı deyil, eyni zamanda mədəniyyət, təhsil, infrastruktur, sənaye və texnologiya sahələrində də etibarlı tərəfdaşı olduğunu bildirən Domeniko Letizia deyib ki, təhsil və universitetlərarası əməkdaşlıq layihələri iqtisadi münasibətlərin hüdudlarını aşaraq, Avropa ilə Qafqaz arasında dialoq və qarşılıqlı anlaşmaya əsaslanan körpü yaradır.

O diqqətə çatdırıb ki, İtaliya-Azərbaycan əlaqələrinin möhkəmlənməsi Cənubi Qafqaz regionunda sabitliyin təşviqi baxımından da əhəmiyyətli imkanlar açır: "İtaliya diplomatik ənənələri və Avropa səviyyəsində malik olduğu nüfuz sayəsində sülh proseslərinin dəstəklənməsində, siyasi vasitəçilikdə və regional əməkdaşlıq layihələrinin inkişafında fəal rol oynaya bilər. Bununla belə, regionda gərginlik və geosiyasi risklər, eləcə də enerji sahəsində dayanıqlılıq və inklüzivlik məsələləri ortadan qalxmayıb. Buna görə də Azərbaycanla tərəfdaşlığın gücləndirilməsi təkcə İtaliya üçün deyil, bütün Avropa İttifaqı üçün strateji prioritet kimi dəyərləndirilməlidir".



# Tarixi əlaqələrdən strateji müttəfiqliyə

## Azərbaycan-Çin hərtərəfli münasibətləri dinamik inkişaf edir

**"Çin Xalq Respublikası ilə əlaqələrin inkişaf etdirilməsi Azərbaycanın xarici siyasətinin prioritet istiqamətlərindəndir. Məmnunluqla qeyd etmək istərdim ki, son dövrdə Azərbaycan-Çin münasibətləri yeni mərhələyə qədəm qoymuşdur. Aramızdakı fəal dialoq, səmimiyyət və qarşılıqlı etimad şəraitində keçən görüşlərimiz, təmaslarımızın intensivliyi Azərbaycan-Çin əlaqələrinin səviyyəsindən və yüksək dinamikasından xəbər verir".**

Prezident İlham Əliyevin sentyabrın 29-da Çin Xalq Respublikasının (ÇXR) Sədri Si Cinpinə ölkəsinin milli bayramı münasibətilə ünvanladığı təbrik məktubunda xüsusilə qeyd etdiyi kimi, tarixi dostluq münasibətlərinə malik iki ölkənin hazırkı əlaqələri özünün ən yüksək zirvəsinə qalxıb. Pekinlə münasibətlərə xüsusi əhəmiyyət verən və yürütdüyü məqsədyönlü siyasət nəticəsində yerləşdiyi strateji coğrafi bölgəni nəqliyyat, enerji qovşağına çevirən Azərbaycanla hərtərəfli əlaqələr qurmaqda dünyanın nəhəng siyasi və iqtisadi güc mərkəzi Çin də maraqlıdır.

### Qarşılıqlı etimad

Tarixi İpək yolunun birləşdirdiyi ölkələrimiz hər zaman bir-birilərinin suverenliyini dəstəkləyirlər. Dövlətimiz rəsmən bəyan edir ki, Azərbaycan daim "Vahid Çin" siyasətini dəstəkləyir. Reallıqdır ki, xüsusilə son dövrlər iki ölkə arasında münasibətlər daha da şaxələnərək sürətli inkişaf yoluna qədəm qoyub. Prezident İlham Əliyevin təkcə bu il ərzində Çinə iki dəfə - aprel və avqust aylarında dövlət və işgüzar səfər etməsi, həmçinin Pekinlə Bakı arasında ötən il Birgə Bəyannamənin qəbul edilməsi, cari ildə Birgə Bəyanatın imzalanması buna bariz nümunədir. Ələlxüsus iki ölkə lideri İlham Əliyev və Si Cinpin arasındakı qarşılıqlı etimada əsaslanan səmimi dostluq münasibətləri əlaqələrin daha da möhkəmlənməsinə əhəmiyyətli töhfələr verir. Bu il avqustun 31-də Çinin Tiencin şəhərində Prezident İlham Əliyevin Çin Sədri Si Cinpin ilə görüşü zamanı dövlətimizin başçısını "mənim əziz dostum" deyərək salamlayan Çin Sədri bu səmimi müraciəti ilə həm də İlham Əliyevə göstərdiyi dərin hörmət və ehtiramı nümayiş etdirdi.

Ölkəmizin bütün əlamətdar günlərində Azərbaycana təbrik məktubları ünvanlayan Si Cinpinin İlham Əliyevi son prezident seçkiləri münasibətilə ilk təbrik edən liderlərdən biri olması da təsadüfi xarakter daşımırdı.

"Mən Çin-Azərbaycan münasibətlərinə böyük əhəmiyyət verirəm, bizim işgüzar münasibətlərimizi və şəxsi dostluğumuzu yüksək qiymətləndirirəm. Sizinlə birlikdə ikitərəfli münasibətlərin inkişafı və bütün sahələrdə əməkdaşlığın yeni səviyyəyə yüksəldilməsində birgə səylər göstərməyə hazıram", - deyə təbrik məktubunda Çin lideri bildirirdi.

Bütün bunlar isə Çin-Azərbaycan əlaqələrinin dostluğa və səmimiyyətə dayanan hərtərəfli inkişafına mühüm təkanlar verir.

### Əməkdaşlıq üçün geniş imkanlar

2024-cü il iyulun 3-də Şanxay Əməkdaşlıq Təşkilatının Astanada keçirilən Zirvə toplantısı çərçivəsində "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamə" qəbul olunub. Bununla da 1992-ci ildən diplomatik əlaqələrə malik ölkələrimiz gələcək əməkdaşlıqlarına geniş imkanlar açıblar.

Prezident İlham Əliyevin Çinə dövlət səfəri çərçivəsində bu il aprelin 23-də Pekində "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanat" imzalanıb. Adıçəkilən bəyanatda bildirilir ki, tərəflər xalqlarının seçdiyi və milli şərtlərə uyğun olan inkişaf yolunu seçməkdə bir-birini möhkəm dəstəkləyir, hər iki ölkənin təməl maraqlarının, suverenliyinin, təhlükəsizliyinin və ərazi bütövlüyünün qorunmasında bir-birinə qətiyyətli dəstək verirlər.

Azərbaycan-Çin arasında iqtisadi əlaqələr çoxşaxəliliyi və inkişafı ilə seçilir: ticarət dövriyyəsi artır, energetika, həmçinin bərpaolunan enerji, rəqəmsallaşma sahələrində əməkdaşlıq genişlənir. Həmçinin vizasız gediş-gəlişə dair sənədin qüvvəyə minməsi turizmin və bir çox digər sahənin inkişafına rəvac verəcək.

Prezident İlham Əliyev Çin Sədri Si Cinpinin dəvəti ilə cari ilin avqust ayında bu ölkədə işgüzar səfərdə olduğu zaman Tiencin şəhərində iki ölkə liderinin görüşü keçirildi. Çin Sədri Si Cinpin "Bir kəmər, bir yol" layihəsi çərçivəsində də Azərbaycan-Çin əməkdaşlığının möhkəmləndiyini deyərək, Azərbaycan ərazisindən Çin mallarının daşınmasının əhəmiyyətini qeyd etdi, bu xüsusda Trans-Xəzər marşrutunun önəminə toxundu. ÇXR Sədri bildirdi ki, ölkəsi Azərbaycanın Şanxay Əməkdaşlıq Təşkilatı ilə əlaqələrinin genişlənməsini dəstəkləyir.

Öz növbəsində Prezident İlham Əliyev diqqətə çatdırdı ki, ölkələrimiz arasındakı ticarət münasibətlərində əsaslı artım müşahidə olunur. Dövlətimizin başçısı "Bir kəmər, bir yol" layihəsinə toxunaraq, onun vacib tərkib hissəsi olan və Azərbaycan ərazisindən keçən Orta dəhliz vasitəsilə daşımaların, xüsusilə Çin yüklərinin daşınmasının artmasını bu dəhlizin səmərəliliyinin və cəlbediciliyinin nümunəsi kimi qiymətləndirdi.

### Hörmət və dəstək

Göründüyü kimi, Azərbaycan-Çin əlaqələri hərtərəfli şəkildə inkişaf edir və qarşıda da münasibətlərimizin dərinləşməsi üçün geniş perspektivlər görünür.

ÇXR-in milli bayramı münasibətilə sentyabrın 29-da Si Cinpinə göndərdiyi təbrik məktubunda Prezident İlham Əliyev vurğulayıb: "Bu gün Azərbaycan ilə Çin arasında qarşılıqlı etimad, hörmət və dəstəyə əsaslanan münasibətlərin hərtərəfli strateji tərəfdaşlıq müstəvisində inkişafı məmnunluq doğurur".

Dövlətimizin başçısı əlavə edib ki, siyasi, iqtisadi-ticari, sənaye, enerji, nəqliyyat-kommunikasiya, investisiya, kənd təsərrüfatı, humanitar və digər sahələrdə əməkdaşlığımızın gündən-günə genişlənməsi və yeni məzmunla zənginləşməsi bizi sevindirir: "Əminəm ki, bir-birinə böyük rəğbət bəsləyən xalqlarımızın rifahı naminə mövcud imkanlardan yararlanaraq birgə səylərimizlə Azərbaycan-Çin ənənəvi dostluq əlaqələrinin daha da möhkəmlənməsinə, hərtərəfli strateji tərəfdaşlığımızın daha da dərinləşməsinə nail olacağıq".

Dünyanın nəhəng siyasi və iqtisadi gücə malik mərkəzlərindən olan Çinlə bu cür səmimi və yüksəksəviyyəli münasibətlərin qurulması Azərbaycanı dünyada nüfuzlu ölkəyə çevirən Prezident İlham Əliyevin yürütdüyü məqsədyönlü xarici siyasətin nəticəsidir.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Milli Məclisin Sədri Sahibə Qafarova Cənubi Afrika Respublikasında G20 Parlament Sədrlərinin 11-ci Sammitində çıxış edib

Milli Məclisin Sədri Sahibə Qafarova Cənubi Afrika Respublikasına işgüzar səfəri çərçivəsində "Böyük iyirmilik" ölkələrinin (G20) Parlament Sədrlərinin 11-ci Sammitində (P20) "Fəlakətlərə qarşı dayanıqlığın və cavab tədbirlərinin gücləndirilməsi" mövzusu üzrə çıxış edib.




Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, çıxışında dünyada iqlim dəyişikliyinin daha da kəskinləşdiyini və onun təsirlərinin hər gün daha çox hiss olunduğunu söyləyən Milli Məclisin Sədri bildirib ki, heç bir ölkə iqlim dəyişikliyinin nəticələrindən sığortalanmayıb. Onun sözlərinə görə, təbii fəlakətlər hər bir ölkəyə və regiona zərbə vurur. Ona görə də bu məsələ bütün səviyyələrdə təcili tədbirlər tələb edən qlobal əhəmiyyətli bir mövzuya çevrilib. Spiker deyib ki, bu isə, öz növbəsində beynəlxalq çərçivə və öhdəliklərin müəyyənləşdirilməsini, onların konkret milli fəaliyyətlərə və planlara çevrilməsini, eyni zamanda həyata keçirilməsində qlobal əməkdaşlığın və kollektiv dəstəyin təmin olunmasını nəzərdə tutur.

Azərbaycan parlamentinin sədri çıxışında fəlakətlərə və iqlim təsirlərinə qarşı zəruri cavab tədbirlərinin görülməsində parlamentlərin roluna toxunaraq deyib ki, bu çərçivədə qanunvericilik prosesləri reaktiv deyil, proaktiv xarakter daşımalı, iqlim dəyişikliyinə qarşı adaptasiyanı və risklərin azaldılmasını ümumi yanaşma kimi əks etdirməlidir. O bildirib ki, bu, həm də Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsinə xidmət edəcək.

Sahibə Qafarova Milli Məclisin ətraf mühit, torpaq, su, meşə, kənd təsərrüfatı, mülki müdafiə və digər sahələr üzrə iqlim dəyişikliyinin mənfi təsirlərinə hazırlıq üçün əsas yaradan çoxsaylı qanunlar qəbul etdiyini söyləyib. Həmçinin qeyd olunub ki, ötən il Azərbaycan Milli Adaptasiya Planını da təqdim edib və bu plan Qlobal Adaptasiya Məqsədi, Dayanıqlı İnkişaf Məqsədləri və Fəlakət Risklərinin Azaldılması üzrə Sendai Fəaliyyət Çərçivəsi sənədi ilə uzlaşdırılıb. Planda həmçinin dəyişən şəraitə uyğun addımların atılması, bəzi qanunvericilik sənədlərində adaptasiya tədbirlərinin daha da dəqiqləşdirilməsi və təkmilləşdirilməsi nəzərdə tutulur.

Spiker Sahibə Qafarova ötən ilin noyabrında Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın ən uğurlu COP-lardan birinə - COP29-a evsahibliyi etdiyini xatırladaraq deyib ki, ölkəmiz ümumi məqsədlərin həyata keçirilməsi naminə Qlobal Cənub və Qlobal Şimal arasında daha güclü körpülər qurmağı, xüsusilə inkişaf etməkdə olan ölkələrin səslərinin eşidilməsini təmin etməyi bacardı. O, BMT tərəfindən rəsmi olaraq "Bakı İqlim Həmrəyliyi Paktı" adlandırılan COP29-un mühüm nəticələri haqqında da məlumat verərək deyib ki, bu sıraya Yeni Kollektiv Kəmiyyət Hədəfinin (Bakı Maliyyə Hədəfi kimi tanınan) qəbul edilməsi, Paris Sazişinin Beynəlxalq karbon bazarlarına dair 6-cı maddəsinin tam işlək hala gətirilməsi, İtki və Zərər Fondunun tam fəaliyyətə başlamasını təmin edən qərarın qəbulu, Bakı Adaptasiya Yol Xəritəsi və Adaptasiya üzrə Bakı Yüksək Səviyyəli Dialoqunun təsis edilməsi kimi mühüm məsələlər daxildir.

Spiker Sahibə Qafarova həmçinin diqqətə çatdırıb ki, Milli Məclis Parlamentlərarası İttifaqla birlikdə, COP29 çərçivəsində iqlim dəyişikliyinə qarşı parlament səylərinin birləşdirilməsinə yönəlmiş parlament iclasına da evsahibliyi edib.

Çıxışının sonunda Milli Məclisin Sədri bildirib ki, COP29-un uğurla başa çatdırılması ilə Azərbaycan bir daha nümayiş etdirdi ki, ümumi çağırışlar qarşısında həmrəylik, kompromislər və kollektiv tədbirlər arzu olunan nəticələrin əldə olunması üçün əvəzolunmazdır.

*"Azərbaycan"*

# İspaniya regionda sülh və təhlükəsizliyin təmin olunması istiqamətində atılan addımları dəstəkləyir

## Milli Məclisin Sədri Sahibə Qafarova İspaniya Krallığı Deputatlar Konqresinin Sədri ilə görüşüb

Milli Məclisin Sədri Sahibə Qafarova Keyptaun şəhərində "Böyük iyirmilik" ölkələrinin Parlament Sədrlərinin 11-ci Sammiti çərçivəsində İspaniya Krallığı Deputatlar Konqresinin Sədri Fransina Armenqol ilə görüşüb.

Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Milli Məclisin Sədri özünün bu ilin mayında İspaniyaya ilk rəsmi səfərini və Deputatlar Konqresinin Sədri ilə görüşünü xatırlayaraq, qarşılıqlı səfərlərin və görüşlərin ikitərəfli münasibətlərin inkişafı üçün yaxşı imkanlar yaratdığını, bu səfərin ölkələrimiz və parlamentlərimiz arasında əlaqələrin inkişafına töhfə verdiyini qeyd edib.

Söhbət zamanı qanunvericilik orqanlarımız arasında münasibətlərin daha da genişləndirilməsinin əhəmiyyəti vurğulanıb. Həmçinin parlament nümayəndə heyətləri arasında təmasların əlaqələrimizə müsbət töhfə verə biləcəyi qeyd edilib.



Spiker Sahibə Qafarova regionda mövcud vəziyyət, Azərbaycan və Ermənistan arasında sülh prosesi, işğaldan azad olunmuş ərazilərdə aparılan bərpa və yenidənqurma işləri barədə məlumat verib.

Deputatlar Konqresinin Sədri Fransina Armenqol Azərbaycan və Ermənistan arasında sülh sazişinin paraflanması münasibətilə təbrikini çatdıraraq İspaniyanın regionda sülh və təhlükəsizliyin təmin olunması istiqamətində atılan addımları dəstəklədiyini bildirib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər haqqında da fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

# Milli Məclisin Sədri Sahibə Qafarova "Böyük iyirmilik" ölkələrinin Parlament Sədrlərinin 11-ci Sammiti çərçivəsində bir sıra görüşlər keçirib







Xəbər verildiyi kimi, Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılığı ilə Azərbaycan parlament nümayəndə heyəti "Böyük iyirmilik" (G20) ölkələrinin Parlament Sədrlərinin 11-ci Sammitində (P20) iştirak etmək üçün Cənubi Afrika Respublikasının Keyptaun şəhərində işgüzar səfərdədir.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, tədbir çərçivəsində Milli Məclisin Sədri Sahibə Qafarova Birləşmiş Krallıq Parlamentinin İcmalar Palatasının Sədri Ser Lindsi Hoyl, Sinqapur Parlamentinin Sədri Seah Kian Penq, Avstraliya Parlamentinin Nümayəndələr Palatasının Sədri Milton Dik ilə görüşüb. Söhbətlərdə sammitin əhəmiyyəti vurğulanıb, həmçinin ölkələrimiz və parlamentlərimiz arasında ikitərəfli əlaqələrin inkişaf etdirilməsinə dair fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

# Azərbaycan və Özbəkistan parlamentarilərinin onlayn görüşü olub

Oktyabrın 2-də Azərbaycan və Özbəkistan parlamentlərindəki qarşılıqlı dostluq qruplarının onlayn görüşü keçirilib.

Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Milli Məclisin İntizam komissiyasının sədri, parlamentin Özbəkistanla parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Eldar İbrahimov görüşdə çıxış edib. Azərbaycan və Özbəkistan arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyi münasibətilə təbriklərini çatdıran komissiya sədri bildirib ki, prezidentlərimiz arasındakı qardaşlıq münasibətləri və fəal siyasi dialoq sayəsində bu gün bir çox sahələrdə əməkdaşlığımız yüksələn xətt üzrə inkişaf etməkdədir. Eldar İbrahimov yüksəksəviyyəli əlaqələrin parlament müstəvisində də uğurla davam etdirildiyini deyərək, parlamentlərimiz arasında qurulan səmərəli əməkdaşlıq münasibətləri, parlamentarilərimizin beynəlxalq təşkilatlarda və digər platformalarda birgə fəaliyyəti barədə fikirlərini bölüşüb.

Tədbirdə Özbəkistan Ali Məclisinin Azərbaycanla parlamentlərarası əlaqələr üzrə dostluq qrupunun həmsədrləri - senator Odiljon Mamatkarimov və deputat Alişer Kodirov çıxış edərək dövlət başçılarımızın siyasi iradəsi sayəsində möhkəm dostluq və qardaşlıq üzərində qurulan Azərbaycan-Özbəkistan münasibətlərinin genişləndirilməsi, bu istiqamətdə parlamentlərimizin verə biləcəyi töhfələr barədə danışıblar.

Sonra hər iki tərəfdən parlamentlərarası əlaqələr üzrə qrupların üzvləri - Musa Quliyev, Günay Əfəndiyeva, Elman Nəsirov və Munojat Yolçuyeva qanunvericilik orqanlarında dostluq qruplarının qarşılıqlı fəaliyyətinin əhəmiyyəti, parlament strukturları arasında əməkdaşlığın və təcrübə mübadiləsinin inkişaf etdirilməsi barədə düşüncələrini bildiriblər.

Söhbətdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Videokonfransda Milli Məclisin Özbəkistanla parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvü Aydın Hüseynov, Özbəkistan Ali Məclisinin Azərbaycanla parlamentlərarası əlaqələr üzrə dostluq qrupunun üzvləri və digər rəsmi şəxslər iştirak ediblər.

*"Azərbaycan"*

## 3 oktyabr 1993-cü ildə Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçilmişdir

# Ulu Öndərin quruculuq siyasəti və müasir Azərbaycanın möhkəm dayaqları



**Hər bir xalqın tarixində elə şəxsiyyətlər var ki, onlar Vətən naminə gördükləri işlərlə və atdıqları addımlarla xalqın qəhrəmanlıq rəmzinə, xilaskarına çevrilmiş, illər ötsə də, yaddaşlarda və qəlblərdə daim yaşamışlar. Belə şəxsiyyətlər dövlətin ən ağır və qaranlıq dönəmlərinə nur saçaraq xalqını xilas etmiş, adlarını dövlətçilik salnaməsinə əbədi həkk etdirmişlər. Ulu Öndər, Ümummilli Lider Heydər Əliyev də Azərbaycan xalqının əvəzsiz şəxsiyyəti, əbədi qəhrəmanıdır. Xalqımız Ümummilli Liderinin əziz xatirəsini daim yad edir, onun vətəni üçün etdiyi əvəzsiz xidmətləri heç vaxt unutmur.**

1991-1993-cü illərdə Azərbaycan dərin siyasi və iqtisadi böhranla üz-üzə qaldı. Hökumətdə yaranan hərc-mərclik dövlət idarəçiliyinə mənfi təsir göstərir, xalq isə hər gün yeni çətinliklərlə qarşılaşırdı. Bir tərəfdən Ermənistanla müharibə aparan Azərbaycan, digər tərəfdən daxildə sabitliyin olmaması səbəbindən ağır sınaqlardan keçirdi. İdarəçiliyin qeyri-peşəkar və səriştəsiz şəxslərin əlində cəmlənməsi ölkədə xaos yaratmış, iqtisadiyyat isə tamamilə sarsılmışdı.

Belə ağır bir şəraitdə xalq nicat yolunu yalnız öz xilaskarında gördü. 1993-cü ilin yayında xalqın təkidi ilə Heydər Əliyev Naxçıvandan Bakıya dəvət olundu. Onun rəhbərliyi ilə dövlət idarəçiliyində ciddi islahatlara başlanıldı, sabitlik və qayda-qanunun bərpası üçün qətiyyətli addımlar atıldı. Ulu Öndərin müdrik siyasəti sayəsində Azərbaycan böhran və xaosdan xilas olaraq inkişaf yoluna çıxdı.

3 oktyabr 1993-cü ildə keçirilmiş prezident seçkiləri ölkəmizin tarixində yeni mərhələnin başlanğıcı oldu. Xalq öz üzərinə düşən məsuliyyəti dərindən dərk edərək Heydər Əliyevi böyük səs çoxluğu ilə Azərbaycan Respublikasının Prezidenti seçdi. Bu taleyüklü seçim müasir, suveren və qüdrətli Azərbaycan dövlətinin əsasını qoydu.

Heydər Əliyevin ömrünü Azərbaycanın inkişafına həsr edəcəyi artıq andiçmə mərasimindəki çıxışından bəlli idi. Ulu Öndər həmin nitqində bildirmişdi: *"Bu gün mənim üçün tarixi, əlamətdar gündür. Mənə göstərilən bu böyük etimada görə Azərbaycan xalqına dərin ehtiramımı bildirir və əmin edirəm ki, ömrümün sonuna qədər xalqıma sədaqətlə xidmət edəcək, bütün fəaliyyətimi respublikamızın gələcək inkişafına sərf edəcəyəm"*.

Xalq arasında "Ulu Öndər" kimi sevilən və millətin məhəbbətini qazanmış Heydər Əliyev Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsi, sabit və güclü bir respublikanın qurulması naminə yorulmadan fəaliyyət göstərmişdir. Onun müdrikliyi və qətiyyətli rəhbərliyi sayəsində ölkəmiz çətin sınaqlardan çıxaraq sabitlik və inkişaf yoluna qədəm qoymuşdur.

Heydər Əliyevin qlobal baxışı, geniş dünyagörüşü və reallığa əsaslanan siyasəti Azərbaycanın taleyində həlledici rol oynamışdır. Ulu Öndər yalnız ölkə daxilində deyil, beynəlxalq müstəvidə də böyük hörmət və nüfuz qazanaraq yüksəksəviyyəli dövlət xadimi kimi tanınmışdır. Onun peşəkarlığı və strateji düşüncə tərzi, siyasət meydanında ona "siyasət qrossmeysteri", "siyasət nəhəngi" və "siyasət patriarxı" kimi titullar qazandırmışdır.

Ulu Öndərin yalnız siyasi fəaliyyəti deyil, natiqlik bacarığı da xalqın yaddaşında dərin iz buraxmışdır. Onun çıxışları hər zaman milləti ruhlandırır, insanlara ümid və inam aşılayırdı. Heydər Əliyevin nitqlərində siyasi ideyalarla yanaşı, xalqın tarixi, mədəniyyəti və milli-mənəvi dəyərləri də öz əksini tapırdı. O, xalqın dilində danışaraq onun ürəyindən keçənləri ifadə edir, hər mövzuya analitik və dərin yanaşması ilə fərqlənirdi.

Xalqın tələbi ilə siyasi arenaya qayıdan Heydər Əliyev qısa müddətdə Azərbaycanı dərin xaosdan çıxarıb sabitliyi bərpa etdi. Onun rəhbərliyi ilə müstəqilliyin qorunması istiqamətində həlledici addımlar atıldı. Dövlət quruculuğu prosesində əvəzsiz rol oynayan Ulu Öndər ölkəni dağılmaq təhlükəsindən xilas edərək iqtisadiyyatın, təhsilin və ordunun möhkəmlənməsinə yönəlmiş mühüm islahatlar həyata keçirdi.

Heydər Əliyevin hakimiyyəti dövründə Azərbaycanın siyasi və iqtisadi suverenliyi təmin edildi, ölkədə sabitlik bərpa olundu və iqtisadi yüksəlişin möhkəm təməli qoyuldu. Bu illərdə həyata keçirilən yeni neft strategiyası, xüsusən Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərinin inşası və digər enerji layihələri ölkəyə həm siyasi, həm də iqtisadi güc qazandırdı. Onun rəhbərliyi altında Azərbaycanın beynəlxalq nüfuzu yüksəldi və respublika dünya arenasında söz sahibi olan müstəqil bir dövlətə çevrildi.

Heydər Əliyevin həyata keçirdiyi neft strategiyası Azərbaycanın dünya enerji bazarında aparıcı mövqeyə yüksəlməsində mühüm rol oynadı. 1994-cü il sentyabrın 20-də dünyanın 8 ölkəsinin 13 böyük neft şirkəti ilə imzalanan və "Əsrin müqaviləsi" kimi tarixə düşən sənəd ölkəmizin zəngin neft ehtiyatlarının beynəlxalq əməkdaşlıq əsasında səmərəli istismarını təmin etdi. Bu müqavilə Azərbaycanın iqtisadi qüdrətini möhkəmləndirdi, ölkəyə irihəcmli xarici investisiyaların axınını sürətləndirdi və enerji təhlükəsizliyinin təmin olunmasına şərait yaratdı. Uğurla reallaşdırılan neft strategiyası nəticəsində Azərbaycan qısa zamanda dünya enerji bazarında əsas oyunçulardan birinə çevrildi.

Heydər Əliyevin xarici siyasətində Azərbaycanın coğrafi mövqeyindən, təbii sərvətlərindən və iqtisadi potensialından maksimum istifadə edilməsi əsas prioritetlərdən biri idi. Onun uzaqgörən təşəbbüsləri sayəsində ölkəmiz beynəlxalq enerji layihələrinin, xüsusilə də neft və qaz kəmərlərinin çəkilməsi prosesində aparıcı rol oynadı. "Böyük İpək yolu"nun bərpası, Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin yaradılması kimi təşəbbüslər Azərbaycanın beynəlxalq nəqliyyat və logistika mərkəzinə çevrilməsinə zəmin yaratdı. Nəticədə respublika dünya ticarət yollarının kəsişməsində strateji bir dövlət kimi formalaşdı.

Ulu Öndərin siyasi irsində xüsusi yeri olan milli ideologiya isə Azərbaycan xalqının mənəvi yüksəlişində mühüm rol oynadı. Onun formalaşdırdığı milli ideologiya yalnız siyasi müstəvidə deyil, həm də mədəni və mənəvi baxımdan xalqı birləşdirən bir qüvvə idi. Bu ideologiya müstəqilliyin qorunmasında, dövlətçiliyin möhkəmləndirilməsində və suverenliyin təmin edilməsində əvəzsiz bir dayaq rolunu oynadı.

Heydər Əliyevin rəhbərliyi ilə 1995-ci il noyabrın 12-də qəbul edilən Azərbaycan Respublikasının Konstitusiyası ölkənin demokratik inkişafının hüquqi əsasını yaratdı. Bu sənəd insan hüquq və azadlıqlarının qorunmasını, hüquqi dövlətin qurulmasını və siyasi sistemin demokratik prinsiplərə uyğun şəkildə formalaşmasını təmin etdi.

Ulu Öndər siyasi islahatlara xüsusi önəm verərək Azərbaycanın demokratik cəmiyyətə inteqrasiyası üçün möhkəm hüquqi baza yaratdı. Onun rəhbərliyi ilə ölkənin siyasi-hüquqi sistemində köklü dəyişikliklər həyata keçirildi. Bu islahatlar nəticəsində senzura ləğv olundu, söz və fikir azadlığı təmin edildi, insan hüquqlarının qorunması istiqamətində mühüm addımlar atıldı. Heydər Əliyevin təşəbbüsü ilə Konstitusiya Məhkəməsi, Ombudsman təsisatı və digər demokratik institutlar yaradıldı, ölüm cəzası ləğv edildi. Bütün bu tədbirlər hüquqi dövlət prinsiplərinin möhkəmlənməsinə xidmət etdi.

Eyni zamanda Heydər Əliyev Azərbaycan-Ermənistan münaqişəsinin beynəlxalq müstəvidə ədalətli təqdim olunmasına nail oldu. Ümummilli Lider Ermənistanın işğalçılıq siyasətini dünya ictimaiyyətinə çatdırdı, münaqişənin beynəlxalq təşkilatların gündəminə çıxarılmasına nail oldu və Azərbaycanın mövqeyinin dəstəklənməsini təmin etdi. Onun qətiyyətli siyasəti nəticəsində Azərbaycan-Ermənistan münaqişəsinin sülh yolu ilə həlli istiqamətində beynəlxalq danışıqlar aparıldı, Azərbaycanın ərazi bütövlüyünün qorunması prioritet vəzifə kimi irəli sürüldü.

Heydər Əliyevin yaratdığı möhkəm dövlətçilik təməlləri bu gün də öz bəhrəsini verir. O, müasir Azərbaycanı elə bir əsas üzərində qurdu ki, dövlətçilik kursu layiqli davamçısı tərəfindən uğurla davam etdirilir. İkinci Qarabağ müharibəsində Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılan tarixi Zəfər və 2023-cü ildə həyata keçirilən antiterror tədbirləri nəticəsində separatçıların təslim olması, qondarma rejimin ləğvi, ərazi bütövlüyünün və suverenliyin tam bərpa edilməsi Heydər Əliyev siyasətinin gücünü və davamlılığını bir daha təsdiqlədi.

*Bu gün Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə qarşı çıxmaq istəyən hər kəs bilməlidir ki, ölkəmiz Heydər Əliyev siyasəti ilə yaşayır və irəliləyir. Bu siyasət müasir Azərbaycan dövlətinin sarsılmaz təməlində dayanır. Onun qurucusu, Ümummilli Lider Heydər Əliyevin əziz xatirəsi isə Azərbaycan xalqının yaddaşında əbədi yaşayacaqdır.*

***Ziyafət ƏSGƏROV,***
***Azərbaycan Respublikası Milli Məclisinin Sədr müavini***

# Uzaqgörən siyasətdən böyük qələbəyə

1993-cü il oktyabrın 3-də keçirilən prezident seçkiləri müstəqil Azərbaycanın tarixində əlamətdar bir dönüş nöqtəsi oldu. Həmin dövrdə xalq müdrik və uzaqgörən qərar verərək böyük etimadla Ulu Öndər Heydər Əliyevi Azərbaycan Respublikasının Prezidenti seçdi. Bu seçim təkcə bir dövlət başçısının hakimiyyət zirvəsinə yüksəlməsi deyildi, ölkənin gələcək istiqamətini, sabitlik və inkişaf yolunu müəyyən edən tarixi bir qərar idi. Xalqın Heydər Əliyevə üz tutması təsadüfi deyildi. Onun zəngin siyasi təcrübəsi, dövlət idarəçiliyindəki səriştəsi və xalqla olan möhkəm bağları belə bir həssas mərhələdə ümidin və qurtuluşun ünvanına çevrildi.

Müstəqilliyinin ilk illərində Azərbaycan böyük sınaqlarla üzləşmişdi. Səriştəsiz və təcrübəsiz rəhbərlik nəticəsində ölkədə siyasi, sosial və hərbi sahələrdə ciddi böhranlar yaranmışdı. Əgər həmin çətin dönəmdə dövlətin idarəetmə sükanı Ulu Öndər Heydər Əliyev kimi uzaqgörən və qətiyyətli bir şəxsiyyətin əlində olsaydı, xalqımız qanlı toqquşmalardan, müharibə faciələrindən və dərin sosial-iqtisadi çətinliklərdən qoruna bilərdi. Təəssüf ki, əvvəlcə Vəzirovun, sonra Mütəllibovun hakimiyyəti dövründə, daha sonra isə Xalq Cəbhəsi-Müsavat iqtidarı zamanı bu reallıq nəzərə alınmadı. Heydər Əliyev yolunun alternativsizliyini dərk etməyənlər ölkəni dərin siyasi və sosial böhranlara sürüklədilər. Nəticədə dövlətçilik ciddi təhlükə altına düşdü və idarəçilikdə aciz qalan həmin şəxslər Azərbaycanı fəlakət girdabında başlı-başına qoydular.

Ulu Öndər Heydər Əliyev 1993-cü ildə xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə qayıdarkən bəyan etmişdi ki, Azərbaycan bu ağır çətinlikləri geridə qoyacaq, insanlar isə güclü və qüdrətli bir dövlətin vətəndaşı olmaqdan qürur duyacaqlar: "Belə bir yüksək məsuliyyətli vəzifəni öz üzərimə götürərkən birinci növbədə Azərbaycan xalqının zəkasına, müdrikliyinə, qüdrətinə güvənirəm, arxalanıram. Azərbaycan xalqının mənə bəslədiyi ümidlər məni bu vəzifəni üzərimə götürməyə məcbur edibdir. Əmin etmək istəyirəm ki, bu ümidləri doğrultmaq üçün əlimdən gələni əsirgəməyəcəyəm".

1993-cü ildən başlayaraq Azərbaycan Respublikasının hüquqi, demokratik və dünyəvi dövlət kimi formalaşıb inkişaf etməsi, sosial-iqtisadi sahədə genişmiqyaslı islahatların həyata keçirilməsi bilavasitə Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır.

Ulu Öndərin 1993-2003-cü illərdə ölkəyə rəhbərlik etdiyi dövr müasir tariximizdə dönüş nöqtəsi oldu. Məhz həmin illərdə milli dövlətçiliyin təməli möhkəmləndirildi, ölkənin daxili və xarici siyasətində uzunmüddətli strateji xətt müəyyən olundu. Ulu Öndər qısa zaman ərzində ölkədə hökm sürən hərc-mərcliyə və anarxiyaya son qoydu. Qanunun aliliyi təmin edildi, hüquqi və demokratik dəyərlərə əsaslanan yeni Konstitusiya qəbul olundu, müasir idarəetmə strukturları formalaşdırıldı. Vətəndaş həmrəyliyi bərpa olundu, iqtisadi inkişafın əsasını təşkil edən irimiqyaslı qlobal layihələr həyata keçirildi. 1994-cü il sentyabrın 20-də imzalanan "Əsrin müqaviləsi" Ulu Öndər Heydər Əliyevin neft strategiyasının parlaq təzahürü kimi Azərbaycanın qlobal iqtisadi sistemdə yerini müəyyənləşdirdi və ölkənin uzunmüddətli inkişafının təməlini qoydu. Onun siyasi iradəsi və uzaqgörənliyi ilə reallaşan "Əsrin müqaviləsi", eləcə də Bakı-Tbilisi-Ceyhan neft və Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri kimi beynəlxalq layihələr Azərbaycanın iqtisadi inkişafına ciddi impuls verdi. Ümummilli Lider təkcə müstəqil Azərbaycan dövlətinin əbədiliyini təmin etməklə kifayətlənmədi, eyni zamanda milli dövlətçilik ənənələrinin əsasını qoyaraq müasir idarəçilik məktəbini yaratdı.

Dahi şəxsiyyət öz əzmi və uzaqgörən siyasəti ilə qurub-yaratdığı, şah əsəri sayılan müstəqil Azərbaycanın taleyini bu məktəbin layiqli davamçısı cənab İlham Əliyevə etibar etmişdir. Ulu Öndərin layiqli davamçısı Prezident İlham Əliyevin qətiyyətli rəhbərliyi və müdrik sərkərdəliyi sayəsində Azərbaycanın ərazi bütövlüyü bərpa edildi. Bu tarixi Zəfər Ümummilli Liderin ən böyük arzusu olan Qarabağın düşmən işğalından azad olunması ilə gerçəkləşdi. Dahi şəxsiyyət illər əvvəl böyük uzaqgörənliklə demişdi: "Qarabağ məsələsini həll edəcəyik. Zaman lazımdır, vaxt lazımdır. Azərbaycan torpaqları heç vaxt onun əlindən gedə bilməz. Bizim işğal olunmuş torpaqlarımız mütləq qaytarılacaqdır".

Ümummilli Lider Heydər Əliyevin uzaqgörən siyasəti və yaratdığı möhkəm təməllər sayəsində Azərbaycan dövləti ilbəil güclənərək siyasi, iqtisadi və hərbi sahələrdə əhəmiyyətli uğurlar qazandı. Beynəlxalq arenada etibarlı tərəfdaş kimi qəbul olunan ölkəmiz öz suverenliyini və milli maraqlarını qorumaq iqtidarında olan güclü və qüdrətli bir dövlətdir. Strateji yanaşma və ardıcıl siyasət nəticəsində Azərbaycan müasir və döyüş qabiliyyətli ordu yaratdı. 44 günlük Vətən müharibəsində xalq, ordu və dövlət birliyi bütün dünyaya nümunə oldu. Azərbaycanın ərazi bütövlüyü bərpa edildi, işğal altında olan torpaqlarımız azad olundu.

Bu gün həm ölkə, həm də xalq olaraq qəti əminliklə deyə bilərik ki, Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu uzaqgörən siyasəti layiqincə davam etdirən Prezident İlham Əliyev Azərbaycanı yüksək zirvələrə aparır. Onun "Qarabağ Azərbaycandır!" kimi tarixi bəyanatı artıq gerçəkləşib. Azərbaycanın şanlı bayrağı Qarabağın bütün bölgələrində dalğalanır. 44 günlük Vətən müharibəsində qazandığımız şanlı qələbə və cəmi 23 saat ərzində peşəkar şəkildə həyata keçirilmiş lokal xarakterli antiterror əməliyyatları sayəsində Azərbaycan öz ərazi bütövlüyünü və suverenliyini tam bərpa etdi. Qətiyyətli siyasi iradə, güclü ordu, xalq-icma birliyi və beynəlxalq hüquqa əsaslanan ədalətli mövqe sayəsində ölkəmiz təkcə regionda deyil, dünyada haqqın və ədalətin qələbəsinin parlaq nümunəsinə çevrildi.

***Kamran BAYRAMOV,***
***Milli Məclisin deputatı***

# Xilaskar və qurucu liderimiz əbədi yaşayacaq

**1991-ci il dekabrın 8-də SSRİ-ni təşkil edən Rusiya, Ukrayna və Belarus liderləri birgə bəyanatla imperiyanın parçalandığını elan etdilər. Dekabrın 25-də Mixail Qorbaçov istefa verdi, 26-da isə Kreml üzərindən SSRİ bayrağı endirildi. Beləliklə, 1922-ci ilin dekabrında qurulmuş və 69 il mövcud olmuş SSRİ tarixin arxivinə qovuşdu.**

Bu bir həqiqətdir ki, SSRİ-nin dağılması qarşısıalınmaz tarixi proses idi. Onu hər hansı təsadüfi təşkilatın, yaxud populist meydan siyasətçilərinin adına yazmaq düzgün olmaz. Azərbaycanın müstəqilliyini istəməyən güclərin ölkəmizi rahat buraxmayacağı, Cənubi Qafqazda nüfuz savaşı başlayacağı da gözlənilən idi. Bu məqamda Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin tarixi kəlamını xatırlamaq yerinə düşərdi: "Tarix dəfələrlə sübut etmişdir ki, xalqın əvəzsiz milli sərvəti olan müstəqilliyin qorunması onun əldə edilməsindən qat-qat ağır və mürəkkəb vəzifədir".

XX əsrdə ikinci dəfə müstəqilliyini elan edən Azərbaycan elə ilk günlərdən ağır sınaqlarla üz-üzə qaldı. Hər gün torpaqlar işğal edilir, yüzlərlə qəhrəman oğullarımız ərazi bütövlüyümüz uğrunda canlarını fəda edirdilər. Azərbaycan böyük bir müharibə meydanına bənzəyirdi. Paytaxt Bakı da qaynar qazana dönmüşdü. Küçədən hakimiyyətə gələnlərlə xarici kəşfiyyatın oyunçuları arasında hakimiyyət uğrunda amansız mübarizə gedirdi. Ölkə vətəndaş müharibəsi ərəfəsində idi. Artıq Gəncədə qan tökülmüş, ard-arda torpaq itkiləri yaşanırdı. Azərbaycanın müstəqilliyi böyük təhlükə altına düşmüşdü.

Belə bir məqamda müdrik Azərbaycan xalqı xilaskar oğlu Heydər Əliyevə müraciət etdi. Ömrünü xalqına həsr etmiş, xalqın taleyini hər zaman şəxsi həyatından üstün tutan böyük dövlət xadimi bu çağırışa biganə qalmadı və xalqın təkidli tələbi ilə Bakıya qayıtdı.

1993-cü il iyunun 15-də Heydər Əliyev Azərbaycan Ali Sovetinin Sədri seçildi, iyunun 24-də isə Milli Məclisin qərarı ilə prezident səlahiyyətlərini icra etməyə başladı. Həmin il oktyabrın 3-də isə ümumxalq səsverməsi ilə Azərbaycan Respublikasının Prezidenti seçildi. Müdriklərin bir kəlamı var: "Qaranlığı lənətləməkdənsə, bir şam yandır". Heydər Əliyev nurlu fəaliyyəti ilə Azərbaycanın gələcəyini işıqlandıran böyük siyasi xadim oldu. Ulu Öndərin hakimiyyətə təkrar qayıdışı bir xilaskarlıq missiyası idi. Kəskin geosiyasi ziddiyyətlərin mövcud olduğu bir şəraitdə məhz Ulu Öndər Heydər Əliyev Azərbaycan dövlətçiliyini xilas etdi, qoruyub saxladı, ölkəmizi parçalanıb yox olmaq təhlükəsindən qurtardı. Ulu Öndər 1993-cü il oktyabrın 10-da əlini Konstitusiyaya və "Qurani-Kərim"ə basaraq Prezident kimi and içdi...

Heydər Əliyev o dövlət xadimlərindən idi ki, fəaliyyəti dövründə heç vaxt əsassız vədlər verməzdi, real iş görərdi. Ümummilli Lider hələ Naxçıvanda fəaliyyət göstərərkən xalqımızın və dövlətimizin qarşılaşdığı problemləri, ilk növbədə hansı addımların atılmalı olduğunu dəqiq bilirdi. Həmin dövrün əsas vəzifələri aydın idi: Ermənistanın hərbi təcavüzünün qarşısını almaq, müharibəni dayandırmaq, vətəndaş müharibəsi təhlükəsini aradan qaldırmaq, siyasi sabitliyi təmin etmək, separatçılığa və milli qarşıdurmaya son qoymaq, ordunu möhkəmləndirmək, gənc müstəqil dövlətin beynəlxalq nüfuzunu yüksəltmək.

Andiçmə mərasimində də Ulu Öndər xalqı bir daha əmin etdi ki, Azərbaycanın dünya birliyində layiqli yer tutması, milli-mənəvi ənənələrimizin qorunması və inkişafı onun fəaliyyətinin əsas istiqaməti olacaq. Azərbaycan xalqının milli-mənəvi ənənələrinə daim sadiq olacaq, bu ənənələrin müstəqil dövlətimizdə bərqərar olmasını, yaşamasını və inkişafını təmin edəcəkdir!

Heydər Əliyev elə bir tarixi şəxsiyyət idi ki, onu tanıyanlar, siyasi və idarəetmə təcrübəsinə bələd olanlar anlayırdılar ki, Ulu Öndərlə təzyiq üsulu ilə danışıb nəyəsə nail olmaq mümkün deyil. Hakimiyyətə gəldiyi ilk gündən Ulu Öndər Azərbaycanın müstəqilliyinə təhlükə yaratmaq, müxtəlif yollarla dövlətimizin inkişafına mane olmaq istəyən dövlətlərə və onların Azərbaycandakı tör-töküntülərinə "Müstəqilliyimiz əbədidir, daimidir, dönməzdir" deyərək çox ciddi və qəti bir mesaj verdi. Bu o demək idi ki, Azərbaycanla beynəlxalq hüquq normalarına uyğun olaraq davranılmalıdır. Azərbaycanı heç bir qüvvə müstəqillik yolundan döndərə bilməz!

Ulu Öndərin güvənc yeri xalqın ona olan inamı, birliyi idi. Ulu Öndərin böyük idarəetmə təcrübəsi və şəxsi nüfuzu Azərbaycan xalqını bəlalardan xilas etdi.

Ulu Öndərin hakimiyyətə qayıdışından sonra ağır vəziyyətdə olan ölkənin problemlərinin həlli istiqamətində konkret addımlar atılmağa başlandı. 1994-cü il mayın 12-də cəbhədə atəşkəsin əldə edilməsi dövlətçiliyin möhkəmləndirilməsi, nizami ordu quruculuğu, eləcə də ölkə həyatının bütün sahələrində dinamik inkişafın təmin edilməsi baxımından zəruri addım oldu. Azərbaycan vətəndaş müharibəsindən və parçalanmaq təhlükəsindən xilas oldu. Ayrı-ayrı şəxslərə və siyasi qruplaşmalara xidmət edən silahlı birləşmələr zərərsizləşdirildi, cinayətkar ünsürlər cəmiyyətdən təcrid edildi və cəzalandırıldı.

Ölkə daxilində ictimai-siyasi şərait bərpa olunduqca müstəqil respublikanın dövlət təsisatları yaradılmağa başladı. 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi ilə ilk milli Konstitusiyamızın qəbulu ölkədə genişmiqyaslı hüquqi islahatların həyata keçirilməsi üçün geniş imkanlar yaratdı.

Ərazi bütövlüyünün bərpası və Ermənistan silahlı qüvvələrinin hücumlarının qarşısının alınması, ölkənin müstəqilliyinin qorunub saxlanması üçün ordu quruculuğu istiqamətində kompleks tədbirlər həyata keçirildi. Azərbaycan dünyanın nüfuzlu beynəlxalq təşkilatlarına üzv qəbul edildi, faydalı əməkdaşlıqlar quruldu. Həyata keçirilən regional və qlobal layihələr Azərbaycanın beynəlxalq nüfuzunu daha da artırdı. Müxtəlif sahələrdə baş verən yeniliklər, xarici dövlətlərlə yaradılan dostluq və əməkdaşlıq münasibətləri, iqtisadi artım müstəqil ölkəmizi möhkəmləndirdi.

Azərbaycan dövləti iqtisadiyyat sahəsində də özünəməxsus inkişaf modeli formalaşdırdı. Bazar iqtisadiyyatına keçid ölkəmizin iqtisadi sahədəki inkişafının əsas strategiyasını müəyyən etdi. Ümumilikdə 1993-2003-cü illərdə ölkədə həyata keçirilən siyasət belə deməyə əsas verir ki, Ulu Öndər Heydər Əliyev müstəqilliyimizin əbədi bərqərar olması, davamlı inkişafın möhkəmlənməsi, iqtisadi bazanın formalaşması üçün iqtisadiyyatda çoxşaxəli islahatların aparılmasını vacib sayıb. Ümummilli Liderin ölkəmizə rəhbərliyi illərində milli iqtisadiyyatda sosialyönümlü bazar iqtisadiyyatına keçidin ümdə prinsipləri müəyyənləşdirilib, torpaq islahatı, habelə özəlləşdirmənin birinci mərhələsi, milli sahibkarlığın inkişafı üçün zəruri qanunvericilik bazası yaradılıb, respublikamızın dünya iqtisadiyyatına inteqrasiyasına xüsusi diqqət yetirilib.

Qərbə inteqrasiya yolunu tutan Ulu Öndər Heydər Əliyev ən çətin anlarda belə yenilməz siyasi iradə nümayiş etdirdi. Uzaqgörən siyasi liderin iradəsi sayəsində dünyada söz sahibi olan ABŞ, Fransa, İngiltərə kimi nəhəng ölkələrin neft bazarında ağır çəkiyə malik şirkətlərinin iştirakı ilə 20 sentyabr 1994-cü ildə "Əsrin müqaviləsi"nin imzalanması bütün dünyaya bir mesaj oldu. Bu nəhəng müqavilənin imzalanması ilə Azərbaycan dövlətinin iqtisadiyyatında mühüm yer tutan yeni neft strategiyasının əsası qoyuldu. Bu gün qürurla qeyd edə bilərik ki, beynəlxalq əhəmiyyətə malik olan Bakı-Tbilisi-Ceyhan neft kəməri, Bakı-Tbilisi-Ərzurum qaz xətti, "Şahdəniz-2", TANAP və TAP kimi layihələr "Əsrin müqaviləsi"nin uğurlu nəticələridir. Xatırladaq ki, dünyanın 8 ölkəsinin 13 neft şirkəti ilə bağlanmış "Əsrin müqaviləsi"ndən sonrakı illərdə daha 19 ölkənin 41 neft şirkəti ilə 26 müqavilə imzalandı. Bu, Azərbaycanın dünya iqtisadi sistemindəki yerini müəyyənləşdirən başlıca amil oldu.

Azərbaycanın iqtisadi, siyasi, hərbi uğurlarının sonrakı mərhələləri göstərir ki, ölkəmizin dünyanın vacib aktorları sırasına çıxmasında Heydər Əliyevin şəxsi nüfuzunun önəmli rolu olub. Ulu Öndərin bütün fəaliyyəti gələcəyə hesablanmışdır. Uzaqgörənliyi ilə zamanı qabaqlayan dahi şəxsiyyət Heydər Əliyev Azərbaycan xalqının yaddaşında qurucu və xilaskar dövlət xadimi kimi əbədi yaşayacaq. Bu gün Ümummilli Liderin ruhu şaddır. Müstəqilliyini qoruyub saxladığı, qurub-yaratdığı Azərbaycan dövləti indi dünyada çox yüksək nüfuz sahibidir! Torpaqlarımız işğaldan azad edilib. Azərbaycan bütün ərazilərində suverenliyini tam bərpa edib. Qürurla deyə bilərik ki, Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı İlham Əliyev dünyaya XXI əsrin liderlik nümunəsini nümayiş etdirir.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

# Azərbaycanın xarici siyasətinin uğurları



## Avropa İttifaqı Azərbaycanın regional və qlobal proseslərdəki rolunu düzgün qiymətləndirir

### Prezident İlham Əliyevin "Avropa Siyasi Birliyi"nin 7-ci Zirvə toplantısında iştirakı bunu təsdiqləyir

Danimarkanın paytaxtı Kopenhagen şəhərində "Avropa Siyasi Birliyi"nin 7-ci Zirvə toplantısı öz işinə başlayıb. Toplantıda Azərbaycan Prezidenti İlham Əliyev də iştirak edir. Oktyabrın 1-dən Danimarkada işgüzar səfərdə olan dövlətimizin başçısı Kopenhagendə bir sıra görüşlər keçirib, "Avropa Siyasi Birliyi"nin 7-ci Zirvə toplantısının açılış mərasimində iştirak edib.

"Avropa Siyasi Birliyi" (ASB) Avropa ölkələri arasında ən yüksək səviyyədə siyasi və strateji müzakirələr üçün yaradılmış əlaqələndirmə platformasıdır. Məqsədi ümumi maraq doğuran məsələlərin həlli üçün siyasi dialoqu və əməkdaşlığı inkişaf etdirmək, Avropa qitəsinin təhlükəsizliyini, sabitliyini və rifahını gücləndirməkdir. ASB Avropa İttifaqının üzvləri ilə yanaşı, qonşu ölkələri də əhatə edərək, 40-dan artıq dövləti bir araya gətirir.

ASB-nin 7-ci Zirvə toplantısında ümumilikdə 50-yə yaxın ölkədən dövlət və hökumət başçıları iştirak edir. Plenar iclaslarda və ondan sonra keçiriləcək "dəyirmi masa"larda Avropadakı ümumi təhlükəsizlik vəziyyəti, Rusiya-Ukrayna müharibəsi, iqtisadi təhlükəsizlik, miqrasiya, ənənəvi və hibrid təhlükələr kimi mövzular müzakirə olunur.

Hazırda dünyada gedən proseslər və çoxqütblü dünya düzəninin formalaşmağa başladığı şəraitdə məhz orta güc dövlətlərinin mövqeləri və ümumi güc balansında rolu artmaqdadır. Artıq qlobal güclərlə yanaşı, öz regionlarında sabitliyə, inkişafa və əməkdaşlığa mühüm töhfələr verən, həmçinin qlobal gündəliyə təsir imkanına malik olan ölkələr də beynəlxalq münasibətlərin qurucularına çevrilirlər. Azərbaycan da bu yeni reallıqda özünü müstəqil siyasət yürüdən, güclü milli iradəyə və strateji baxışa malik regional və orta güc kimi təsdiqləyib.

Bu baxımdan Prezident İlham Əliyevin ASB-nin zirvə toplantılarında iştirakı həmişə siyasi mərkəzlər, politoloqlar və KİV tərəfindən maraqla izlənilir. Dövlətimizin başçısı indiyə qədər bir neçə dəfə ASB-nin toplantılarında iştirak edib.

Ümumiyyətlə, Prezident İlham Əliyev Azərbaycanın üzvü olduğu beynəlxalq təşkilatlarla yanaşı, üzvü olmadığı təşkilatların da sammit, konfrans və görüşlərinə dəvət alır. Sentyabrın 1-də Prezident İlham Əliyev Çin Xalq Respublikasının Sədri Si Cinpinin dəvəti ilə Şanxay Əməkdaşlıq Təşkilatının Sammitində iştirak etmişdi. İndi isə Prezident İlham Əliyev Danimarkanın Baş naziri Mette Frederiksenin və Avropa İttifaqı Şurasının prezidenti Antonio Koştanın dəvəti ilə ASB-nin 7-ci Zirvə toplantısında iştirak edir. Bu da həm dövlətimizin başçısının, həm də respublikamızın beynəlxalq münasibətlər sistemində malik olduqları yüksək nüfuzun bariz göstəricisidir.

Prezident İlham Əliyevin Kopenhagendə Avropa İttifaqı Şurasının prezidenti Antonio Koşta və Avropa Komissiyasının prezidenti Ursula Fon der Lyayen ilə görüşü göstərdi ki, Avropa İttifaqı Azərbaycanın regional və qlobal proseslərdəki rolunu düzgün qiymətləndirir.

Xatırladaq ki, "Avropa Siyasi Birliyi" 6-cı Zirvə toplantısı bu ilin may ayında Albaniyanın paytaxtı Tirana şəhərində keçirilmişdi və Prezident İlham Əliyev də tədbirdə iştirak etmişdi.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

## Ölkəmizin gələcək hədəfləri dünyaya təqdim edildi

Prezident İlham Əliyevin hər xarici səfəri maraqlı, vacib tarixi hadisələrlə yadda qalır. Dövlətimizin başçısının Nyu Yorka işgüzar səfəri, BMT sessiyasında tarixi çıxışı, Azərbaycanın keçmişi, bu günü və gələcəyinə baxışları, ölkəmizin dünyada oynadığı rolu, müstəqilliyi necə əldə etdiyi və bugünkü qazanılan tarixi nailiyyətləri barədə fikirləri, habelə keçirdiyi vacib görüşləri mühüm əhəmiyyətə malikdir.



Milli Məclisin deputatı Vüqar İskəndərov qəzetimizə açıqlamasında bildirib ki, bu görüşlər ölkəmizin imicinin, nüfuzunun durmadan artdığını aydın şəkildə ortaya qoyur.

Deputat qeyd edib ki, Azərbaycana investisiya qoymaq istəyən şirkətlərin sayı çoxalır, ölkəmizə maraq gündən-günə artır: "Azərbaycan lideri keçirdiyi görüşlərdə ölkəmizi şərəflə təmsil edir. Prezident İlham Əliyevin BMT-nin 80-ci sessiyasında yüksək tribunadan çıxışı və bu çıxışda çatdırılan mesajlar ölkəmizin bugünkü qüdrətini, Azərbaycanın yalnız regionda deyil, artıq dünya miqyasında, qlobal anlamda oynadığı rolu əks etdirir. Cənab İlham Əliyev nitqində Azərbaycan-Ermənistan arasındakı münaqişə dövrünü, torpaqlarımızın işğal altında olduğu illərdə baş verən hadisələri, tarixi abidələrimizdən tutmuş şəhər və kəndlərimizin, insanlarımızın terrora məruz qalmasını və Azərbaycanın öz gücü ilə həm tarixi ədaləti, həm də beynəlxalq hüququn norma və prinsiplərini bərpa etdiyini, postmüharibə dövründə iki ölkə arasında sülh müqaviləsinin imzalanması ilə bağlı atılan addımları, Vaşinqton görüşündə əldə olunan nəticələri diqqətə çatdırdı".

V.İskəndərov deyib ki, dövlət başçısı Azərbaycanın gələcək vizyonunda ölkəmizin gedəcəyi yolu və tutacağı mövqeyi dünya liderlərinə, ümumiyyətlə, beynəlxalq ictimaiyyətə nümayiş etdirib. Təbii olaraq belə nəticəyə gəlmək olur ki, ölkəmiz hərtərəfli inkişaf yolundadır. Azərbaycanın nüfuzu durmadan artır. Prezident İlham Əliyev bu gün yalnız bölgəmizdə deyil, dünya miqyasında nüfuzlu lider kimi Azərbaycanı ən yaxşı şəkildə təmsil edir. ABŞ-yə budəfəki səfər çərçivəsində də dünya dediklərimizin əyani şahidi oldu.

***Ə.QARDAŞXANOVA,***
***"Azərbaycan"***

### 3 Oktyabr Türkdilli Dövlətlərin Əməkdaşlıq Günüdür

## Türk dünyasının qlobal gücə çevrilməsi zamanın çağırışıdır



Özü də bu ailənin vacib üzvü olaraq Azərbaycan türk ölkələrinin həmrəyliyi və daha da güclənməsi üçün hər zaman tədbirlər həyata keçirir. Məhz Azərbaycanın təşəbbüsləri, enerji və nəqliyyat layihələri son illərdə türk dövlətlərinin əməkdaşlığını daha da genişləndirib.

18 oktyabr 1994-cü ildə Prezident Heydər Əliyev Türk Dövlətləri Başçılarının 2-ci Zirvə toplantısının açılışındakı nitqində deyirdi: "Şübhəsiz ki, bizim toplantı xalqlarımızın, ölkələrimizin tarixi kökləri, əsrlər boyu toplanmış adət-ənənələrin birliyi, dil birliyi və fəaliyyət birliyi əsasında qurulub. Bu, çox böyük əsasdır".

Ulu Öndər əlavə edirdi ki, ona görə də bu əsasda bizim ölkələr arasında bütün sahələrdə əməkdaşlığı inkişaf etdirməyə, genişləndirməyə böyük imkanlarımız var: "Azərbaycan Respublikası belə qərara gəlib ki, bundan sonra da bu imkanlardan istifadə etsin və əməkdaşlığı genişləndirsin".

Böyük türk dünyasının birgəliyinin vacibliyi daim Prezident İlham Əliyevin də gündəliyində duran əsas məsələ olub. Buna görə də türk dövlətlərinin institusional strukturunun formalaşması təşəbbüsünün müəllifinin Azərbaycan Prezidenti İlham Əliyev olması da təəccüblü deyil.

2009-cu ildə Türkdilli Ölkələrin Dövlət Başçılarının 9-cu Zirvə görüşü qədim türk yurdu Naxçıvanda keçirildi. Həmin zaman "Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının yaradılması haqqında Naxçıvan sazişi"nin imzalanması ilə türk dünyası adına mühüm tarixi-siyasi əhəmiyyəti olan addım atıldı.

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının yaradılmasını nəzərdə tutan Naxçıvan Sazişinin (3 oktyabr 2009-cu il) imzalanmasından etibarən hər il 3 Oktyabr tarixi Türkdilli Dövlətlərin Əməkdaşlıq Günü kimi qeyd edilir.

### Naxçıvanda atılan təməl

Naxçıvan Zirvə görüşündə yaradılan Türkdilli Ölkələrin Əməkdaşlıq Şurasının (Türk Şurası) adı 2021-ci ildə İstanbulda keçirilən tarixi Zirvə görüşündə dəyişdirilərək Türk Dövlətləri Təşkilatı (TDT) oldu.

Quruma təsisçi üzv dövlətlər - Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkiyə olub, daha sonra 2019-cu ilin oktyabrında Bakıda keçirilən 7-ci Zirvə görüşündə Özbəkistan tamhüquqlu üzv kimi qoşulub. Macarıstan 2018-ci ilin sentyabrında Qırğızıstanın Çolpon-Ata şəhərində keçirilmiş 6-cı Zirvə görüşündə müşahidəçi statusu qazanıb. 2021-ci ilin noyabrında keçirilən 8-ci Zirvə toplantısında Türkmənistan, 2022-ci ilin noyabrında Şimali Kipr Türk Cümhuriyyəti və 2023-cü ildə İqtisadi Əməkdaşlıq Təşkilatı (İƏT) quruma müşahidəçi üzv kimi qoşulub.

Təşkilat Birləşmiş Millətlər Təşkilatının (BMT) Nizamnaməsinin məqsəd və prinsiplərinə, eləcə də beynəlxalq hüququn suveren bərabərlik, ərazi bütövlüyü, beynəlxalq tanınmış sərhədlərin toxunulmazlığı və beynəlxalq sülh və təhlükəsizliyin qorunması, mehriban qonşuluq və dostluq münasibətlərinin inkişafı kimi ümumbəşəri dəyərlərə sadiqdir.

Ötən il TDT-nin "Biz birlikdə daha güclüyük" şüarı ilə yayımlanan yeni məlumatlandırıcı infoqrafik videoçarxında qurumun dünya üzrə 4,5 milyon kilometr ərazidə 300 milyon insanı əhatə etdiyi və bu dövlətlərin ümumi valyuta büdcəsinin 4 trilyon dollara çatdığı vurğulandı.

Azərbaycan qədim yurdumuz Naxçıvanda əsası qoyulmuş Türk Dövlətləri Təşkilatı ilə əlaqələrinə hər zaman böyük önəm verir. Həmçinin TDT Azərbaycanın üzv və müşahidəçi ölkələrlə əməkdaşlığını genişləndirmək üçün vacib platforma rolunu oynayır.

### Türk dünyasının birləşdirici mərkəzi

Azərbaycan türk birliyinin qlobal mərkəzə çevrilməsi üçün yeni təşəbbüslər və ideyalar irəli sürür. Tarixi köklərlə sıx bağlı olduğumuz türk xalqlarının, dövlətlərinin həmrəyliyinin hazırda özünün ən yüksək pilləyə yüksəlməsində ölkəmizin xüsusi yerinin olduğunu desək, qətiyyən yanılmarıq.

Hər zaman çıxışlarında "XXI əsr türk dünyasının inkişafı əsri olmalıdır" deyən Prezident İlham Əliyev "türk dünyası ailəsi"nin həmrəyliyinin daha da gücləndirilməsi istiqamətində şəxsi səylər nümayiş etdirir.

2009-cu ildən - yarandığı dövrdən etibarən TDT-nin güclənməsi, hədəflədiyi məqsədlərə yetməsi üçün ölkəmiz əməli addımlar atıb. Quruma sədrliyi dövründə Azərbaycan türk dövlətləri arasında əlaqələrin daha da genişlənməsi və dərinləşməsi üçün yeni təşəbbüslərlə çıxış edib, mühüm ideyalar irəli sürüb.

44 günlük Vətən müharibəsində və antiterror tədbirlərində qazandığı zəfərlərlə türk birliyinin güclənməsinə mühüm töhfələr bəxş edən Azərbaycan bununla həmçinin türk birliyinin etnosiyasi coğrafiyasını bərpa edib.

Bu il avqustun 8-də Vaşinqtonda imzalanan Birgə Bəyannamədə ölkəmizin əsas hissəsi ilə Naxçıvan arasında maneəsiz gediş-gəlişin təmin edilməsi əksini tapıb. "Beynəlxalq Sülh və Rifah Naminə Tramp Marşrutu", bir sözlə, Zəngəzur dəhlizi artıq reallaşmaq üzrədir. Bununla vaxtilə süni maneələrlə bir-birindən ayrı salınan türk dövlətləri yenidən birləşmiş olacaq.

Buna görə də Qarabağ zəfəri ümumilikdə türk dünyası adına qazanılan qələbə kimi xarakterizə olunur. TDT-nin Əməkdaşlıq Şurasının İstanbulda keçirilən VIII Zirvə Görüşü zamanı Prezident İlham Əliyevin Türk Dünyasının Ali Ordeninə layiq görülməsi də təsadüfi deyildi.

İkinci Qarabağ savaşı zamanı ölkəmizə siyasi, mənəvi dəstək verən türkdilli ölkələrin işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən quruculuq işlərinə töhfələri, həmin ölkələrin rəhbərlərinin bu ərazilərimizə səfərləri dövlətlərimiz, xalqlarımız arasındakı qardaşlığa, həmrəyliyə əyani göstəricilərdir.

### Azərbaycanın səyləri

6 iyul 2024-cü ildə Şuşada Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşü keçirildi. Azərbaycan Prezidenti İlham Əliyev, Özbəkistan Prezidenti Şavkat Mirziyoyev, Qırğız Prezidenti Sadır Japarov, Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev, Macarıstanın Baş naziri Viktor Orban, Türkiyənin vitse-prezidenti Cevdet Yılmaz, Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Ersin Tatar, Türk Dövlətləri Təşkilatının baş katibi Kubanıçbek Ömüralıyev tədbirdə iştirak etdilər. Zirvə görüşündə "Azərbaycan həmişə türk dünyasının sıx birləşməsi, onun siyasi, iqtisadi və hərbi qüdrətinin artması, qlobal arenada güc mərkəzinə çevrilməsi naminə səylər göstərmişdir" deyən dövlətimizin başçısı İlham Əliyev vurğuladı ki, TDT dünya miqyasında güc mərkəzlərinin birinə çevrilməlidir.

TDT-nin Şuşada qeyri-rəsmi Zirvə görüşünün keçirilməsinin və həmin zaman Qarabağ Bəyannaməsinin imzalanmasının xüsusi rəmzi mənası oldu.

Bu ilin mayında Macarıstanın paytaxtı Budapeştdə Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşü zamanı etdiyi çıxışında Azərbaycanın türk dünyasının birliyinə və güclənməsinə verdiyi töhfələrindən bəhs edən Prezident İlham Əliyev diqqətə çatdırdı ki, ölkəmiz ümumilikdə təşkilatın üzv ölkələrinə 20 milyard ABŞ dollarından çox sərmayə qoyub: "Türk dövlətləri ilə nəqliyyat sahəsində əməkdaşlığımız güclənir. Son illər ərzində Azərbaycanda nəqliyyat infrastrukturuna - avtomobil yollarına, dəmir yolu xətlərinə, dəniz limanına, gəmiqayırma zavoduna, hava nəqliyyatına böyük həcmdə sərmayələr qoyulmuşdur. Nəticədə açıq dənizlərə çıxışı olmasa da, Azərbaycan Avrasiyanın nəqliyyat-logistika mərkəzlərindən birinə çevrilmişdir".

Onu da qeyd edək ki, Budapeştdə keçirilən Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşü zamanı türk dövlətlərinin liderləri Azərbaycanın qlobal əhəmiyyətli çağırışlara verdiyi töhfələrini, TDT-nin inkişafında xidmətlərini xüsusi vurğuladılar.

Hazırda dünyanın siyasi mənzərəsinin heç də ürəkaçan olmadığı məlum və təəssüfedici reallıqdır. O da gerçəklikdir ki, dünyanı yenidən şəkilləndirməyə və digər ölkələri öz təsirinə salmağa çalışan güc dairələrinə qarşı təkbaşına mübarizə aparmaq düzgün siyasi strategiya deyil. Azərbaycanın Qarabağ Zəfərinin timsalında da göründü ki, türk dövlətlərinin siyasi, mənəvi dəstəyini alan ölkəmiz həm diplomatik, həm də hərbi arenada özünü daha güclü hiss etdi və haqlı olduğu mübarizədə qələbəni qətiyyətlə təmin etdi.

Bu mənada türk birliyinin qlobal gücə çevrilməsinin həm də zamanın çağırışı olması bir daha təsdiqini tapır.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

## Azərbaycan-İtaliya münasibətləri inkişaf dinamikası ilə fərqlənir

Azərbaycan-İtaliya münasibətləri hər zaman inkişaf dinamikası ilə fərqlənib. Dövlət başçılarının qarşılıqlı səfəri bu əməkdaşlığı daha da dərinləşdirir. İtaliya Prezidenti Sercio Mattarellanın səfəri zamanı aparılan müzakirələr də qarşıdakı dövr üçün yeni perspektivlər açır.



Rəsmi Bakı və Romanın münasibətlərin strateji önəmini artıran addımlar atdığını deyən Milli Məclisin deputatı Nigar Məmmədova qəzetimizə açıqlamasında bildirib ki, bu vaxta qədər ölkələrimiz arasında mövcud olan 2 strateji tərəfdaşlıq sənədi çoxvektorlu əməkdaşlığın möhkəmlənməsinə zəmin yaradıb: "Cənab Prezidentin də söylədiyi kimi, "bu illər ərzində münasibətlərimiz çox sürətlə və müxtəlif istiqamətlər üzrə inkişaf edib. Siyasi əlaqələr ən yüksək səviyyədədir". İtaliya həm də Azərbaycanın birinci ticarət tərəfdaşıdır. Xüsusilə enerji sahəsində işbirliyi ikitərəfli münasibətlərin miqyasını genişləndirib. "Cənub qaz dəhlizi"nin əsas seqmentlərindən biri olan TAP-ın reallaşması məhz Azərbaycan və İtaliya liderlərinin iradəsi sayəsində mümkün oldu. Belə ki, dövlət başçıları o zaman yaradılmış süni maneələri birlikdə dəf etməyi bacardılar. Təsadüfi deyil ki, prezidentlər Bakıda aparılan müzakirələrdə bu məqamı xüsusi qeyd etdilər".

Deputat qeyd edib ki, 2020-ci ildən başlayaraq bu layihə vasitəsilə İtaliyaya 41,7 milyard kubmetrdən çox mavi yanacaq tədarük olunub. 2024-cü ildə isə TAP İtaliyanın qaz idxalının 16 faizdən çoxunu təşkil edib. Prezidentin bəyan etdiyi kimi, "biz uzun illər etibarlı tərəfdaşlar kimi bir-birimizi dəstəkləmişik. Əgər bu səmimi münasibətlər olmasaydı, qarşılıqlı inam olmasaydı, bu layihələrin həyata keçirilməsi mümkün olmazdı".

N.Məmmədova deyib ki, İtaliya həm də Avropa İttifaqının üzvü kimi Azərbaycanla münasibətləri dərinləşdirir. Belə ki, "Cənub qaz dəhlizi"nin davamı olaraq Azərbaycan Avropa İttifaqı ilə elektrik enerjisinin ixracı üzrə iş aparır. Həm elektrik enerjisi, həm də Xəzərin dibi ilə Orta Asiyadan Azərbaycana, sonra Avropa məkanına ötürüləcək elektrik enerjisi əməkdaşlıq imkanlarının daha da genişlənməsinə zəmin yaradır. "Yeri gəlmişkən, İtaliya istər Ermənistanın işğalı dövründə, istərsə də postmünaqişə dövründə ədalətli mövqedən çıxış edib. Təsadüfi deyil ki, bu gün işğaldan azad olunmuş ərazilərdə İtaliya şirkətləri xüsusi fəallığı ilə seçilirlər. Bu əməkdaşlıq ikitərəfli kontekstlə yanaşı, Avropa enerji bazarının sabitliyi üçün də əhəmiyyətlidir. Məlum olduğu kimi İtaliya şirkətləri Azərbaycanda enerji və infrastruktur layihələrində də fəal iştirak edirlər", - deyə o əlavə edib.

Deputat vurğulayıb ki, S.Mattarellanın səfəri zamanı İtaliya-Azərbaycan Universitetinin açılış mərasiminin baş tutmasının da öz rəmzi mənası var. Dövlətimizin başçısı da qeyd etdi ki, "Prezident Mattarellanın rəsmi səfər proqramına bu tədbirin salınması onu göstərir ki, həm İtaliya, həm də Azərbaycan bu sahədəki əməkdaşlığa çox böyük əhəmiyyət verir". Ölkələrimizin təhsil sahəsində də uğurlu təcrübə mübadiləsi strateji önəm kəsb edən məsələ - insan kapitalının inkişafı baxımından mühüm əhəmiyyət kəsb edir.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***





# Müzəffər Sərkərdənin qüdrətli Ordusu

## ZƏFƏR gündəliyi

## 3 oktyabr 2020-ci il

# İlham Əliyevdən xalqa müjdə: "Suqovuşanda bayrağımız qaldırıldı!"

*Oktyabrın 3-də bütün cəbhəboyu gərgin döyüşlər davam edib. Gecə saatlarında cəbhənin müxtəlif istiqamətlərində düşmənin döyüş aktivliyinin qarşısı alınıb və ona sarsıdıcı zərbələr endirilib.*

### Düşmən dinc əhalini atəşə tutub

Ermənistan silahlı qüvvələri tərəfindən Tərtər şəhəri, rayonun Səhləabad, Qəzyan, Qapanlı, Qaynaq, Əskipara, Hüsənli, Ağdam rayonunun Ayaq Qərvənd, İmamqulubəyli, Qaradağlı, Təzəkənd, Ağcabədi rayonunun Muğanlı, Qiyaməddinli, Rəncbərlər və Goranboy rayonunun Tapqaraqoyunlu, Ağdam rayonunun Quzanlı, Əlibəyli və Ayaq Qərvənd kəndləri ağır artilleriya atəşinə tutulur. Ordumuz tərəfindən düşmənə qarşı qəti cavab tədbirləri görülür.

### Prezident və Mehriban Əliyeva əməkhaqlarını yardım fonduna ianə ediblər

Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva bir aylıq əməkhaqqı məbləğində vəsaiti Silahlı Qüvvələrə Yardım Fonduna ianə ediblər.

Dövlət başçısının 2002-ci il 17 avqust tarixli 755 nömrəli fərmanı ilə təsdiq edilmiş Silahlı Qüvvələrə Yardım Fonduna 2020-ci il oktyabrın 1-dək 120.106.408,24 AZN, 218.680,68 ABŞ dolları, 18.341,0 avro və 5000 rubl vəsait daxil olub.

### Ali Baş Komandan xalqa müjdə verib



Ali Baş Komandan "Tviter" səhifəsində paylaşım edərək xalqa müjdəli xəbər verib:

"Bu gün Azərbaycan Ordusu Madagizdə Azərbaycan bayrağını qaldırdı. Madagiz bizimdir. Qarabağ Azərbaycandır!"

### İlham Əliyev Madagizin tarixi adını bərpa edir - Suqovuşan

Bu xoş xəbərin ardınca Prezident daha bir məlumat paylaşıb: "2020-ci il oktyabrın 3-dən Madagizin tarixi adını bərpa edirəm. Bundan sonra Suqovuşan adlandırılır. Qarabağ Azərbaycandır!"



### Azərbaycan Ordusu bir neçə kəndimizi azad edib

Günün sonunda Ali Baş Komandan xalqa daha bir müjdəli xəbər verib. Prezident "Tviter" səhifəsində yazıb: "Bu gün Azərbaycan Ordusu Tərtər rayonunun Talış kəndini, Cəbrayıl rayonunun Mehdili, Çaxırlı, Aşağı Maralyan, Şəybəy və Quycaq kəndlərini, Füzuli rayonunun Aşağı Əbdürrəhmanlı kəndini azad edib.

Qarabağ Azərbaycandır!"

### Düşmənin atəş mövqeləri susdurulub

Müdafiə Nazirliyinin yaydığı məlumatda bildirilib ki, bütün cəbhəboyu şiddətli döyüşlər davam edib. Cəbhənin müxtəlif istiqamətlərində yaşayış məntəqələrimiz düşmənin intensiv artilleriya və raket atəşinə məruz qalıb.

Azərbaycan Ordusunun bölmələrinin qətiyyətli cavab tədbirləri nəticəsində yaşayış məntəqələrimizi atəşə tutan Ermənistan silahlı qüvvələrinin bir neçə istiqamətdə atəş mövqeləri susdurulub, düşmənə sarsıdıcı zərbə endirilib.

### Erməni əsgərləri döyüş mövqeyini tərk edərək qaçıb

Suqovuşan-Ağdərə istiqamətində gedən döyüşlər zamanı Ermənistan silahlı qüvvələrinin 77-ci tank taborun 4 tankı məhv edilib, 3 tankı isə qənimət götürülüb.

Ermənistan silahlı qüvvələrinin Ağdərə istiqamətində yerləşən 5-ci dağatıcı alayının



müdafiə sahəsinə qoşunlarımız tərəfindən artilleriya zərbələrinin endirilməsi nəticəsində alayın 4 ədəd avtomobil texnikası məhv edilib, şəxsi heyəti arasında çoxlu sayda ölən və yaralanan olub. 5-ci dağatıcı alayın bir neçə bölməsinin şəxsi heyəti döyüş mövqeyini tərk edərək qaçıb.

***Rəşad BAXŞƏLİYEV,* *"Azərbaycan"***



# Vətən sevgisi uğrunda şəhidlik zirvəsinə ucalan igid - Sərxan Mustafayev

Torpaqlarımızın işğaldan azad olması uğrunda canından keçən igidlərimizdən biri də Sərxan Mustafayevdir. O, 1994-cü ildə Qazax rayonunun Ermənistanla sərhəddə yerləşən Aslanbəyli kəndində doğulub. Elə düşmənlə qonşuluqda yaşayan Sərxan uşaqlıqdan güllə səsləri ilə böyüyüb. Vətən sevgisi onun üçün hər şeydən öndə gəlirdi.

AZƏRTAC xəbər verir ki, 44 günlük Vətən müharibəsi şəhidi Sərxan Mustafayev uşaqlıqdan vətənpərvərliyi ilə seçilib. O, düşmən tapdağı altındakı torpaqlarımızın azad olunacağı günü gözləyirdi. Tale elə gətirdi ki, bu yolda haqq savaşına qatılmaq onun da qismətində oldu. Sərxan Füzuli, Cəbrayıl, Xocavənd istiqamətində döyüşlərdə fəal iştirak edib.

"Həmişə danışardı ki, böyüyəndə Birinci Qarabağ müharibəsinin şəhidləri olan əmisinin, dayısının, eyni zamanda digər şəhidlərimizin qisasını alacaq. O, əmisinin də, dayısının da qisasını aldı. Eləcə də bütün şəhidlərimizin qisasını aldı, Vətən uğrunda canını verdi. Torpaqlarımız işğaldan azad edildi. Şəhid anası kimi qürurluyam. Şəhidlərimizin qanı yerdə qalmadı", - deyə



Sərxanın anası Fəridə Mustafayeva bildirir.

Bacısı Söylü Mustafayeva da qardaşı haqqında fəxrlə danışır. Deyir qardaşı ilə sirdaş, dost olublar: "Qardaşım qürurlu, qeyrətli gənc idi, çətinliklərdən qorxmurdu. Öndə getməyi sevərdi. Həmişə deyirdi ki, müharibədə öndə olacağam. Əsgər yoldaşları onun barəsində fəxrlə danışırlar. O, mənim bu həyatda ən çox darıxdığım insandır. Həmişə deyərdi ki, vətən uğrunda şəhid olacaq. O, ən yüksək zirvədir, vətən hər şeydən öndə dayanır. Elə vətən uğrunda da canından keçdi".

Sərxan 2020-ci il oktyabrın 31-də Füzuli-Cəbrayıl istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhidlik zirvəsinə ucalıb. "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Füzulinin azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilib.

Şəhidin nəşi Qazaxın Aslanbəyli kənd qəbiristanlığında torpağa tapşırılıb. Onun Vətənə əmanət qalan bir qız və bir oğul övladı dövlətin qayğısı ilə əhatə olunub.

# Füzulidə şəhidlərin xatirəsi anılıb

44 günlük Zəfər yürüşü zamanı torpaqlarımızın azad edilməsi üçün silaha sarılaraq canlarını fəda edən şəhidlərimizdən olan Bəhruz İbrahimov və Qurbani Əlizadənin xatirəsi anılıb. Müqəddəs amal uğrunda şəhadətə ucalan hər iki şəhidin məzarı ziyarət olunub, onların şərəfli həyatından bir daha söhbət açılıb.





AZƏRTAC xəbər verir ki, şəhidlərin anım mərasimində ailə üzvləri ilə bərabər, rayon icra hakimiyyətinin əməkdaşları, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Füzuli rayon şöbəsinin nümayəndələri, təhsil və mədəniyyət işçiləri, şəhid ailələri, qazilər, kənd sakinləri və ziyalılar iştirak ediblər.

Bəhruz Fazil oğlu İbrahimov 1983-ci il iyunun 22-də Füzuli rayonunun Gövşadlı kəndində anadan olub. Erməni vəhşiliyi nəticəsində on yaşında ailəsi ilə birlikdə doğma ata yurdundan məcburi köçkün düşüb.

Bəhruz uzun illər doğma yurdlarına qayıdacaqları günü gözləyib və hərbçi olmağa hələ yeniyetmə çağlarından qərar verib. Həqiqi hərbi xidməti bitirdikdən sonra da Bəhruz müddətdən artıq hərbi xidmətçi kimi vətənin keşiyində dayanıb. Ömrünün 14 ilini vətənə xidmət edən Bəhruz peşəkar hərbçi idi. Sağlığında fəxri fərmanlarla və qüsursuz xidmətə görə bir neçə medalla təltif edilib. Bəhruzun ilk döyüş yolu Aprel zəfərindən başlayıb. Dördgünlük döyüşlərdə Bəhruz və yoldaşları Lələtəpə istiqamətində düşmən üzərində qələbə qazandılar. Vətən müharibəsində isə tankçı kimi döyüşlərə atılıb. Düşmənin Füzuli istiqamətində qurduğu maneələrin yarılmasında böyük şücaət göstərib. Füzuli və Cəbrayıl istiqamətlərində gedən döyüşlərə qatılıb, düşmənin xeyli texnika və canlı qüvvəsini məhv edib. Sonuncu döyüşündə yaralı yoldaşlarına kömək etmək üçün tankın kabinəsindən çıxarkən snayperlə vurulub və şəhidlik zirvəsinə yüksəlib. Bəhruz İbrahimov ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib.

Qurbani Ziyafəddin oğlu Əlizadə 1992-ci il iyunun 11-də Füzuli rayonu Yuxarı Kürdmahmudlu kəndində dünyaya göz açıb. Hələ kiçik yaşlarından hərbçi olmaq istəyən Qurbani 2010-cu ilin iyul ayında həqiqi hərbi xidmətə də ruh yüksəkliyi ilə yola düşüb. Nümunəvi əsgər olan Qurbani həqiqi hərbi xidmətini müvəffəqiyyətlə başa vurub. 2015-ci ildə yenidən könüllü olaraq "N" saylı hərbi hissədə müddətdən artıq xidmət edən əsgər kimi vətənin keşiyində dayanıb. Hərbi hissənin rəhbərliyi tərəfindən nümunəvi xidmətinə görə dəfələrlə fəxri fərmanlarla təltif olunub.

2016-cı ilin Aprel döyüşlərində fəal iştirak edib və komandanlıq tərəfindən mükafatlandırılıb, daha sonra çavuş rütbəsinə layiq görülüb. Vətən müharibəsi başlandığı gündən Qurbani düşmən üzərinə hücuma keçən ilk döyüşçülərdən olub. O, ön cəbhənin yarılmasında xüsusi şücaət göstərib və Füzuli rayonu ərazisində gedən ağır döyüşlər zamanı qəhrəmancasına şəhidlik zirvəsinə yüksəlib. Qurbani Əlizadə ölümündən sonra lll dərəcəli "Vətənə xidmətə görə" ordeni və "Vətən uğrunda", "Cəsur döyüşçü", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilib.

# "Qardaşlarımı tək qoymamalıydım" - qazi Famil Nəsirovun qəhrəmanlıq yolu

44 günlük Vətən müharibəsi başlayanda peşəsindən, ixtisasından, cəmiyyətdə tutduğu mövqedən asılı olmayaraq hər kəs "dəmir yumruq"tək birləşmişdi. Ölkəmizin hər guşəsindən minlərlə igid Vətənin müdafiəsinə qalxmışdı. AZƏRTAC xəbər verir ki, həmin oğullardan biri də Göyçayın Hacalıkənd kənd sakini Famil Nəsirov idi.



Famil Nəsirov 1991-ci ildə Hacalıkənd kəndində dünyaya göz açıb. 2009-cu ildə hərbi xidmətə yollanıb, xidmətini uğurla başa vuraraq evə qayıdıb. Deyir ki, Tovuz döyüşlərində general Polad Həşimovun şəhid olması xəbəri ona pis təsir etmişdi: "O günləri heç vaxt unutmaram. Şəhid xəbərini eşidəndə sakit qala bilmədim. 2020-ci il sentyabrın 21-də könüllü olaraq hərbi təlimə qatıldım. Hər an hiss edirdik ki, böyük gün yaxınlaşır..."

2020-ci il sentyabrın 27-si səhər saatlarında erməni bölmələrinin cəbhəboyu təxribata başlaması ilə vəziyyət gərginləşdi. Tezliklə əks-hücum əmri gəldi və Famil döyüşə qatıldı. İlk istiqamət Ağdam oldu - düşmənin ən möhkəm istehkam qurduğu mövqelərdən biri.

"Ağdam səngərləri… Sözlə ifadə etmək mümkün deyil. Hər tərəfdə partlayış baş verir, ətraf tüstü ilə dolmuşdu. Amma geri çəkilmədik. Hədəfləri məhv etdik, düşmənin texnika və canlı qüvvəsini sıradan çıxardıq. İlk günlərdən şəhidlərimiz oldu. Hər şəhid xəbərini eşidəndə ürəyim parçalansa da, qisas hissi ilə daha əzmlə döyüşə qatılırdıq", - deyə o əlavə edir.

Döyüşlər zamanı yanındakı əsgərlərin bir-birinə dəstəyi, birlik ruhu onu ruhlandırırdı. "Səngərdə gecələyirdik, soyuq, küləkli hava, bəzən yağış… Amma bir-birimizə baxışlarımız yetirdi ki, qorxunu unudasan və ancaq irəlini düşünəsən" deyən Famil o günlərdən danışarkən bildirir ki, ordumuzun ən yeni texnologiyaya malik silahları onlara əlavə güc verirdi: "Ali Baş Komandanımızın uzaqgörən siyasəti nəticəsində ordumuz müasir silahlarla təmin olunmuşdu. Hər cəhətdən üstünlük bizdə idi. Bütün varlığımızla döyüşürdük, amma əlində güclü silah olmayanda istəyini gerçəkləşdirə bilməzsən".

Famil oktyabrın 24-də şiddətli döyüşlərin birində ağır yaralanıb. Deyir ki, həmin an sanki həyat bir anlıq dayanmışdı. Ancaq dörd tərəfdən partlayış, güllə səsləri eşidilirdi. "Qulaqlarım tutuldu, bədənimdə güclü ağrı hiss etdim. Ətrafımda yoldaşlarımın səsləri gəlsə də, ayağa qalxa bilmirdim. Sonra məni hospitala təxliyə etdilər. Amma ürəyim ön xətdə, döyüş yoldaşlarımın yanında qalmışdı. Noyabrın 7-də yenidən onların yanına qayıtdım, sanki ikinci dəfə doğulmuşdum" söyləyən bu qəhrəman "Qardaşlarımı tək qoymamalıydım. Onların qanı boşa getməməliydi" deyə əlavə edir.

Noyabrın 9-dan 10-na keçən gecə Qələbə xəbərini eşidəndə isə onların sevinci yerə-göyə sığmırdı. Bildirir ki, o hissləri sözlə ifadə etmək mümkün deyil. Bu Zəfər şəhidlərin qanı bahasına qazanıldı, torpaqlarımız azad olundu.

Familin atası İntiqam kişi söhbətə qoşulur. O həm qürurlanır, həm də kövrəlir: "Vətənpərvərlik, torpaq sevgisi ailədən gəlir. Mənim anamın babası Çanaqqala döyüşlərində şəhid olub. İkinci Dünya müharibəsində babam və əmilərim, Birinci Qarabağ müharibəsində mən və 44 günlük Vətən müharibəsində oğlum döyüşüb. Şükürlər olsun ki, bundan sonra nəvələrim sülh içində yaşayacaqlar".

Qəhrəman atası o günləri həm fəxrlə, həm də həyəcanla xatırlayır: "Oğlum müharibəyə yollananda mən Türkiyədə idim. Xəbəri eşidəndə dərhal geri qayıtdım, komissarlığa getdim ki, məni də döyüşlərə aparsınlar. Amma dedilər ki, yaşın çoxdur, oğlun döyüşdədir, sən nəvələrini saxla və qələbəmiz üçün dua et. Oğlumun yaralandığını eşidəndə təlaşlansam da, çox şükür, evə Qələbə xəbəri ilə döndü. Mən şəhidlərimizlə, qazilərimizlə və müharibə iştirakçıları ilə qürur duyuram", - deyə o bildirir.

Qazi Famil Nəsirov ailəlidir, iki övladı var. Hazırda kənd məktəbində texniki işçi kimi çalışır, fərdi təsərrüfatla məşğuldur. Müharibədə göstərdiyi xidmətlərə görə medallarla təltif olunub.

"Bu müharibə bizə öyrətdi ki, Vətən sevgisi, birlik və fədakarlıq hər çətinlikdən çıxmağa kifayətdir. Şəhidlərimizin ruhu daim bizimlədir" deyən Famil döyüşlərdə şəhidlik zirvəsinə yüksələn yoldaşlarının xatirəsinin xalqımız tərəfindən daim əziz tutulacağını vurğulayır. Çünki bu Zəfər onların Zəfəridir!

# İqtisadiyyat və sosial həyat

## “Serbiya gələcəkdə Azərbaycan qazının idxalını artıracağına ümid edir”




**Bu sözləri Serbiya Prezidenti Aleksandar Vuçiç “Trend”in Danimarkaya ezam olunmuş xüsusi müxbirinə bildirib.**

“Biz Azərbaycanla yaxşı dostuq və artıq müqavilə bağlamışıq. Serbiyada qaz istehlakı artır və sizin ölkədən almağa hazırlaşdığımız həcmlər çoxalır. Ümid edirik ki, gələcəkdə TAP və TANAP vasitəsilə daha çox qaz idxal edə biləcəyik. Bunun üçün bütün zəruri obyektləri inşa edirik və Serbiya ilə Azərbaycan arasında əməkdaşlığa heç bir sərhəd yoxdur”, – deyə o qeyd edib.

## Azərbaycan nümayəndə heyəti Qazaxıstanda "Yeni İpək yolu" forumunda təmsil olunub

**Qazaxıstanın Almatı şəhərində "Yeni İpək yolu" VII Beynəlxalq Nəqliyyat və Logistika Biznes Forumu keçirilib. Bu barədə “Trend”ə Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyindən məlumat verilib.**



Bildirilib ki, beynəlxalq tədbirdə Azərbaycan rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Rəhman Hümmətovun rəhbərlik etdiyi nümayəndə heyəti ilə təmsil olunub. Beynəlxalq nəqliyyat əməkdaşlığının gücləndirilməsi, nəqliyyat dəhlizlərinin inkişafı və regional logistika potensialının reallaşdırılması forumun əsas müzakirə mövzuları olub.

Forum çərçivəsində "Nəqliyyat əlaqəliliyi və nəqliyyat dəhlizlərinin sinxronizasiyası" mövzusunda panel iclas, Türk Dövlətləri Təşkilatına üzv ölkələrin nəqliyyat nazirlərinin VIII iclası təşkil edilib. Həmçinin Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu (TMTM) ölkələrinin nümayəndə heyəti rəhbərlərinin görüşü keçirilib.

Beynəlxalq tədbirdə bir sıra mühüm sənədlər imzalanıb. Buraya TMTM marşrutu üzrə dəmir yolu seqmentində mövcud "dar boğazlar"ın aradan qaldırılması məqsədilə tədbirlər planı, Trans-Xəzər marşrutu üzrə nümayəndə heyətlərinin görüşünə dair protokol, Türk Dövlətləri Təşkilatına üzv ölkələrin nəqliyyat nazirlərinin VIII iclasının yekunları ilə bağlı kommünike daxildir.

# "PowerChina" Azərbaycanla "yaşıl enerji" sahəsində əməkdaşlığını genişləndirməkdə maraqlıdır

**Azərbaycanın "PowerChina Resources Ltd" şirkəti ilə "yaşıl enerji" sahəsindəki əməkdaşlığı getdikcə genişlənir. Keçən il COP29 çərçivəsində Energetika Nazirliyi və şirkət arasında imzalanmış bərpaolunan enerji üzrə anlaşma memorandumunda nəzərdə tutulan layihələrin icrası ilə bağlı vəziyyət daim diqqət mərkəzindədir.**



Prezident İlham Əliyevin keçən ay Çin Xalq Respublikasına işgüzar səfəri zamanı Tiencin şəhərində "PowerChina Group"un icraçı vitse-prezidenti Xı Yınfen ilə görüşü bu işlərə xüsusi bir stimul verib. Bu görüş bir daha göstərdi ki, əməkdaşlığımız və tərəfdaşlığımız davamlı xarakter daşıyır. Belə ki, görüşdə "yaşıl enerji", ətraf mühitin mühafizəsi, su resurslarının idarəolunması, çirkab suların təmizlənməsi, elektroenergetika və "yaşıl hidrogen" layihələri, tikinti, avadanlıq istehsalı sahələrində əməkdaşlıq məsələləri müzakirə edildi. Eyni zamanda günəş və külək-elektrik stansiyalarının inşası, "ağıllı enerji sistemləri"nin inteqrasiyası və yerli mütəxəssislərin hazırlanması üzrə əməkdaşlıqla bağlı perspektivlərə dair fikir mübadiləsi aparıldı.

Göründüyü kimi, bu enerji qrupu ilə daha çox sahədə və daha geniş miqyasda əməkdaşlıq üçün perspektivlər var. Keçən ayın sonunda energetika naziri Pərviz Şahbazovun "PowerChina Resources Ltd" şirkətinin sədri Zhong Haixiang ilə görüşü də bunu təsdiqləyir.

Əvvəla qeyd edək ki, "PowerChina Resources Limited" şirkəti Çində ən böyük enerji istehsalçılarından biridir. 25 yaşına qədəm qoyan şirkət Honkonq şəhərində yaradılıb və mənzil qərargahı da bu şəhərdə yerləşir. "PowerChina Resources Limited"in aktivləri 37 kömür, 3 qaz-istilik, 119 külək, 25 günəş və 2 su-elektrik stansiyası təşkil edir ki, bunların da ümumi gücü 43,4 qiqavatdır. Şirkət Çinin əsasən şərq, cənub və mərkəzi regionlarında fəaliyyət göstərir. Öz ölkəsindən xaricdə də bərpaolunan enerji sahəsində sərmayə qoyuluşu həyata keçirən, geniş potensial və təcrübəyə malik bir şirkət kimi "PowerChina Resources Limited" həmçinin Azərbaycanda bu sahədə layihələrə investisiya yönəldilməsi, onların planlaşdırılması, layihələndirilməsi, tikintisi və istismarında əməkdaşlığa maraqlıdır.

Məlum olduğu kimi, Prezident İlham Əliyevin bu ilin aprel ayında Çin Xalq Respublikasına dövlət səfəri çərçivəsində ölkələrimiz arasında müxtəlif sahələrdə əməkdaşlığı əhatə edən çoxsaylı sənədlər imzalandı. Təkcə "yaşıl enerji"yə aid imzalanan sənədlərin sayı 6 idi. O cümlədən Energetika Nazirliyi, "PowerChina Resources Limited" və "SOCAR Green" arasında 160 MVt gücündə günəş-elektrik stansiyası layihəsinin qiymətləndirilməsi, inkişafı və həyata keçirilməsinə dair imzalanmış İcra müqaviləsi mübadilə edildi. Stansiyanın 2028-ci ildə istismara verilməsi planlaşdırılır və obyektdə illik təxminən 332 milyon kilovat-saat elektrik enerjisi istehsalı proqnozlaşdırılır. Bu isə ildə 73 milyon kubmetr həcmində təbii qaza qənaət edilməsi, atmosferə atılan karbon emissiyalarının 160 min ton azaldılması deməkdir.

Layihənin həyata keçirilməsi üçün xüsusi layihə şirkətinin və rəhbər komitənin yaradılması nəzərdə tutulur. Sənəddə layihənin texniki-iqtisadi əsaslandırılması, layihələndirilməsi, maliyyələşdirilməsi, tikintisi, istismarı və texniki xidməti kimi istiqamətlər əks olunub. Energetika Nazirliyinin layihə üçün torpaq sahəsinin ayrılması, müvafiq icazələrin verilməsi və yerli resurslardan istifadə olunmasına dəstək göstərməsi planlaşdırılır. Layihə həmçinin gələcəkdə batareya enerji saxlanc sisteminin inteqrasiyası imkanlarını da nəzərdən keçirir.

Bu günlərdə Energetika Nazirliyi və "PowerChina Resources Ltd" rəhbərlərinin görüşündə də Azərbaycanla Çin arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması və enerji sahəsində əməkdaşlığın inkişafında Prezident İlham Əliyevin cari ilin aprel və sentyabr aylarında dost ölkəyə səfərlərinin mühüm rolu vurğulanıb. Bərpaolunan enerji sahəsində Çin şirkətləri ilə tərəfdaşlığa xüsusi əhəmiyyət verildiyi qeyd olunub.

"PowerChina Resources Ltd" şirkəti ilə 160 meqavat gücündə günəş-elektrik stansiyası, həmçinin 2 qiqavat gücündə dənizdə külək enerjisi layihələrinin icrasının mövcud vəziyyəti müzakirə edilib. Layihələrin inkişaf perspektivləri şəbəkəyə inteqrasiya və ixrac imkanları çərçivəsində qiymətləndirilib. Hazırda Çinin Elektrik Enerjisinin Planlaşdırılması və Mühəndislik İnstitutu (EPPEI) ilə əlavə bərpaolunan enerji güclərinin enerji sisteminə inteqrasiyası məqsədilə şəbəkə tədqiqatlarının aparılması, həmçinin Türkiyə və Avropa istiqamətlərində enerji interkonnektorlarının qurulması barədə məlumatlar diqqətə çatdırılıb.

"PowerChina Resources Ltd" şirkətinin sədri Zhong Haixiang bildirib ki, Azərbaycan təkcə siyasi baxımdan deyil, həm də bazar potensialı və iqtisadi biznes mühiti baxımından əlverişli ölkədir və şirkət yeni investisiya layihələrinə maraq göstərir. Görüş zamanı bərpaolunan enerji, hidroakkumulyasiya sistemləri və digər sahələrdə potensial investisiya imkanları barədə fikir mübadiləsi aparılıb.

Vurğulayaq ki, ölkəmizin neft və qaz sahəsində yaratdığı beynəlxalq əməkdaşlıq platforması "yaşıl enerji" layihələri ilə daha da genişlənir və möhkəmlənir.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Bakı dünyanın ekoloji paytaxtına çevrilir

**Azərbaycan COP29-dan sonra da ətraf mühitin qorunması istiqamətində aktiv fəaliyyətini davam etdirir. Ölkəmiz günəş, külək və hidroenerji istehsalı sahəsində xarici şirkətlərlə əməkdaşlığı genişləndirir. Bununla yanaşı, işğaldan azad edilmiş ərazilərdə çoxsaylı su-elektrik stansiyaları tikilir. Artıq həmin ərazidə istifadəyə verilən su-elektrik stansiyalarında istehsal edilən enerji yerli tələbatı ödəməklə bərabər, ölkənin enerji təsərrüfatında istifadə olunur.**




Ölkəmiz COP29-dan sonra bu sahə üzrə bir çox beynəlxalq tədbirə də ev sahibliyi edir. "Bakı İqlim Fəaliyyəti Həftəsi 2025" (BCAW2025) onlardan biridir. BMT Baş Assambleyasının (BA) 73-cü sessiyasının sədri Maria Fernanda Espinosa tədbirin ikinci günündə çıxışı zamanı deyib ki, iqlim dəyişikliyi səbəbindən hər il təxminən 40-50 milyon insan yaşadığı yerlərdən didərgin düşür. O vurğulayıb ki, heç bir iqlim tədbiri resurslar olmadan baş tuta bilməz: "Enerji məsələlərindən danışırıq, 750 milyon insan var ki, onların enerjiyə çıxışı yoxdur. Bütün bu müzakirələrin təməlində Azərbaycan və digər ölkələr çalışır ki, bərpaolunan enerjiyə keçsin. COP30 həm də həmrəylik platforması olacaq. Riskləri görüb hərəkət etməliyik. Profilaktika tədbirlərinə köklənməliyik".

Məlumdur ki, dünyada iqlim dəyişikliyi üzündən yaranan problemlər əsasən insan amili ilə bağlıdır. Buna görə də yaranan problemləri insanlar həm də "yaşıl enerji"yə keçməklə aradan qaldırmalıdırlar. Amma ətraf mühitin çirklənməsində karbon qazları da az rol oynamır. Azərbaycan Prezidentinin iqlim məsələləri üzrə nümayəndəsi Muxtar Babayev tədbirdəki çıxışı zamanı qeyd edib ki, karbon qazlarının havaya atılmasının qarşısını almaq üçün qlobal səviyyədə birgə islahatlara ehtiyac var. Onun sözlərinə görə, ətraf mühiti qorumaq üçün karbon qazlarının havaya atılmasını təcili dayandırmaq lazımdır: "İqlim dəyişmələrini sürətləndirən bir neçə məsələ varsa, bunlardan biri də karbon qazlarıdır. Birgə islahatlara ehtiyac var. Bununla yanaşı, təhsil sisteminə sərmayə qoyulmalıdır. Gənclərin iqlim dəyişmələrində səyini gücləndirmək üçün bu vacibdir. Biz insan sağlamlığını qorumaq üçün "yaşıl enerji"yə keçməsi barədə yeni təşəbbüslərlə çıxış etməliyik".

Dünyada "yaşıl texnologiya"lar sürətli keçid üçün əlverişli iqtisadi fürsətlər yaradır. Bununla bağlı "ExxonMobil" şirkətinin sabiq vitse-prezidenti Jan Baderşnayder demişdir: "Yaşıl texnologiya"lar sürətli keçid üçün əlverişli iqtisadi fürsətlər yaradır. O həmçinin bildirmişdir ki, iqlim dəyişikliyinə qarşı mübarizə ekoloji, mənəvi, həm də iqtisadi baxımdan vacibdir. J.Baderşnayder "yaşıl enerji" istehsalının iqtisadi cəhətdən səmərəliliyini vurğulamışdır. Onun sözlərinə görə, hazırda mövcud olan texnologiyalar elə bir səviyyəyə çatıb ki, bərpaolunan enerji mənbələri inanılmaz dərəcədə ucuzdur: "Onlar demək olar ki, dünyanın hər yerində ən sərfəli enerji mənbəyidir. Sadəcə desək, "yaşıl enerji" birbaşa və açıq rəqabətdə qalıq yanacaqları üstələyir. Bunun səbəbi son illər baş vermiş fundamental iqtisadi inqilabdır. 2010-cu ildən bəri günəş enerjisi panellərinin, sahil külək turbinlərinin və batareyaların istehsal xərcləri müvafiq olaraq 90, 70 və 89 faiz azalıb. Kömür, qaz və elektrik stansiyalarının tikinti xərcləri bu rəqəmlərlə müqayisədə daha yüksəkdir".

Azərbaycan dünyada "yaşıl enerji"yə keçid sahəsində öndə gedən ölkələrdəndir, bu istiqamətdə fəaliyyətini gündən-günə genişləndirir, bərpaolunan enerji mənbələrinin yaradılması üçün yeni texnologiyaların cəlb edilməsinə xüsusi diqqət verir. Yeri gəlmişkən qeyd edək ki, bu günlər İqtisadi Zonaların İnkişafı Agentliyi ilə "China Datang Overseas Investment Co." arasında Abşeron yarımadasında Yaşıl Enerji Sənaye Parkının yaradılması üzrə Anlaşma Memorandumu imzalanıb. Bu əməkdaşlıq bərpaolunan enerji istehsalı, təmiz texnologiyalar və sənaye infrastrukturunun inkişafı sahəsində uzunmüddətli tərəfdaşlığı nəzərdə tutur.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

## Mərkəzi Bank Beynəlxalq Maliyyə İstehlakçılarının Müdafiəsi Təşkilatına tamhüquqlu üzv kimi qoşulub

**Azərbaycan Mərkəzi Bankı (AMB) beynəlxalq əməkdaşlıq imkanlarının genişləndirilməsi və maliyyə bazarlarında istehlakçıların müdafiəsi üzrə qabaqcıl təcrübələrin tətbiqi istiqamətində fəaliyyətini davam etdirir.**

AMB-dən verilən məlumata görə, bu istiqamətdə növbəti mühüm təşəbbüs Mərkəzi Bankın Beynəlxalq Maliyyə İstehlakçılarının Müdafiəsi Təşkilatına (FinCoNet) tamhüquqlu üzv qismində qoşulması olub.

Üzvlük çərçivəsində Mərkəzi Bank təşkilatın məsuliyyətli kreditləşmə, rəqəmsal maliyyə xidmətlərində istehlakçıların müdafiəsi, bazar davranışına nəzarət və risklərin qiymətləndirilməsi üzrə işçi qruplarında iştirak etmək hüququ qazanıb. Bundan əlavə, bu üzvlük beynəlxalq səviyyədə qəbul olunan siyasət sənədlərinin hazırlanması prosesinə cəlb olunmaq, həmçinin mövcud siyasət sənədləri və tədqiqat bazasına çıxış əldə etmək imkanı verir.

Mərkəzi Bank "FinCoNet" üzvü kimi maliyyə istehlakçılarının müdafiəsi və bazar davranışının tənzimlənməsi üzrə qabaqcıl təcrübələri öyrənə, beynəlxalq səviyyədə qəbul edilmiş təcrübə və yanaşmalarla tanış ola, həmçinin təşkilatın gündəliyinin müəyyən edilməsində iştirak edərək prioritet istiqamətlərin formalaşdırılmasına töhfə verə biləcək.

Qeyd edək ki, 2013-cü ildə təsis edilmiş "FinCoNet" maliyyə bazarlarının davranışına və maliyyə istehlakçılarının müdafiəsinə cavabdeh nəzarət orqanlarının beynəlxalq təşkilatıdır. Bu qurumun əsas məqsədi istehlakçıların maraqlarının qorunmasını təmin edən səmərəli və effektiv nəzarət mexanizmlərinin təşviq edilməsi, ədalətli və şəffaf bazar təcrübələrinin inkişaf etdirilməsi, həmçinin üzv qurumlar arasında ən yaxşı təcrübələrin paylaşılmasıdır.

## Daha bir qrup müharibə iştirakçısı öz kiçik biznesini qurdu

**Vətən müharibəsindən sonrakı dövrdə 13350-dək müharibə iştirakçısı üçün özünüməşğulluq proqramı əsasında kiçik təsərrüfatlar qurulub.**



Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi tərəfindən özünüməşğulluq proqramı çərçivəsində daha bir qrup müharibə iştirakçısına seçdikləri biznes istiqamətləri üzrə avadanlıqlar təqdim edilib.

Verilmiş avadanlıqlar hesabına proqram iştirakçıları avtotəmizləmə, kişi bərbərxanası və sairə fəaliyyət istiqamətləri üzrə kiçik biznes sahələrini yaradıblar.

Onlar göstərilən dəstəyə görə dövlət başçısına minnətdarlıqlarını ifadə edib, özünüməşğulluq proqramı çərçivəsində qurduqları təsərrüfatlarını genişləndirməyə səy göstərəcəklərini bildiriblər.

Qeyd edək ki, Vətən müharibəsindən sonrakı dövrdə 13350-dək, o cümlədən bu il 1000 nəfərə yaxın müharibə iştirakçısı üçün özünüməşğulluq proqramı əsasında kiçik təsərrüfatlar qurulub.

# Konstitusiya Məhkəməsinin Plenumunun iclasında Azərbaycan Respublikası Prokurorluğunun sorğusu əsasında qərar qəbul edilib

Fərhad Abdullayevin sədrliyi ilə Konstitusiya Məhkəməsi Plenumunun növbəti iclası keçirilib.

Konstitusiya Məhkəməsinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, məhkəmə iclasında Azərbaycan Respublikası Prokurorluğunun sorğusu əsasında Azərbaycan Konstitusiyasının 71-ci maddəsinin I və X hissələri və 80-ci maddəsi baxımından Cinayət Məcəlləsinin 12.1 və 12.5-ci maddələrinin əlaqəli şəkildə şərh olunmasına dair konstitusiya işinə baxılıb.

Konstitusiya Məhkəməsinin Plenumu iş üzrə hakim R.Quliyevin məruzəsini, maraqlı subyektlər Azərbaycan Respublikası Prokurorluğunun sorğusunu və Milli Məclis Aparatının mülahizəsini, Ali Məhkəmənin Cinayət Kollegiyası, Bakı Apellyasiya Məhkəməsinin Cinayət Kollegiyası, Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzi, Vəkillər Kollegiyasının Rəyasət Heyəti tərəfindən təqdim olunmuş mütəxəssis mülahizələrini, ekspertlər - Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin Cinayət hüququ və kriminologiya kafedrasının müdiri, hüquq elmləri doktoru, professor Ş.Səmədovanın, Milli Aviasiya Akademiyasının İqtisadiyyat və hüquq fakültəsinin dekanı, hüquq elmləri doktoru, professor A.Rüstəmzadənin rəylərini və iş materiallarını araşdırıb müzakirə edərək qərar qəbul edib.

Qərarda deyilir ki, Azərbaycan Konstitusiyasının 71-ci maddəsinin I və X hissələrinə və 80-ci maddəsinə, qanunçuluq və hüquqi müəyyənlik prinsiplərinə, Cinayət Məcəlləsinin 5.1 və 12.5-ci maddələrinə, habelə Konstitusiya Məhkəməsi Plenumunun bu Qərarının təsviri-əsaslandırıcı hissəsində əks olunmuş hüquqi mövqelərə əsasən həmin Məcəllənin 12.1-ci maddəsində nəzərdə tutulmuş şəxslərə xarici ölkənin ərazisində törətdikləri cinayətə görə cəzanın aşağı həddi Cinayət Məcəlləsinin Xüsusi hissəsinin müvafiq maddələri ilə müəyyən edilməlidir.

Qərar dərc edildiyi gündən qüvvəyə minir, qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv oluna, dəyişdirilə, yaxud rəsmi təfsir edilə bilməz.

# *Türkiyəli ekspert:* "Fransa və İsveçrə Cənubi Qafqazla bağlı destruktiv mövqe sərgiləyir"

"Fransa və İsveçrə Qarabağ münaqişəsinin başa çatması faktını görməzlikdən gələrək Cənubi Qafqazla bağlı destruktiv mövqe nümayiş etdirirlər".




AZƏRTAC xəbər verir ki, bu fikri Ankaradakı Avrasiya Araşdırmaları Mərkəzinin (AVİM) eksperti Selenay Erva Yalçın səsləndirib.

O, Bern və Parisin Azərbaycan-Ermənistan münasibətlərinə yanaşmasını "təxribatçı ritorika" və "ikili standart" adlandıraraq qeyd edib ki, hər iki Avropa ölkəsinin hakimiyyət dairələri ziddiyyətləri alovlandırmağa və Bakı ilə İrəvan arasında münasibətlərin yenidən gərginləşməsinə çalışır.

S.E. Yalçın bildirib ki, Fransa və İsveçrənin atdığı addımlar Cənubi Qafqazda sülh prosesinə açıq şəkildə ziddir, beynəlxalq hüquq prinsipləri və insan hüquqlarının müdafiəsi ilə isə heç bir əlaqəsi yoxdur.

"Bern və Paris davamlı sülh yolunda maneələr yaratmağa cəhd edirlər. Bu məqsədlə müxtəlif bəyanatlar verilir, toplantılar və tədbirlər təşkil olunur, lakin onların nəticələri beynəlxalq ictimaiyyət tərəfindən nəzərə alınmır. Üstəlik, bütün bu addımlar əvvəlcədən uğursuzluğu bəlli olan təxribatçı təşəbbüslər olduğunu dərk edən iki dövlət tərəfindən atılır", - deyə ekspert vurğulayıb. Nümunə olaraq, S.E. Yalçın bu ilin mayında İsveçrədə "Dağlıq Qarabağ üzrə sülh təşəbbüsünü irəli aparmaq" məqsədilə hansısa parlament komitəsinin yaradılmasını xatırladıb.

"Azərbaycan və Ermənistanın sülhə hazır olduğu bir vaxtda İsveçrə hakimiyyətinin "saxta gündəm" formalaşdırmaq istəyi məntiqə sığmır. Fransanın siyasəti də eyni ziddiyyətlərlə xarakterizə olunur", - deyə ekspert əlavə edib.

O, həmçinin Fransanın Ermənistandakı səfiri Olivye Dekotinyinin Musa dağı ətrafındakı hadisələr barədə tarixi faktları təhrif etməsini yada salıb.

"Tarixi hadisələrin sistematik şəkildə təhrif olunması Parislə İrəvanı yaxınlaşdırmır, əksinə, münasibətlərin normallaşmasına zərər vurur", - deyə AVİM eksperti yekunlaşdırıb.

# Bakı Təşəbbüs Qrupu beynəlxalq uğura imza atıb

Bakı Təşəbbüs Qrupu (BTQ) daha bir mühüm uğur qazanıb. Belə ki, qurumun hazırladığı hesabat BMT Baş katibinin 2025-ci il üzrə təqdim etdiyi "Afrikamənşəli insanların beynəlxalq ikinci onilliyinin həyata keçirilməsi üzrə fəaliyyət proqramı"na dair hesabatda öz əksini tapıb.




Bakı Təşəbbüs Qrupundan AZƏRTAC-a verilən məlumata görə, sənəddə BTQ dekolonizasiya və kiçik adalarda yaşayan xalqların müstəqilliyi istiqamətində fəaliyyət göstərən qlobal vətəndaş cəmiyyətləri arasında yeganə QHT kimi qeyd olunub.

Xatırladaq ki, cari ilin mayında BTQ "Afrikamənşəli insanların beynəlxalq ikinci onilliyi" çərçivəsində gördüyü işlər barədə hesabatı BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığına təqdim etmişdi. Baş katibin hesabatında təşkilata istinad edilməsi BTQ-nin beynəlxalq etimada malik tərəfdaş kimi tanındığını və kolonializmə məruz qalan xalqların səsini dünyaya çatdırmaqda mühüm platforma rolunu oynadığını bir daha təsdiqləyir.

BTQ-nin hesabatında əksini tapan fəaliyyətlər sırasında 2025-ci il yanvarın 21-də keçirilmiş "Reyunyon adasının müstəqilliyi: Fransanın müstəmləkə irsinin yenidən qiymətləndirilməsi və suverenliyə gedən yol" adlı beynəlxalq konfrans, fevralın 24-26-da Fransa və Niderland müstəmləkələrində çalışan jurnalistlərin iştirakı ilə təşkil olunmuş Beynəlxalq Mediatur, eləcə də aprelin 15-də BMT-nin Nyu Yorkdakı mənzil-qərargahında keçirilmiş "Dekolonizasiya: Səssiz İnqilab" adlı beynəlxalq konfrans yer alıb. Qeyd edək ki, sonuncu tədbir BMT-nin Afrikamənşəli İnsanların Daimi Forumunun dördüncü sessiyasının rəsmi yan tədbiri kimi qeydiyyatdan keçib.

Bu beynəlxalq tədbirlər BTQ-nin dekolonizasiya və insan hüquqları sahəsindəki fəaliyyətlərinin geniş ictimaiyyətə təqdim olunmasına mühüm töhfə verib. Təşkilatın icraçı direktoru Abbas Abbasov və müstəmləkə altında olan ərazilərin nümayəndələri BMT Baş Assambleyasında Afrikamənşəli İnsanların Daimi Forumunun dördüncü sessiyasında çıxış ediblər.

Bundan başqa, BTQ "Afrikamənşəli insanların beynəlxalq ikinci onilliyi"nə töhfə kimi "Reparasiya: Müstəmləkə irsi ilə üzləşmə" adlı müraciəti qəbul edib və kolonial zülmün tanınması, reparasiya tələbləri ilə bağlı beynəlxalq petisiya başladıb. Sənəddə keçmiş müstəmləkəçi dövlətlərin tarixi cinayətlərə görə məsuliyyətdən yayınması kəskin şəkildə qınanıb, reparasiyaların isə yalnız hüquqi deyil, həm də ədalət və insan ləyaqətinin bərpasına əsaslanan mənəvi öhdəlik olduğu vurğulanıb.

# Ermənistan parlamenti Azərbaycanla sülhün bərqərar olması haqqında bəyanatı təsdiq edib

Ermənistan parlamenti bu gün keçirilən növbədənkənar iclasında "Ermənistanla Azərbaycan arasında sülhün bərqərar olması haqqında" bəyanat layihəsini təsdiq edib.



AZƏRTAC xəbər verir ki, hakim "Vətəndaş Müqaviləsi" fraksiyası tərəfindən hazırlanan bəyanatda avqustun 8-də Vaşinqtonda Azərbaycan, Ermənistan və ABŞ liderləri tərəfindən imzalanmış sənədlərdə əks olunan əsas tezislər yer alır. Bəyanat layihəsini parlamentin növbədənkənar iclasında hakim partiyanın fraksiya rəhbəri Ayk Kondjoryan təqdim edib. O bildirib ki, avqustun 8-də Azərbaycan və Ermənistan sülh haqqında bəyannaməni paraflayıb.

Parlament eyni zamanda bu bəyanatla Ermənistan və Azərbaycanın ictimaiyyətini, eləcə də siyasi ekspertləri münaqişəni yenidən qızışdıran diskussiya, çağırış və hərəkətlərdən çəkinməyə çağırır.

# Ermənistan vətəndaşlarının məhkəməsində Vətən müharibəsi zamanı Azərbaycan rayonlarına və Mingəçevir şəhərinə raket atılması ilə bağlı sənədlər elan olunub

**E**rmənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası oktyabrın 2-də davam etdirilib.



AZƏRTAC xəbər verir ki, Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclasında təqsirləndirilən şəxslərin hər biri bildikləri dildə tərcüməçi, həmçinin müdafiələri üçün vəkillərlə təmin olunub.

İclasda təqsirləndirilən şəxslər, onların müdafiəçiləri, zərərçəkmiş şəxslərin bir qismi, onların hüquqi varisləri və nümayəndələri, həmçinin dövlət ittihamını müdafiə edən prokurorlar iştirak ediblər.

Əvvəlcə zərərçəkmiş şəxs İlham Məmmədov ifadə verib. O, 2002-ci il mayın 10-da hərbi xidmətdə olarkən posta gedən zaman Haramı düzündə Ermənistan silahlı qüvvələri tərəfindən əsir götürüldüyünü deyib. İ.Məmmədov deyib ki, həmin vaxt silahsız olub. Ermənistan silahlı qüvvələrinin hərbçiləri onu döyüb, işgəncələrə məruz qoyub. Bildirib ki, onu döyən zabitlərdən biri xüsusi qəddarlıq nümayiş etdirib. Zərərçəkmiş həmin zabitin adını sonradan öyrəndiyini, onun adının Levon olduğunu deyib.

Zərərçəkmiş şəxs baş prokurorun böyük köməkçisi Vüsal Əliyevin suallarına cavabında təqsirləndirilən şəxs Levon Mnatsakanyanı göstərərək qəddarlıq edən şəxsin o olduğunu söyləyib və deyib: "O, başıma yumruqla, sonra isə avtomatın qundağı ilə vururdu. Məni səngərin üstünə çıxarıb avtomatla atəş açdı. Həmin vaxt arxam Azərbaycan Ordusunun mövqelərinə tərəf idi. Elə yerdə durmağa məcbur etmişdi ki, bizimkilər bilmədən məni vura bilərdi. Sonra məni məcburi olaraq minalı ərazilərdə gəzdirdilər".

Zərərçəkmiş şəxs Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin şöbə rəisi Nəsir Bayramovun, baş prokurorun xüsusi tapşırıqlar üzrə köməkçisi Tuqay Rəhimlinin, digər dövlət ittihamçıları Təranə Məmmədovanın və Vüsal Abdullayevin suallarını da cavablandırıb. İ.Məmmədov deyib ki, Azərbaycanın həmin vaxt Ermənistan silahlı qüvvələrinin işğalı altında olan ərazilərində bir həftə saxlanılıb. Sonra isə Ermənistana göndərilib. 6 ay 15 gün saxlanıldıqdan sonra Azərbaycana təhvil verilib.

Zərərçəkmiş müdafiə tərəfinin suallarına cavabında əsir götürülənə qədər L.Mnatsakanyanı tanımadığını, həmin vaxtkı vəzifəsini bilmədiyini söyləyib. "Ancaq həmin vaxt ona olan münasibətə görə təxmin edirəm ki, vəzifəsi qərargah rəisi idi", - deyə əlavə edib.

O, Levon Mnatsakanyanın suallarına cavabında 1973-cü ildə anadan olduğunu, əsir götürülən zaman baş leytenant rütbəsində olduğunu bildirib. Zərərçəkmiş deyib: "Azərbaycan Kənd Təsərrüfatı İnstitutunu bitirərkən zabit rütbəsi verdilər. Orada hərbi kafedra var idi".

Əlavə edib ki, müddətli hərbi xidmət zamanı əvvəlcə arxa cəbhədə xidmət edib, sonradan ön cəbhədə xidmətə göndərilib. Tərxis olunana yaxın əsir götürülüb.

Təqsirləndirilən şəxs L.Mnatsakanyan 2002-ci ildə belə bir hadisənin baş verdiyini, yəni azərbaycanlı hərbçinin əsir götürüldüyünü təsdiq edib. Həmin hərbçinin istintaqa cəlb olunduğunu, müstəntiqlər tərəfindən dindirildiyini və daha sonra isə aidiyyəti üzrə təhvil verildiyini qeyd edib. Bundan başqa, təqsirləndirilən həmin şəxsin işgəncəyə məruz qalmadığını, ona su və çörək verildiyini iddia edib.

L.Mnatsakanyan dövlət ittihamını müdafiə edən prokurorun suallarına cavabında həmin dövrdə əsir düşmüş azərbaycanlının İ.Məmmədov olub-olmadığını bilmədiyini və onu tanımadığını deyib.

Daha sonra təqsirləndirilən Melikset Paşayanın vəkili məhkəməyə müraciət edərək onlara konfidensial görüş verilməsini xahiş edib. Hakim Zeynal Ağayev fasilədə onlara bunun üçün şərait yaradılacağını deyib.

Ardınca təqsirləndirilən Davit İşxanyan məhkəməyə müraciət edərək ona Azərbaycanda qeydiyyatdan keçmiş beynəlxalq qurumların və media qurumlarının siyahısının təqdim olunmasını xahiş edib. İclasda sədrlik edən bu məsələnin məhkəmənin səlahiyyətinə və fəaliyyətinə aid olmadığını deyib. Bildirib ki, Azərbaycanda beynəlxalq qurumların fəaliyyəti ilə bağlı heç bir problem yoxdur. Həmin təşkilatlar leqal şəkildə fəaliyyət göstərir və ölkə qanunvericiliyinə hörmətlə yanaşırlar. Hüquqlarını müdafiə edən vəkil həmin təşkilatların siyahısını ona təqdim edə bilər.

Hakim həmçinin Davit İşxanyana bildirib ki, ötən iclasların birində nümayiş etdirilən və iş üzrə sübut kimi keçən Ermənistanın müdafiə nazirinin müavini olmuş Manvel Qriqoryanın videomüsahibəsi də təqsirləndirilən şəxslərin planşetlərinə yüklənəcək.

Qeyd edək ki, həmin müsahibə məhkəmədə tədqiq olunduqdan sonra Davit İşxanyan videomaterialın tam şəkildə onların planşetinə yüklənməsini xahiş etmişdi.

Məhkəmə prosesi cinayət işləri üzrə sənədlərin elan olunması ilə davam etdirilib.

Əvvəlcə Ermənistan silahlı qüvvələrinin atəşləri nəticəsində azərbaycanlıların öldürülməsi, yaralanması, o cümlədən mina təxribatları nəticəsində baş vermiş hadisələrlə bağlı sənədlər elan edilib.

Daha sonra 2023-cü il sentyabrın 19-20-də Ermənistan ordusunun qalıqları və qanunsuz erməni silahlı dəstələri tərəfindən törədilmiş cinayət faktları üzrə sənədlər elan olunub.

Məhkəmədə işğaldan azad edilmiş ərazilərdə mülki şəxslərin mina və digər növ partlayıcı qurğuların partlaması nəticəsində həlak olması və ya xəsarətlər almasına dair hadisələr üzrə sənədlər də elan edilib. Habelə telejurnalist Mustafayev Çingiz Fuad oğlunun (ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib - red.) öldürülməsi faktı üzrə sənədlər də elan olunub.

Məhkəmə iclasında 1992-ci il yanvarın 26-da Şuşa rayonunun Daşaltı kəndində aparılmış hərbi əməliyyat, 1992-ci il aprelin 23-də Qazax-Barxudarlı dəmir yolu xəttində TEM-2-7065 nömrəli teplovoza hücum edilməsi, 1991-ci il sentyabrın 9-da Barxudarlı dəmir yolu stansiyasının atəşə tutulması və digər faktlar üzrə sənədlər elan edilib.

Bundan başqa, Vətən müharibəsi zamanı Tərtər rayonunun atəşə tutulması, "TərtərPambıq" ASC-yə xüsusilə külli miqdarda zərər vurulması, Vətən müharibəsi zamanı Füzuli, Beyləqan, Goranboy, Bərdə, Ağdam, Ağcabədi, Cəbrayıl rayonlarının (Cocuq Mərcanlı kəndinin - red.), Naftalan şəhərinin atəşə tutulması faktları ilə bağlı sənədlər elan olunub.

Məhkəmədə Vətən müharibəsi zamanı Yevlax rayonu və Goranboy rayonunun Goran kəndi istiqamətdə raket atılması, Mingəçevir şəhərinin atəşə tutulması, 2020-ci il oktyabrın 22-də Siyəzən, Kürdəmir və Qəbələ rayonları istiqamətlərində raketlər atılması faktları ilə bağlı sənədlər də elan edilib.

Elan edilən növbəti sənədlər Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş ərazilərdə törədilmiş dağıntılar, fərdi yaşayış evlərinə, qeyri-yaşayış obyektlərinə, mədəni irsə ziyan vurulması faktları ilə bağlı olub.

Məhkəmədə Laçın rayonunun meşə fonduna külli miqdarda ziyan vurulması, Laçın rayonu və digər ərazilərdə evlərin məhv edilməsi faktları ilə bağlı sənədlər də elan olunub.

Əhalinin qanunsuz məskunlaşdırılması, Qarabağ ərazisinə silah qaçaqmalçılığının həyata keçirilməsi, fosfor mərmilərindən istifadə edilməsi faktları ilə bağlı sənədlər də elan edilib.

Sənədlərin tədqiqi cinayət işlərinə aid fotolarla müşayiət olunub.

Məhkəmə prosesi oktyabrın 3-də davam etdiriləcək.

Qeyd edək ki, Ermənistan dövlətinin, onun dövlət qurumlarının vəzifəli şəxslərinin, hərbi qüvvələrinin və qanunsuz silahlı birləşmələrin bilavasitə rəhbərliyi və iştirakı, şifahi-yazılı qaydada verdiyi tapşırıq, göstəriş və təlimatları, maddi, texniki, şəxsi heyətlə verdiyi dəstəyi, mərkəzi qaydada idarəçiliyi əsasında, eləcə də ciddi nəzarəti altında Azərbaycan ərazisində daxili və beynəlxalq hüquq normalarına zidd şəkildə, Azərbaycana hərbi təcavüz etmək məqsədilə yaradılmış, həmçinin Köçəryan Robert Sedraki, Sarkisyan Serj Azati, Manukyan Vazgen Mikaeli, Sarkisyan Vazgen Zaveni, Babayan Samvel Andraniki, Balasanyan Vitali Mikaeli, Balayan Zori Hayki, Ohanyan Seyran Muşeqi, Qaramyan Arşavir Surenoviç, Melkonyan Monte Çarlz və digərlərinin rəhbərliyi, bilavasitə və dolayı iştirakları ilə Ermənistan dövləti, o cümlədən sözügedən cinayətkar birlik tərəfindən aparılan təcavüzkar müharibənin gedişində törədilmiş çoxsaylı cinayət faktlarına dair cinayət işi üzrə 15 təqsirləndirilən şəxs ittiham edilir.

Həmin şəxslər, yəni Harutyunyan Arayik Vladimiri, Qukasyan Arkadi Arşaviri, Sahakyan Bako Sahaki, İşxanyan Davit Rubeni, Manukyan David Azatini, Babayan David Klimi, Mnatsakanyan Levon Henrikoviç, Beqlaryan Vasili İvani, Qazaryan Erik Roberti, Allahverdiyan Davit Nelsoni, Stepanyan Qurgen Homeri, Balayan Levon Romiki, Babayan Madat Arakeloviç, Martirosyan Qarik Qriqori, Paşayan Melikset Vladimiri Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 100 (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma), 102 (beynəlxalq müdafiədən istifadə edən şəxslərə və ya təşkilatlara hücum etmə), 103 (soyqırımı), 105 (əhalini məhvetmə), 106 (köləlik), 107 (əhalini deportasiya etmə və ya məcburi köçürmə), 109 (təqib), 110 (insanları zorakılıqla yoxa çıxarma), 112 (beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrumetmə), 113 (işgəncə), 114 (muzdluluq), 115 (müharibə qanunlarını və adətlərini pozma), 116 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 118 (hərbi soyğunçuluq), 120 (qəsdən adam öldürmə), 192 (qanunsuz sahibkarlıq), 214 (terrorçuluq), 214-1 (terrorçuluğu maliyyələşdirmə), 218 (cinayətkar birlik (təşkilat) yaratma), 228 (qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə), 270-1 (aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər), 277 (dövlət xadiminin və ya ictimai xadimin həyatına sui-qəsd etmə), 278 (hakimiyyəti zorla ələ keçirmə və onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə), 279-cu (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və qrupları yaratma) və digər maddələri ilə ittiham olunurlar.



# III MDB OYUNLARI







# Gəncədən dünyaya sülh çağırışları

**Azərbaycanın ən qədim, zəngin mədəniyyətə malik şəhərlərindən biridir Gəncə. Saysız-hesabsız tarixi hadisələrin şahididir. Bura dahi şair, mütəfəkkir Nizami Gəncəvinin, görkəmli şairlər Əbülüla Gəncəvinin, Məhsəti Gəncəvinin, Mirzə Şəfi Vazehin, ictimai-siyasi, dövlət xadimləri Cavad xanın, Nəsib bəy Yusifbəylinin, Xəlil bəy Xasməmmədovun, Həsən bəy Ağayevin, Xudadat bəy Rəfibəylinin, diplomatlar Adil xan və İsmayıl xan Ziyadxanov qardaşlarının, ilk azərbaycanlı Sovet İttifaqı Qəhrəmanı İsrafil Məmmədovun, geoloq Mirəli Qaşqayın, bəstəkar Fikrət Əmirovun, teatr və kino xadimləri Adil İsgəndərovun, Məmmədrza Şeyxzamanovun, Ələddin Abbasovun və daha neçə-neçə böyük şəxsiyyətlərin yurdudur.**

### Tarixin çətin sınaqlarından keçən şəhər...

Hələ 977-ci ildə bu şəhərə gələn ərəb coğrafiyaşünası İbn Havqəl heyranlığını belə qələmə alıb: "Gəncə gözəl, varlı və qələbəlik şəhəridir. Buranın çoxsaylı əhalisi səxavətinə, mehribanlığına, elm adamlarına və mühacirlərə hörmətli münasibətlərinə görə fərqlənirlər". Şəhər əsrlər boyu əsas karvan yollarının üzərində yerləşdiyi üçün mühüm ticarət mərkəzlərindən biri hesab edilib. Yalnız iqtisadi cəhətdən deyil, digər sahələrdə də yüksəlib.

Bu fərqli, gözəl şəhər tarixin müxtəlif dönəmlərində çox ağır sınaqlarla üzləşib. Gəncəyə dönə-dönə hücumlar edilib. Tarixi mənbələrdən məlumdur ki, Gəncə VII əsrin birinci yarısında farslar, ikinci yarısında isə ərəblər tərəfindən dağıdılıb. VII əsrin axırlarında bu şəhər ərəblərlə xəzərlərin döyüş meydanı olub. 1231-ci ildə monqolların Azərbaycana II yürüşündə yenidən Gəncə basqına məruz qalıb.

Gəncə 1606-cı ildən 1804-cü ilə - çar Rusiyasına birləşdirilənədək Qacarlar, Əfşarlar, Zəndlər sülaləsinin tərkibində xanlıq mərkəzi olub. Gəncə xanlığı Cavad xanın (1785-1804) dövründə xeyli güclənib. Ancaq yenə yağı düşmənin bəlasına gəlib. 1804-cü ilin yanvarın 3-də Sisianovun ordusu Gəncə üzərinə yeriyib. Cavad xan ortancıl oğlu Hüseynqulu xanla birlikdə qanlı döyüşdə öldürülüb. Çar qoşunları yalnız Gəncə xanlığını işğal etməyib. Şəhərin adı da dəyişdirilib. Çar I Aleksandrın arvadı Yelizaveta Alekseyevnanın şərəfinə Yelizavetpol adlandırılıb.

Zaman keçib, hökmdarlar dəyişib. Gəncə hər zaman fərqli şəhər olaraq qalıb. Hətta rəsmi sənədlərdə adı dəyişdiriləndə də, o, əsl adı ilə tanınıb.

Gəncə şəhərinin yaddaşındakı ən gözəl, sevinc, bayram əhvali-ruhiyyəli günlərdən biri 1918-ci il iyunun 16-dır. Həmin vaxtlar Azərbaycanın paytaxtı Bakıda Şaumyanın rəhbərlik etdiyi Xalq Komissarları Soveti hökmranlıq edirdi. Odur ki, Tiflisdə qurulmuş Azərbaycan Xalq Cümhuriyyəti Gəncəyə köçüb. Gəncə şəhəri 1918-ci il iyunun 16-dan sentyabrın 17-dək dövlətin müvəqqəti paytaxtı olub. Cümhuriyyət hökumətinin 30 iyul 1918-ci il tarixli qərarı ilə tarixi adı - Gəncə bərpa edilib. Həmin ilin sentyabrında milli ordu və Qafqaz İslam Ordusu tərəfindən Bakı işğaldan azad olunub.

Bolşeviklərin Aprel işğalı da bu şəhərdə sükutla qarşılanmayıb. Gəncədə 1920-ci il aprelin 28-də İnqilab Komitəsinin hakimiyyəti ələ keçirməsi, mayın 1-də sovet hakimiyyətinin qurulması, sadəcə narazılıqlara səbəb olmayıb. 1920-ci il mayın 25-də Gəncədəki milli qüvvələr sovet hakimiyyətinə və qırmızı ordu qarnizonuna qarşı fəal silahlı çıxışlara başlayıblar. Bir neçə gün ərzində minlərlə üsyançı həlak olub. Gəncədə üsyanın yatırılmasında bolşevik ordusuna ermənilər kömək göstəriblər.

1935-ci ildə Gəncənin adı yenidən dəyişdirilib. Bu dəfə də Sergey Kirovun adı ilə Kirovabad adlandırılıb. Gəncə öz tarixi adına növbəti dəfə 1989-cu ildə qovuşub.

2020-ci ildə qırx dörd günlük Vətən müharibəsində də qədim Gəncə Ermənistan silahlı qüvvələrinin hücumlarına məruz qalıb. Cəbhə xəttindən 80 kilometr aralıda yerləşən Gəncə şəhərinə ayrı-ayrı vaxtlarda beş dəfə işğalçı ölkənin silahlı qüvvələri raket zərbələri endirib. Belə ki, Vətən müharibəsi dövründə oktyabrın 4-ü, 5-i, 8-i, 11-i və 17-də bu şəhər Ermənistan silahlı qüvvələrinin "Toçka-U", "Smerç", "SCUD" və digər raket sistemlərindən atəşə məruz qalıb. Bu amansız hücumlar nəticəsində 6-sı uşaq olmaqla, 26 mülki şəxs həyatını itirib, 142 dinc sakin isə yaralanıb. Şəhərə külli miqdarda ziyan dəyib.

### Tarix unudulmur

Artıq o vaxtdan beş il ötür. Vətən müharibəsi dövründə Ermənistan silahlı qüvvələri tərəfindən amansızlıqla bombalanan şəhər bu gün qürurla Zəfər günlərini qeyd edir. Tarix unudulmur. Gəncə terrorunun qurbanlarının xatirələri əbədiləşdirilir. Həmin zərbələrdən birinin endirildiyi ərazidə - yaşayış binalarının yerində inşa olunan, 4 hektar sahəni əhatə edən memorial bunun bariz nümunəsidir.

Dövlətimizin başçısı İlham Əliyev sentyabrın 27-də - Anım Günündə Gəncə Memorial Kompleksinin açılışında iştirak etdi. Prezident İlham Əliyevin 2022-ci ilin yanvarında təməlini qoyduğu bu kompleks İkinci Qarabağ müharibəsi zamanı Ermənistanın raket hücumlarının qurbanı olmuş günahsız insanların əziz xatirəsini əbədiləşdirmək və müharibənin acı reallıqlarını gələcək nəsillərə çatdırmaq məqsədi daşıyır. Yalnız bir abidə deyil, eyni zamanda beynəlxalq ictimaiyyətə çağırış, gələcək nəsillər üçün tariximizin canlı yaddaş salnaməsi olan bu məkanda - Gəncə Memorial Kompleksində dövlətimizin başçısı İlham Əliyev Ermənistanın raket hücumu zamanı hər iki valideynini itirmiş Nilay Əliyeva və onun babası Zahid Babazadə ilə görüşdü.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Vətən müharibəsi zamanı Gəncəyə raket hücumları nəticəsində valideynlərini, ailə üzvlərini və yaxın qohumlarını itirmiş, həmçinin xəsarət almış digər uşaqlarla da görüşdülər. Həmin gün o uşaqların yaddaşında həmişəlik sevinc, fəxarət dolu bir gün kimi qalacaq.

### İdman birliyinin parlaq rəmzi

Təkcə insanların deyil, şəhərlərin də yaddaşı var. Qədim Gəncənin də yaddaşına bu günlər iftixar dolu xatirələr yazılır. Beş il qabaq Ermənistan silahlı qüvvələrinin raket hücumları ilə qətlə yetirdikləri dinc, günahsız sakinlərinin qanı axıdılan, yasa batan şəhərdən bu gün bütün dünyaya sülh çağırışları ucalır.

Tarixən qonaq-qaralı olan Gəncə şəhəri hazırda Müstəqil Dövlətlər Birliyinin idman paytaxtıdır. Qeyd edək ki, Gəncə şəhəri III MDB Oyunlarının "İdman Paytaxtı" seçilib. Bu qərar MDB-yə üzv dövlətlərin Bədən Tərbiyəsi və İdman Şurasının Belarusun paytaxtı Minskdə keçirilən iclasında qəbul olunub.

Sentyabrın 28-dən Gəncə və daha altı şəhərimiz - Şəki, Qəbələ, Yevlax, Mingəçevir, Göygöl və Xankəndi III MDB Oyunlarına evsahibliyi edir. On gün davam edəcək yarışlarda Müstəqil Dövlətlər Birliyi ölkələrindən, həmçinin oyunlara qatılan Türkiyə, Pakistan, Oman, Kuba və Küveytdən 2400 nəfərlik idman nümayəndə heyətləri iştirak edəcəklər. Oktyabrın 8-dək davam edəcək III MDB Oyunlarında yarışlar 12 idman məkanında keçiriləcək və atletlər 23 idman növü üzrə 1694 medal (505 qızıl, 505 gümüş, 684 bürünc) uğrunda mübarizə aparacaqlar. Həmçinin qalib komandaların uğuruna ən çox töhfə verən idmançıların da xüsusi mükafatlarla təltif edilməsi nəzərdə tutulub.

Möhtəşəm tədbir - III MDB Oyunlarının təntənəli açılış mərasimi sentyabrın 28-də Gəncədə keçirilib. Dövlətimizin başçısı və birinci xanım açılış mərasimini izləyiblər.

Azərbaycan Respublikasının üçrəngli bayrağı arenaya gətirilərək Dövlət himnimizin sədaları altında ucaldıldıqdan sonra III MDB Oyunlarında iştirak edən ölkələrin idmançılarının təntənəli paradı keçirilib.

Mərasimdə çıxış edən III MDB Oyunlarının Təşkilat Komitəsinin sədri Samir Şərifov bildirib: "Əminik ki, yeni istifadəyə verilən möhtəşəm Gəncə stadionunda açılışını etdiyimiz bu idman oyunları dostluq, sülh, qarşılıqlı hörmət meyarlarına əsaslanan ədalətli mübarizə meydanı olacaq, ölkələrimiz və xalqlarımız arasında əməkdaşlığın genişlənməsinə, münasibətlərin daha da dərinləşməsinə mühüm töhfə verəcək".

III MDB Oyunlarının Təşkilat Komitəsinin sədri Azərbaycanda idmanın inkişafına böyük əhəmiyyət verildiyini, Prezident İlham Əliyevin xüsusi diqqət və qayğısı sayəsində ölkəmizin beynəlxalq idman ailəsinin nüfuzlu və etibarlı üzvlərindən birinə çevrildiyini, Azərbaycanın müxtəlif illərdə ən mötəbər beynəlxalq yarışlara evsahibliyi etməklə bacarıqlı təşkilatçı kimi özünü təsdiq etdiyini, Bakıda 2015-ci ildə I Avropa Oyunları, 2017-ci ildə IV İslam Həmrəyliyi Oyunları, eləcə də müxtəlif növlər üzrə dünya və qitə çempionatlarının yüksək səviyyədə keçirildiyini vurğulayıb.

Müstəqil Dövlətlər Birliyinin Baş katibi Sergey Nikolayeviç Lebedevin mərasim iştirakçılarına ünvanladığı məktubda qeyd etdiyi kimi, xalqlarımızın idman birliyinin parlaq rəmzinə çevrilən bu möhtəşəm idman hadisəsi yalnız atletlərin ən yüksək peşəkarlığını nümayiş etdirmək üçün bir platforma deyil, həm də MDB ölkələri arasında dostluq əlaqələrinin möhkəmlənməsinə, mədəniyyət və idman sahələrində çoxtərəfli əməkdaşlığın inkişafına xidmət edir.

O unudulmaz mərasimdə havaya buraxılan sülhün rəmzi ağ göyərçinlər, Gəncə səmasını nura qərq edən atəşfəşanlıq izləyənlərin ruhunu oxşayıb. Bu qədim şəhərdən dünyaya sülhün, əmin-amanlığın bütün bəşəriyyət üçün nə qədər xoş və gərəkli olduğu nümayiş etdirilib.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

## *Azərbaycan idmançılarının reytinqi:* İlk üç pillədə güləşçilər yer alıblar



**Gənclər və İdman Nazirliyi (GİN) Olimpiya idman növləri üzrə milli komandaların idmançılarının 2025-ci il oktyabrın 1-nə olan reytinq cədvəlini açıqlayıb.**

GİN-in Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, siyahının ilk üç pilləsində güləşçilər yer alıblar. Yunan-Roma güləşçiləri Ülvü Qənizadə və Həsrət Cəfərov, eləcə də sərbəst güləşçi Giorgi Meşvildişvili hərəyə 400 xalla liderliyi bölüşürlər.

İlk "onluq"da, həmçinin Osman Nurmaqomedov (sərbəst güləş, 340 xal), Zelim Tçkayev (cüdo, 330), Zelim Kotsoyev (cüdo, 320 xal), Eldəniz Əzizli (yunan-Roma güləşi, 320), Elcan Hacıyev (cüdo, 310), Murad Əhmədiyev (yunan-Roma güləşi, 250) və Arseni Cioyev (sərbəst güləş, 240) qərarlaşıblar.

## III MDB Oyunları çərçivəsində Şuşa və Xankəndiyə mediatur təşkil edilib



**Azərbaycanın evsahibliyi etdiyi III MDB Oyunları çərçivəsində Şuşa və Xankəndi şəhərlərinə mediatur təşkil edilib.**

AZƏRTAC xəbər verir ki, mediatur zamanı 60-dan çox xarici və yerli media nümayəndəsi əvvəlcə Şuşanın tarix-mədəniyyət abidələri ilə - Mərkəzi meydan, Xurşidbanu Natəvanın evi, Xan qızı bulağı, Qala qapıları, Yuxarı Gövhər ağa məscidi və Cıdır düzü ilə tanış olublar. Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin əməkdaşları onlara şəhərin tarixi, abidələri və təbiəti barədə məlumat veriblər.

Media nümayəndələri Şuşadan sonra Xankəndi şəhəri ilə tanış olub, III MDB Oyunlarının keçirildiyi Xankəndi şəhər stadionunda kamandan oxatma yarışlarını izləyiblər.

## Çövkən yarışlarında bütün yarımfinalçılar bəlli olub

**Azərbaycanın ilk dəfə evsahibliyi etdiyi III MDB Oyunlarında çövkən üzrə daha bir oyun keçirilib.**



AZƏRTAC xəbər verir ki, B qrupunda Türkiyə yığması Qazaxıstanla qarşılaşıb. Üç cavabsız qolla qalib gələn Qazaxıstan millisi yarımfinala yüksəlib.

Günün ilk matçında Küveyti 2:0 hesabı ilə üstələyən Qırğızıstan yığması da növbəti mərhələyə adlayıb. Bununla da çövkən yarışlarında bütün yarımfinalçılar bəlli olub. Daha əvvəl Azərbaycan və Özbəkistan yığmaları bu mərhələyə vəsiqə qazanıblar.

Qeyd edək ki, çövkən yarışlarına oktyabrın 7-də yekun vurulacaq.

## Fərid QAYIBOV: "Xankəndi stadionu UEFA-nın 3-cü kateqoriya standartlarına uyğun olacaq"

**"Xankəndi stadionu UEFA-nın 3-cü kateqoriya standartlarına uyğun olacaq. Burada beynəlxalq əhəmiyyətli oyunlar da keçiriləcək".**



AZƏRTAC xəbər verir ki, bunu gənclər və idman naziri Fərid Qayıbov Xankəndidə jurnalistlərə açıqlamasında deyib.

Nazir bildirib ki, iki il əvvəl dekabrın 21-də Xankəndi stadionunda futbol oyunu keçirilib. Bundan sonra stadionda rekonstruksiya işlərinə başlanılıb. İşlərin gələn ilin yanvar ayında başa çatdırılması nəzərdə tutulur.

"Ötən il dekabrın 21-də Xankəndidə badminton üzrə Azərbaycan çempionatı da keçirilmişdi. Bu isə ilk beynəlxalq yarışdır. Çox qürurluyuq. Biz iki il ərzində artıq Xankəndidə beynəlxalq yarış keçiririk", - deyə nazir əlavə edib.

## Azərbaycanın üzgüçülük komandası III MDB Oyunlarını 13 medalla başa vurub

**Azərbaycanın ilk dəfə evsahibliyi etdiyi III MDB Oyunlarında üzgüçülük yarışları başa çatıb.**

AZƏRTAC xəbər verir ki, Gəncə İdman Sarayında təşkil edilən yarışların sonuncu - beşinci günündə Azərbaycan təmsilçilərindən Süleyman İsmayılzadə qızıl, Anastasiya Qnussina isə bürünc medal qazanıblar.

Onlar müvafiq olaraq, 400 və 1500 metr məsafəyə sərbəst üsulla üzmədə fərqləniblər.

Bunuyla da Azərbaycanın üzgüçülük komandası III MDB Oyunlarını 13 medalla başa vurub.

Xatırladaq ki, 13 ölkədən ümumilikdə 1624 idmançının iştirak etdiyi III MDB Oyunlarına oktyabrın 8-də yekun vurulacaq.



## Azərbaycanın badminton millisi 3-cü yeri tutub



**Azərbaycanın evsahibliyi etdiyi III MDB Oyunlarında badminton üzrə qarışıq komanda yarışının qalibi müəyyənləşib.**

AZƏRTAC xəbər verir ki, final matçında Özbəkistan və Rusiya yığmaları qarşılaşıblar. Görüş Rusiyanın 3:0 hesablı qələbəsi ilə yekunlaşıb.

Qeyd edək ki, ötən gün yarımfinalda məğlub olan Azərbaycan millisi isə bürünc mükafata sahib çıxıb. Badminton yarışlarına oktyabrın 5-də yekun vurulacaq.

## *Qızıl medal qazanan Azərbaycan üzgüçüsü:* "Fəxr edirəm ki, Azərbaycan bayrağını ən yüksəyə qaldırdım"



**"Fəxr edirəm ki, Azərbaycan bayrağını ən yüksəyə qaldırdım".**

Bu sözləri AZƏRTAC-a açıqlamasında III MDB Oyunlarının üzgüçülük yarışlarında qızıl medal qazanan Azərbaycan təmsilçisi Süleyman İsmayılzadə deyib.

O, nəticəyə görə xoşbəxt olduğunu bildirib: "Yarışı 1 qızıl, 3 gümüş və 1 bürünc medalla bitirdim. Buna görə məşqçilərimə təşəkkür edirəm. Söz verirəm ki, gələcək turnirlərdə də uğur əldə edəcəyəm".

# Heydər Əliyev Fondu tərəfindən Samuxda inşa olunan yeni məktəb binası istifadəyə verilib

**Heydər Əliyev Fondu tərəfindən Samux rayonunun Alıuşağı kəndində yeni inşa olunan tam orta məktəb binası istifadəyə verilib.**





AZƏRTAC-ın məlumata görə, bu münasibətlə keçirilən mərasimdə dövlət tərəfindən təhsilə göstərilən diqqət və qayğıdan söz açılıb. Birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun təhsilin keyfiyyətinin yüksəldilməsinə yönələn layihələrinin əhəmiyyətindən, bu layihələrin paytaxtla yanaşı, regionları da əhatə etməsindən bəhs olunub. Vurğulanıb ki, fondun yeni təhsil ocaqlarının inşası və istifadəyə yararsız olan müəssisələrin yenidən qurulması istiqamətində gördüyü işlər dövlətin təhsil sahəsində apardığı siyasətə dəstək olaraq, gənc nəslin daha bilikli yetişməsinə və keyfiyyətli təhsil almasına töhfədir.

Diqqətə çatdırılıb ki, 70-dən artıq yaşı olan Samux rayon Alıuşağı kənd Mirzə Fətəli Axundov adına tam orta məktəbin yenilənməsinə ehtiyac var idi. Belə ki, 1953-cü ildə inşa olunan təhsil ocağı ötən müddət ərzində istifadəyə yararsız vəziyyətə düşmüşdü. Heydər Əliyev Fondu tərəfindən 2024-cü ildə üçmərtəbəli, 4 korpusdan ibarət yeni məktəb binasının inşasına başlanılıb. Burada sinif otaqları, fizika, kimya, biologiya laboratoriyaları, informatika, STEAM mərkəzi, hərbi təlim, tibb, əmək təlimi otaqları, eləcə də məktəbəqədər sinif otağı, kitabxana, yeməkxana, akt və idman zalları qurulub, məktəbin ərazisində açıq idman meydançası yaradılıb. Məktəb zəruri mebel və avadanlıqlarla, fənn kabinetləri və laboratoriyalar əyani vəsaitlərlə təchiz edilib. Həyətyanı ərazidə abadlıq və yaşıllaşdırma işləri aparılaraq ağac və kol bitkiləri əkilib.




Yeni məktəb binasının istifadəyə verilməsinə ən çox sevinənlər müəllim kollektivi və şagirdlərdir. Məktəbin şagirdi Turan Əsədzadə deyir ki, onun üçün ən sevincli günlərdən biridir: "Əvvəlki məktəb binası ilə yenisi müqayisə olunmazdır. Sinif otaqlarımız geniş və işıqlıdır, fizika, kimya, kompüter və digər otaqlarımız var. Həmçinin məktəbimizdə idman zalı və meydança da var. Çalışacağıq ki, dərslərimizi daha yaxşı oxuyaq, Vətənə layiqli oğul olaq".

Azim Həşimov da şagird yoldaşı kimi yeni məktəbdən çox razıdır: "Köhnə məktəb binası belə deyildi. Yeni binamızda yaxşı təhsil almağımız üçün hər şey nəzərə alınıb. Çalışacağıq ki, dərslərimizi oxuyub, əla qiymətlər alaq. Bütün otaqlar gözəldir, ən çox informatika otağımız xoşuma gəldi. Burada kompüter biliklərinə daha yaxşı yiyələnəcəyik".

Məktəbin direktoru Musa Əsədov bildirib ki, yeni binanın inşası kollektiv üçün ən böyük hədiyyədir. "Müasir tələblərə cavab verən məktəbimizin olması bizi ruhlandırır. İnanırıq ki, məktəbimizin nəticələri bundan sonra daha da yaxşı olacaq", - deyə məktəbin direktoru qeyd edib.


## OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

***2025-ci il üçün abunə yazılışı davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**




## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*


# Sürətlə artan dövlət borcu Ermənistanı çıxılmaz duruma salıb

Bütün sahələrdə dərin böhran yaşayan Ermənistanda ictimai-siyasi vəziyyət gərgin olaraq qalır. Artıq ölkənin müxtəlif şəhərlərində etirazlar keçirilir.

Siyasi çəkişmələrdən yorulan əhali problemlərinin həllini istəyir. Müharibədə məğlubiyyətə uğramasından 5 il keçməsinə baxmayaraq, sülh müqaviləsinin imzalanmasını hələ də uzatması Ermənistanın bir dövlət olaraq tənəzzülünü davam etdirməkdə, üzləşdiyi problemlərin miqyasını daha da artırmaqdadır.

Sosial-iqtisadi vəziyyətin təhlili də göstərir ki, ölkədə inflyasiya böyük sürətlə dərinləşdiyi halda, əhalinin maddi gəlirlərində hansısa artım yoxdur. Yaranan fərq nisbəti insanların durumunun daha da ağırlaşmasına, onların ifrat yoxsulluq həddində yaşamasına səbəb olur. Rəsmi dairələr də inflyasiya prosesinin nəzarətdən çıxdığını, əhalinin vəziyyətinin ağırlaşdığını etiraf edirlər.

"Past" nəşri yazıb ki, ölkənin dövlət borcunun artım tempi, onun struktur xüsusiyyətləri, borcun cəlb edilmə və istifadəsinin səmərəliliyi məsələləri, eləcə də onun xidmətinin maliyyə yükü gündən-günə iqtisadi siyasətə, sosial sahənin sabitliyinə və dövlətçiliyin uzunmüddətli inkişaf perspektivlərinə daha çox təsir edir. Ümumilikdə borc maliyyə aləti kimi inkişafın stimulu ola bilər, lakin Ermənistanda o, təkcə həcmlərin artımı ilə deyil, daha çox istifadənin səmərəsizliyi və strateji baxışın olmaması ilə tədricən sistemli riskə çevrilir: "Statistika Komitəsinin dərc etdiyi son məlumatlar göstərir ki, 2025-ci ilin iyul ayının sonuna Ermənistanın dövlət borcu artıq 14,1 milyard dollara çatıb, bunun təxminən 7 milyardı xarici borcdur, qalanı isə daxili borcdur. Ötən ilin eyni dövrü ilə müqayisədə borc 1,7 milyard dollardan çox və ya 14,3 faiz artıb. Bu temp borcun yığılması prosesinin təkcə ləngimədiyini, əksinə, sürətləndiyini göstərir. Halbuki ölkə iqtisadiyyatının artım imkanları, infrastrukturun inkişafı və ixracın genişlənməsi borcun yükünün artım tempindən geri qalır. Borcun hər ay 100 milyon dollardan artıq artması göstərir ki, dövlət maliyyəsinin idarəetməsinin mövcud modeli artıq sabitlik və proqnozlaşdırıla bilmə xüsusiyyətini təmin etmir, borcun cəlb olunması getdikcə inkişafın stimulu deyil, cari problemlərin avtomatik həlli vasitəsinə çevrilir".

Məlumatda bildirilib ki, dövlət borcunun xidmətinə hər il xərclənən böyük vəsaitlər dövlət büdcəsi üçün ciddi maliyyə yüküdür: "Çox vaxt büdcənin əhəmiyyətli hissəsini təşkil edən bu vəsaitlər təhsil, elm, səhiyyə, infrastrukturun yenilənməsi və ya sosial müdafiə sahələrinə yönəldilmək əvəzinə, əsasən, kreditlərin faizlərinin və əsas borcun ödənişinə sərf olunur. Bu isə bağlı dövran yaradır: yeni kreditlər əvvəlkilərin ödənilməsi və ya cari xərclərin maliyyələşdirilməsi üçün götürülür, real investisiya və inkişaf effekti isə minimum olur və ya ümumiyyətlə mövcud olmur".

Belə vəziyyətdə dövlət borcu gələcəyin yatırımı deyil, keçmişin və indiki problemlərin "kisəsini bağlamaq" vasitəsinə çevrilir. Bu isə uzunmüddətli dövrdə iqtisadi artımın ləngiməsinə, dövlət xidmətlərinin keyfiyyətinin aşağı düşməsinə, sosial gərginliyin artmasına və maliyyə sabitliyinin pozulmasına gətirib çıxarır. Əgər məqsədli şəkildə, əlavə dəyər yaradan, iqtisadiyyatın məhsuldarlığını artıran, gəlirləri yüksəldən və ya ixracı stimullaşdıran layihələr üçün istifadə edilirsə, borc maliyyə aləti kimi özü-özlüyündə pis deyil.

Bir çox ölkələr dövlət borcundan səmərəli şəkildə istifadə edərək strateji infrastruktur layihələrini, innovasiya proqramlarını, təhsilin və elmin inkişafını, sənayenin texnoloji yenilənməsini maliyyələşdirirlər. Lakin Ermənistanda borcun cəlb olunması və istifadəsi mədəniyyəti çox vaxt ən yaxşı beynəlxalq təcrübədən uzaqdır. Çox hallarda borc konkret inkişaf proqramları üçün deyil, büdcə kəsirini bağlamaq, maaş və pensiyaları ödəmək və ya sadəcə, cari problemləri müvəqqəti həll etmək üçün götürülür. Bu isə elə vəziyyət yaradır ki, borc hesabına qısamüddətli problemlər həll olunur, amma uzunmüddətli risklər və öhdəliklər diqqətdən kənarda qalır.

İdarəetmə mədəniyyəti baxımından Ermənistanda təhlükəli presedent formalaşıb. Hakimiyyət çox vaxt "sonradan bir şey edərik" məntiqi ilə hərəkət edir. Əsas odur ki, bu anda pul olsun. Kreditlər uzunmüddətli ödəniş şərtləri ilə - 2040-cı, 2045-ci və daha sonrakı illər üçün - götürülür və təbii ki, mövcud hakimiyyəti ölkənin gələcəyi və iqtisadiyyatı o qədər də maraqlandırmır. Yəni belə çıxır: "məndən sonra istəyir daşqın olsun".

Bunlar bir daha Ermənistanda bütün sahələrdə vəziyyətin qeyri-qənaətbəxş olduğunun, ölkə hakimiyyətinin hər keçən gün daha çıxılmaz vəziyyətə düşdüyünün sübutudur. Hadisələrin bu səpkidə inkişafı yaxın gələcəkdə Ermənistanda hakimiyyət böhranının yaşanacağını da istisna etmir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Zəfərin ilk müjdəçisi



## Suqovuşanın işğaldan azad olunmasından 5 il ötür

**Vətən müharibəsindən 5 il ötür. 2020-ci il sentyabrın 27-də Ermənistanın təxribatlarına cavab olaraq əks-hücum əməliyyatlarına başlayan Azərbaycan Ordusunun "dəmir yumruq" əməliyyatı düşməni elə ilk gündən qorxuya salmışdı. Çünki qüdrətli Azərbaycan Ordusu ilk gündə düşmənin illərdir möhkəmləndirdiyi və "keçilməz" adlandırdığı ön müdafiə xəttini yarıb əzəli torpaqlarımızı düşmən tapdağından azad etməyə başladı.**

Bu savaşın hər günü bir tarix idi. İgid oğullarımız Azərbaycanın adını ucaltdıqları kimi, Vətən uğrunda canından, qanından keçməyi də bacararaq şəhadətə ucaldılar. Təbii ki, İkinci Qarabağ müharibəsi başlayandan ürəyimizdəki narahatlıqla yanaşı, bir təsəllimiz də var idi. Cəbhədən gələn xoş xəbərləri sevinc göz yaşları ilə qarşılayırdıq. Çünki 27 illik həsrətə son qoyulurdu, düşmən ordusu darmadağın edilərək əzəli torpaqlarımızdan qovulurdu.

Rəşadətli ordumuz ilk olaraq ermənilərin illərlə möhkəmləndirdiyi müdafiə istehkamlarını yararaq Cəbrayıl və Füzuli rayonları istiqamətində irəliləməklə strateji yüksəkliyi və kəndləri azad edirdilər. Belə müjdəli xəbərin birini isə oktyabrın 3-ü axşam saatlarında aldıq.

Müzəffər Ali Baş Komandan İlham Əliyev tviter ( indi "X") hesabında paylaşım edərək ordumuzun keçmiş Madagizdə (indiki Suqovuşan) Azərbaycan bayrağını qaldırdığını elan etdi. Elə həmin gün Madagizin tarixi adının bərpası ilə bağlı dövlət başçısından daha bir paylaşım gəldi. "2020-ci il oktyabrın 3-dən Madagizin tarixi adını bərpa edirəm. Bundan sonra Suqovuşan adlandırılır. Qarabağ Azərbaycandır!"

Bununla da üçrəngli hilalımızın dalğalandığı, ucaldığı ilk yer işğaldan azad olunmuş Suqovuşan qəsəbəsi oldu. Bu, tarixi ədalətin bərpası prosesinin davam etdiyini göstərirdi. Qarşıda isə üçrəngli bayrağımızın qət edəcəyi hələ neçə-neçə şəhərlər və kəndlər var idi. Suqovuşan bu yolun başlanğıcı oldu.

Beləliklə, 1990-cı illərin əvvəllərində Ermənistan silahlı birləşmələri tərəfindən işğal edilən Suqovuşan qəsəbəsi və Talış kəndi Vətən müharibəsinin yeddinci günündə azadlığına qovuşdu.

Suqovuşan və Talış Azərbaycan Ordusu üçün çox strateji əhəmiyyətə malik ərazilərdən idi. Suqovuşanın azad edilməsi ilə mühüm əhəmiyyətə malik təminat yolları Azərbaycanın nəzarətinə keçdi. Bu döyüşlərdə Ermənistan ordusu xeyli canlı qüvvə və texnika itirdi. Suqovuşan və Talışdakı yüksəkliklər strateji baxımdan çox əhəmiyyətli idi.

Prezident İlham Əliyev Suqovuşanın azadlığını dəyərləndirərkən qeyd etmişdir ki, bu qəsəbənin azad edilməsi strateji nöqteyi-nəzərdən çox böyük əhəmiyyət kəsb edirdi. Çünki bu qəsəbə müharibənin gedişatında önəmli rol oynayırdı və onun əlimizdə olması bizə gələcək əməliyyatlarımızda üstünlük yaradırdı: "Düşmən yəqin bilirdi ki, biz bu istiqamətdən hərəkətə keçəcəyik. Talış kəndi və Suqovuşan qəsəbəsi bir gündə işğaldan azad edilmişdi. Burada çox güclü istehkamlar qurulmuşdu, bir neçə müdafiə xətti təşkil edilmişdi. Bütün strateji yüksəkliklərdə, qəsəbəyə gedən yüksəkliklərdə düşmən yerləşmişdi. Azərbaycan Ordusu böyük qəhrəmanlıq və fədakarlıq göstərərək şiddətli döyüşlər nəticəsində Talışı və Suqovuşanı işğaldan azad etdi".

Suqovuşan qəsəbəsi 5 dekabr 2023-cü ildə kənd Ağdərə rayonunun tərkibinə daxil edilib. Böyük qayıdış proqramına uyğun olaraq Suqovuşan da yenidən qurulub.

Burada ilkin dövrdə qəsəbənin infrastrukturunun qurulması işlərinə başlanılıb. Belə ki, uzunluğu 28,8 kilometr olan Tərtər-Çaylı-Suqovuşan-Talış avtomobil yolu yenidən qurulub. Qəsəbəyə Tərtər yarımstansiyasından 35 kV-luq yeni elektrik veriliş xətti çəkilib. Kənd elektrik enerjisi ilə təmin olunub. Gücü 4,8 meqavat olan "Suqovuşan-1" və gücü 3 meqavat olan "Suqovuşan-2" stansiyalarında təmir-bərpa işləri aparılıb. Suqovuşan su anbarı təmir olunub. Bu su anbarının ümumi həcmi 5,86 milyon kubmetrdir. Tərtərçay üzərində yerləşən anbar Tərtər, Ağdərə, Goranboy, Yevlax, Bərdə, Ağdam və Ağcabədi rayonlarının suvarma suyu ilə təmin edilməsində mühüm rol oynayır.

Bu gün Suqovuşanda həyat qaynayır. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva bu ilin mart ayının 18-də Ağdərə rayonunun Suqovuşan kəndində inşa olunan yaşayış kompleksinin istifadəyə verilməsi mərasimində iştirak edib, yeni mənzillərə köçən sakinlərə evlərin açarlarını təqdim ediblər.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Hava əsasən yağmursuz keçəcək

**Azərbaycanda oktyabrın 3-nə gözlənilən hava proqnozu açıqlanıb.**

Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Şimal-şərq küləyi əsəcək.

Havanın temperaturu gecə 14-17, gündüz 19-24 dərəcə isti olacaq. Atmosfer təzyiqi 768 millimetr civə sütunundan 765 millimetr civə sütununa enəcək. Nisbi rütubət gecə 70-75, gündüz 50-55 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Lakin gecə və səhər bəzi yerlərdə çiskin müşahidə ediləcəyi, arabir duman olacağı ehtimalı var. Şərq küləyi əsəcək.

Havanın temperaturunun gecə 13-16, gündüz 19-24, dağlarda gecə 4-8, gündüz 10-15 dərəcə isti olacağı bildirilir.


## "Bakıenerjitikinti" Açıq Səhmdar Cəmiyyətinin səhmdarlarının nəzərinə

"Bakıenerjitikinti" Açıq Səhmdar Cəmiyyətinin ümumi yığıncağı 1 dekabr 2025-ci il saat 11:00-da Bakı şəhəri, Sabunçu rayonu, Sabunçu dairəsi, ev 37 ünvanında keçiriləcəkdir.

***Gündəlikdəki məsələlər:***

1. 2024-cü il üzrə maliyyə hesabatının dinlənilməsi və təsdiqi.
2. Dividendlərin bölüşdürülməsi.
3. Digər məsələlər.

Yığıncaqda iştirak etmək hüququ olan bütün səhmdarlar şəxsiyyət vəsiqəsi ilə iştirak edə bilərlər.

**Əlaqə telefonu: (055) 219-88-79**

***İdarə Heyəti***

## ALLAH RƏHMƏT ELƏSİN!

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi cəmiyyətin əməkdaşı Cəmilə Əsgərzadəyə atası

**ELXAN ƏSGƏROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

K.Y.Fərəcova adına Elmi-Tədqiqat Pediatriya İnstitutunun direktoru və kollektivi Laboratoriya şöbəsinin həkim-laborantı Fövziyyə İsmayılovaya həyat yoldaşı

**AKİF QÜDRƏT OĞLU İSMAYILOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.



**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir**

**Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır**

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 4095**
**Sifariş 2005**

**Qiyməti 60 qəpik**